AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

*Əlyazması hüququndan*

**ZEMFİRA ELXAN qızı QULİYEVA**

# BÖYÜK BRİTANİYA VƏ İSPANİYA ARASINDA CƏBƏLLÜTARİQ PROBLEMİ

**İxtisas: HSM-060211-ÖLKƏŞÜNASLIQ (Böyük Britaniya üzrə)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər:** ***A. Ş. Şahmuradov***

***Tarix üzrə fəlsəfə doktoru***

**BAKI - 2022**

## MÜNDƏRİCAT

**GİRİŞ ........................................ 3-7**

**I FƏSİL. CƏBƏLLÜTARİQİN TARİXİ-COĞRAFİ XÜSUSİYYƏTLƏRİ ... 8-31**

1.1. Regionun tarixi inkişaf mərhələləri ........................................ 8-21

1.2. Müasir mərhələdə Cəbəllütariqin siyasi statusu və iqtisadi vəziyyəti ........... 21-31

**II FƏSİL. CƏBƏLLÜTARİQ PROBLEMİNİN MAHİYYƏTİ VƏ TƏNZİMLƏNMƏSİ ........................................ 32-66**

2.1. Problemlə bağlı Böyük Britaniya, İspaniya və Avropa İttifaqının mövqeyi .. 32-41

2.2. "Brüssel prosesi" və "Cəbəllütariq üzrə dialoq" ........................................ 42-55

2.3. "Brexit" və Cəbəllütariq problemi ........................................ 55-66

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................ 67-69**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........................................ 70-74**

## Qısaltmalar

**AB:** Avropa Birliyi

**ABŞ:** Amerika Birləşmiş Ştatları

**Aİ:** Avropa İttifaqı

**AİƏT:** Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı

**AİB:** Avropa İqtisadi Birliyi

**ARGP:** Cəbəllütariq Vətəndaş Hüquqları İnkişaf Assosasiyası

**Avratom:** Avropa Atom Enerji Birliyi

**BA:** Baş Assambleya

**BB:** Böyük Britaniya

**BMT:** Birləşmiş Millətlər Təşkilatı

**BOT:** Britaniya dənizkənarı əraziləri (British Overseas Territory)

**ERDF:** Avropa Regional İnkişaf Fondu

**ƏDV:** Əlavə dəyər vergisi

**XİN:** Xarici İşlər Naziri

**NATO:** Şimali Atlantika Müqaviləsi Təşkilatı

**PSWP:** Müxalif İspaniya Sosialist İşçi Partiyası

**ÜDM:** Ümumdaxili məhsul

# GİRİŞ

***Mövzunun aktuallığı.***.Ərazi məsələsi bəşər tarixi boyunca beynəlxalq münasibətlərin ən əhəmiyyətli mövzusudur. Bu gün bu problem nəinki aktuallığını itirməmiş, hətta yeni səviyyəyə çıxmışdır. Yalnız keçmiş sosialist düşərgəsi ölkələrində deyil, Avropada da mübahisəli ərazilər mövcuddur. Avropadakı ən uzun diplomatik mübahisə İspaniya ilə Böyük Britaniya arasında Cəbəllütariqin subyektivliyinə dair mübahisədir - bu mübahisənin tarixi 1713 -cü ildə Utrext müqaviləsinin imzalanmasında başlayaraq 300 ildən çoxdur ki, davam edir. Hazırda da London və Madrid üçün Cəbəllütariq problemi müasir dövrdə də öz aktuallığını itirməmiş, sadəcə olaraq hərbçiləri diplomatlar əvəz etmişdir.

Bu müddət ərzində Cəbəllütariqdə əhalisinin az olmasına baxmayaraq (təxminən 30 min nəfər) vətəndaş cəmiyyəti formalaşmış, o, fəal mövqe tutur və bu səbəbdən də mübahisə ikitərəfli formatdan çıxmışdır.

Bundan əlavə, öyrənilən mübahisənin özəlliyi ondadır ki, o, münaqişə XX əsrin sonlarından etibarən Avropa İttifaqı və NATO -da müttəfiq və tərəfdaş olan ölkələr arasında aparılır və bu da nəinki ikitərəfli münasibətləri, həm də bütövlükdə Avropa İttifaqında vəziyyəti gərginləşdirir.

2012-ci il Azərbaycanda keçirilən “Crans Montana” adlı forumda ilk dəfə Azərbaycan və Cəbəllütariq nümayəndələri arasında görüş baş tutdu. İki ölkə arasında əməkdaşlığın qurulması ilə bağlı gələcək perspektivlər müzakirə edilmişdir. 2022-ci ildən etibarən əməkdaşlıq yolunda ilk addım atılmış və Cəbəllütariq Azərbaycandan təbii qaz almağa başlamışdır. Azərbaycan-Böyük Britaniya, Azərbaycan-İspaniya və Azərbaycan-Cəbəllütariq ikitərəfli əlaqələrin təşəkkül tapması və bu əlaqələrin elmi cəhətdən təhlili baxımından da əhəmiyyətli ola bilər.

XX əsrin ikinci yarısında BMT-nin himayəsi altında müstəmləkəçiliyin ləğvi prosesi başladı. Cəbəllütariq formal müstəmləkə olaraq qalmaqdadır. Müasir dövrdə bir sıra ərazilər vardır ki, onlar kondominium ( beynəlxalq hüquqda ərazi üzərində birgə suverenliyin təmin edilməsi) statusuna malikdir. 1960-cı ildə BMT-nin Baş Məclisi müstəmləkələrin hansı şərtlərlə müstəqil ola biləcəkləri haqda 1514 saylı, BMT 1965 və 1966-cı illərdə qəbul edilmiş 2070 və 2331 saylı qətnamələr qəbul

etmişdir. Qarabağ məsələsi ilə bağlı Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə kimi, bu qətnamələr də həyata keçirilməmişdir. Müasir dövrdə də Böyük Britaniya və İspaniya arasında bu məsələ ilə bağlı razılıq olmadığı üçün Cəbəllütariqin statusunun beynəlxalq hüquqla müəyyənləşdirilməsi mürəkkəb olaraq qalır. Cəbəllütariq probleminin öyrənilməsi həm də beynəlxalq hüququn tətbiqedilmə vəziyyətinin müəyyənləşdirilməsi nöqteyi-nəzərindən kifayət qədər aktualdır.

Böyük Britaniya və İspaniya arasında Cəbəllütariq uğrunda üç əsrdən çox davam edən mübahisə 2006-cı ildə Böyük Britaniya tərəfindən yarımadada referendum keçirilməsi və 2018-ci ildə başlayan "Brexit" prosesi nəticəsində daha da mürəkkəbləşdi. Bunu nəzərə alaraq, qeyd etmək olar ki, Cəbəllütariq probleminin araşdırılması Böyük Britaniya və İspaniya əlaqələrinin tarixini və müasir vəziyyətini öyrənmək baxımından əhəmiyyətlidir.

İngiltərənin Avropa İttifaqından xaricdəki mülkləri ilə çıxması, Madrid və London arasında Cəbəllütariq mübahisəsini yenidən siyasi gündəmə qaytardı. Nəzərə almaq lazımdır ki, beynəlxalq təşkilatlardan Aİ, NATO və BMT də bu məsələ ilə müəyyən mövqe sərgiləyirlər. Bu da problemin beynəlxalq münasibətlər sistemində aktual olaraq qaldığını göstərir.

Ümumillikdə, Cəbəllütariq problemi və müasir dövrdə həll olunmamış ərazi problemləri həm dövlətlərarası və həm də regional, həm də beynəlxalq sülh və əmin-amanlıq üçün təhlükə mənbəyi olaraq qalır və bu problemlərin elmi cəhətdən tədqiqi onların dinc vasitələrlə həllinə müsbət təsir göstərə bilər.

***Problemin öyrənilmə dərəcəsi.*** Cəbəllütariq məsələsinin elmi tədqiqi bu vaxta qədər Azərbaycanda ayrıca tədqiqat obyekti olmadığı üçün olmadığı üçün daha çox xarici ədəbiyyat bazasından istifadə edilmişdir.

Rus türk və ingilis dilində işıq üzü görən mənbə və əsərlər istifadə olunmuşdur.

M.V.Kuznetsovanın "XXI əsrin əvvələrində İspaniya-Böyük Britaniya arasında Cəbəllütariq problemi", N.E.Anikeevanın "Müasir dövrdə İspaniya" adlı əsərindən Cəbəllütariq problemini tarixi aspektdən araşdırılmışdır və həmin əsərlərin materiallarından iş prosesində istifadə edilmişdir.

Tədqiqat prosesinə cəlb olunan əsərlərin bir qismi Cəbəllütariqin sosial-iqtisadi vəziyyəti ilə bağlıdır. Bu baxımdan E.V. Morozovun “İkinci dünya müharibəsi dövründə beynəlxalq münasibətlərdə Cəbəllütariq məsələsi”, E.N. Sulima və A.V. Kaulkonun “Böyük Britaniyanın Aİ-dan çıxdığı konteksdə Cəbəllütariq problemi” kitablarını göstərmək olar.

Cəbəllütariq probleminin hüquqi aspektlərinin öyrənilməsində S.J.Linkolnun “Cəbəllütariqin hüquqi statusu” adlı kitabından istifadə olunmuşdur.

M.A.Zenina və P.P.Yakovlevin “Böyük Britaniyanın dənizaşırı ərazilərinin həll olunmamış mübahisələri” adlı kitabından İspaniya və İngiltərənin Cəbəllütariq probleminə yanaşması ilə bağlı məsələlər tədqiqat obyektini təşkil edir və bu əsərlərdəki materialları da dissertasiya üzərində iş prosesinə cəlb edilmişdir.

Iş prosesində istifadə olunan resursların bir hissəsini internet resursları təşkil edir.

Problemin öyrənilməsində ilkin mənbələrdən geniş istifadə olunub. Bu baxımdan, Utrext müqaviləsi 1713-cü ildə, Cəbəllütariq Konstitusiyasını qeyd etmək olar.

Tədqiqat işinin yazılmasında Birləşmiş Millətlər Təşkilatının və onun komitələrinin xüsusən, Dekolonizasiya Komitəsinin (24 -cü Komitə) sənədləri və qətnamələri 2331 ( Cəbəllütariq sakinlərinin maraqlarını nəzərə alınası) saylı qətnamələri, Lissabon müqaviləsi, Kordova razılaşmalarından istifadə edilib.

***Tədqiqatın məqsədi və vəzifəsiləri.*** İspaniya və İngiltərə arasında Cəbəllütariq probleminin mənşəyi və müasir dövrdəki vəziyyətin tədqiqat işinin məqsədini təşkil edir.

Bu məqsədə nail olmaq üçün qarşıya qoyulan əsas vəzifələr aşağıdakılardır:

1. Münaqişənin tarixini müəyyənləşdirmək və bu konteksdə İspaniya – Böyük Britaniya əlaqələrini nəzərdən keçirib və təhlil etmək;

2. Cəbəllütariqin müasir daxili siyasi sistemini və statusu ilə bağlı məsələləri öyrənmək;

3. XX əsrdə Cəbəllütariq məsələsi ilə əlaqədar İspaniya və Böyük Britaniya arasında aparılan danışıqlar, habelə BMT və Avropa İttifaqının bu problemə münasibətini təyin etmək;

4. Brexit in Cəbəllütariq probleminə təsirini müəyyənləşdirilmək.

***Tədqiqatın metodları.*** Tədqiqatın metodoloji əsasını İspaniya və Böyük Britaniyanın Cəbəllütariq problemi ilə bağlı fərqli mövqelərini təhlil etməyə və müəyyən etməyə imkan verən sistemli və müqayisəli analiz üsulları təşkil etmişdir. Tarixi metod, indiki mərhələdə Cəbəllütariq probleminin əsasını anlamağa imkan vermişdir. Araşdırılan problemlə bağlı ictimai rəyin inkişafının əsas istiqamətlərini aydınlaşdırmaq üçün sosioloji metod istifadə edilmişdir.

***Tədqiqat işinin elmi yeniliyi.*** Tədqiqatın yeniliyi ondadır ki, iş prosesində yalnız nəzərdən keçirilən məsələ ilə bağlı tərəflərin mövqeləri öyrənməmiş, həm də konkret tarixi şəraitdə, problemin xüsusiyyətləri nəzərə alınaraq, onların mübahisəyə yanaşmaları müqayisəli şəkildə təhlil edilmişdir
Dissertasiya işində müasir dövrdə konkret olaraq "Brexitdən" dən sonra Cəbəllütariq məsələsi ilə bağlı meydana çıxan reallıqlar da tədqiq edilmiş və qiymətləndirmələr aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində problemlə bağlı irəli sürülən fikir və təkliflər əsasında yeni tədqiqat istiqamətlərini müəyyənləşdirmək, dünyada mövcud olan və həllini tapmayan ərazi mübahisələri haqqında Böyük Britaniya və İspaniya münasibətləri barədə proqnozların verilməsi, nəzəri yanaşmaların formalaşdırılması mümkündür. Tədqiqat işində əldə edilən nəticələrindən problem ilə bağlı yeni tədqiqatların aparılmasında istifadə etmək olar. Bundan başqa, dissertasiyanın materiallarından tədris vəsaitlərinin hazırlanması prosesində faydalanmaq olar. şdur.

***Tədqiqatın aprobasiyası.*** Tədqiqatın nəticələri müəllifin mövzu ilə bağlı çap olunmuş 1 məqaləsində və 1 tezisində öz əksini tapmışdır.

**İşin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Regionşünaslıq kafedrasında yerinə yetirilmişdir.

***Dissertasiyanın strukturu.*** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir

# I FƏSİL. CƏBƏLLÜTARİQİN TARİXİ-COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

## 1.1. Regionun tarixi inkişaf mərhələləri

1704-cü ildən etibarən Böyük Britaniyaya məxsus olan və Cəbəllütariq boğazının Pireney yarımadası sahilində yerləşən Cəbəllütariq hazırda Böyük Britaniyanın suverenliyi altında olan - liman şəhəri, hərbi bazası və offshore ərazisidir. Atlantik Okeanı və Aralıq dənizini ayıran bu qayanın tarixi lap qədimlərə söykənir. Cəbəllütariq 3000 illik qədim tarixə malikdir. Belə ki, Cəbəllütariq mağaralarında neandartal insana məxsus kəllə sümüyü tapılmışdır. Hələ keçmişdə ən vacib nəqliyyat qovşaqlarından birində - Aralıq dənizindən çıxışda yerləşən bu yarımada həmişə dənizçilərin və hərbçilərin diqqət mərkəzində olmuşdur [ 30, s.295].

Yunan, karfagen, krit, finikiyalı dəniz səyahətçiləri Cəbəllütariq ərazisinə gəlsə də, romalılar da daxil olmaqla heç biri bu ərazidə daimi məskən salmamışlar. V əsrdə Roma İmperiyasının süqutundan sonra Cəbəllütariq ərazisində vandallar və vestqotlar yaşayırdı. Ərazinin strateji əhəmiyyətini isə ilk olaraq, 711-ci ildə burada məskunlaşan ərəblər dəyərləndirmişdir [32, s.14].

Tariq ibn Səidin rəhbərliyi ilə 711-ci ildə buraya gələn ərəblər buradan Pireney yarımadasında fəthlərə başladılar. Yarımada bu komandirin şərəfinə Cəbəllütariq adladırılmışdı. 718-ci ilədək, şimaldakı kiçik xristian krallıqları istisna olmaqla, demək olar ki, bütün Pireney yarımadası mavrlar tərəfindən işğal edilirdi. Ölkənin şimalındakı kiçik xristian krallıqları ərəb hakimiyyətindən qurtuluş (rekonkista) mərkəzlərinə çevrilmişdi [33,s.10].

1309-cu ildə ispanlar Cəbəllütariqi ələ keçirdilər və ispan hakimiyyəti 1333-cü ilə qədər davam etdi. 1333-cü ildə dörd aylıq ağır mühasirədən sonra yarımada yenidən mavrların hakimiyyətinə keçdi. Növbəti illərdə Cəbəllütariq bir neçə dəfə mühasirəyə məruz qalmış, lakin, demək olar həmişə ispanların məğlubiyyəti ilə başa çatmışdı. Yalnız 1462-ci ildə Cəbəllütariq yenidən ispanların hakimiyyətinə keçdi.

1501-ci ildə Kastiliya Kraliçası İsabella, Cəbəllütariqin ispan tacına birləşdirilməsinə dair əmr verdi və 1502-ci ildə Cəbəllütariqin əlçatmazlığını və İspaniyaya simvolik açar olduğunu göstərən gerb verdi . Rekonkistadan sonra

Kastiliya Kralı IV Henri,öz tituluna əlavə olaraq həm də Cəbəllütariq Kralı titulunu əlavə etdi. İspan monarxiyası Cəbəllütariqin strateji əhəmiyyətini çox yaxşı bilirdi. Məhz buna görədir ki, Kastiliya Kraliçası İzabella, varislərinə nəyin bahasına olursa olsun qayanı qorumağı əmr etmişdi [32,s.17].

XVI əsrin əvvəllərində Müqəddəs Roma İmperiyasının imperatoru və İspaniya Kralı V Çarlz bütün yarımada üzərində müdafiə sisteminin yenidən qurulmasını əmr etdi və onu alınmaz qala halına gətirdi. Avropanın heç bir dövləti  dövləti, XVIII əsrin əvvəllərinə qədər uzun bir müddət ərzində Cəbəllütariqə müdaxilə etməyə cəsarət etmədi.

1700-cü ildə ispan Habsburqlar sülaləsinin sonuncu nümayəndəsi II Karlın ölümündən sonra İspaniya mirası uğrunda müharibə (1701-1714) başladı. Müharibədə bir tərəfdən Bavariya və Savoyyanın dəstəklədiyi Fransa, digər tərəfdən isə  Avstriya, İngiltərə, Hollandiya, Portuqaliya və Alman knyazlıqları iştirak edirdi. Hər tərəf öz məqsədini güdürdü. İngiltərə Aralıq dənizi sahilindəki İspan limanları ilə maraqlanırdı.

1704-cü ilin yayında, ispan taxt-tacına iddia edən Avstriyalı III Karlın mənafeyi naminə hərəkət edən vitse-admiral Corc Rukanın rəhbərliyindəki müttəfiq İngiltərə-Holland donanması Cəbəllütariq qalasını ələ keçirdi. Şəhərin işğalı əhalinin kütləvi köçünə səbəb oldu. İngilis jurnalist və tarixçi Corc Hillsin yazdığı kimi, "kapitulyasiyadan sonra V Filippi özlərinin qanuni kralı sayan bütün ispanlar şəhərdən ayrıldılar, ehtimal ki, onların sayı 4000 nəfər idi" [14, s.11].

Müttəfiqlər, ispanlar və fransızların Cəbəllütariqi geri almağa çalışacaqlarını başa düşdülər və dərhal qalanı möhkəmləndirməyə başladılar. 1706-cı ildə İngiltərə Kraliçası Anna (1665 - 1714) Cəbəllütariqi Azad ticarət zonası elan etdi. Bu qərara əsasən ərazidə hər kəsin rüsumsuz ticarət hüququna sahib olması, bu şəhəri tacirlər üçün daha cəlbedici etdi və şəhərin ərzaq təchizatını daha da yaxşılaşdırdı. Bir il sonra kraliça Anna Rocer Eliotu Cəbəllütariqin ilk valisi (qubernator) vəzifəsinə təyin etdi.

Cəbəllütariq 1712-ci ilin yanvarında başlayan və iştirakçı dövlətlərin Avropanın yeni xəritəsini təyin etməli olduqları Utrext (Hollandiya) Konqresinə qədər qanuni olaraq ispan mülkü olaraq hesab edilirdi.

1713-cü ilin aprelində Utrext sülh müqaviləsi bağlandı, bununla da, Cəbəllütariq "əbədi olaraq" ingilis tacına verildi. Beləliklə, Utrext müqaviləsi Avropada 3 əsrdən artıq davam edən ən uzun ərazi mübahisəsinin əsasını qoydu.

Bu baxımdan, Utrext müqaviləsinin X maddəsinin, Cəbəllütariqin vəziyyətinə birbaşa aid olan birinci və sonuncu bəndləri daha çox maraq doğurur. "Bu sənəd əsasında katolik Kralı, özü və varisləri adından sahib olduğu liman, istehkam və qalaları ilə birlikdə, Cəbəllütariq şəhəri və qalasını Böyük Britaniyaya təhvil verdi. Həmçinin o, mülkiyyət hüququndan imtina edərək, ərazidə mütləq hakimiyyətdən məhrum olur. Gələcəkdə Böyük Britaniya Cəbəllütariq ərazisindən bu və ya digər səbəbdən imtina edərsə, bu zaman alqı-satqıda üstünlük heç bir istisnasız İspaniyaya veriləcəyini qəbul edir" [1].

Müqavilənin son bənd İspaniya ilə İngiltərə arasındakı mübahisədə dəfələrlə əsas maneə olmuşdur. Bu, bir dövlətin beynəlxalq müqaviləyə əsasən başqa bir dövlətin asılı ərazisinə iddia etdiyi yeganə haldır [33, s.12].

X maddəsinə əsasən, İspaniya Cəbəllətariqi və Minorkanın limanlarınl tərk etdi və bu ərazilər Böyük britaniyanın nəzarəti altına keçdi. 1704-cü il tarixindən etibarən İspaniya, Böyük Britaniya suverenliyinin yalnız İspaniya şəhərin möhkəmləndirilmiş perimetrinə qədər aid olduğunu bildirir [33, s.302]. İngilislərə görə, onlar Cəbəllütariqə yarımadada İspaniya suverenliyinin davam etdiyindən daha uzun müddətdə (300 ildən çox) sahibdirlər (1462 - 1704).

Ərazidə yaşayış kompleksləri, stadion və ən əsası hava limanının tikdi və bu da İspaniya ilə mübahisəni daha da qəlizləşdirdi. Mübahisənin əsas mənbələrindən biri olan Utrext müqaviləsində dəqiq bir xəritənin olmaması və İspaniyanın tam olaraq nədən imtina etdiyinin açıq müəyyənləşdirilməməsi tərəflərə müqavilənin X maddəsini fərqli şəkildə şərh etməyə imkan verir. İspaniya, şəhərin möhkəmləndirilmiş sərhədi xaricində ingilis suverenliyini tanımır. Müasir sərhəddən bəhs etsək, belə, İspaniya, öz ərazisi daxilində heç bir "sərhəd" ola bilməyəcəyinə

istinad etdiyindən X maddəni qəbul etmir. Bunun əvəzinə, ispan dilində “verja” sözündən istifadə olunur ki, bu da “çəpər” deməkdir.

Cəbəllütariq hökuməti İspaniyanın bütün arqumentlərini rədd edir və bildirir ki, Utrext müqaviləsinə əsasən İngilis tacı “liman, istehkam və qalalarla birlikdə Cəbəllütariq şəhəri və qalası” nı idarə etmiş və mövcud sərhədlər boyunca bu cür “qalalar” (Şeytan Qülləsi, El Molino) olduğundan, bu ərazilər də İngiltərənin mülkiyyətinə daxil edilmişdi.

Əlavə olaraq, İspaniya iddia edir ki, həmin dövrdə ərazi güzəştləri özündə iki top mərmisi məsafəsində əlavə əraziləri ehtiva edirdi ki, bu ərazilər də “bitərəf” hesab edilməli idi [8].

Beləliklə, Utrext müqaviləsindəki ifadələrin qeyri-müəyyənliyinin gələcək qarşıdurmanın təməlini qoyduğunu deyə bilərik [33, s.13].

1704-cü ildə, İspaniya mirası uğrunda müharibə (İspaniya mirası uğrunda müharibə 1701-1714-cü illəri əhatə edir, 1713-cü ildə Utrext və 1714-cü ildə Raşştat müqaviləsinin bağlanması ilə müharibə başa çatmışdır.) dövründə ingilislər Cəbəllütariqi ələ keçirdi. Doqquz il sonra, 1713-cü ildə Utrext müqaviləsinə əsasən, Cəbəllütariq İngiltərə hakimiyyəti altına keçir. İngiltərə öz növbəsində qalanı heç bir dövlətə güzəştə getməyəcəyinə və nə vaxtsa imtina edərsə, onu, İspaniyaya qaytaracağına söz verdi. Qaladakı ispan sakinlərin əksəriyyəti yarımadanı tərk edərək qonşu Kadis vilayətinin San Roke şəhərində yerləşdilər. Cəbəllütariqdə bir İngilis hərbi qarnizonu yerləşdirildi və Aralıq dənizinin müxtəlif ölkələrindən mühacirlər, səfərad yəhudiləri, mərakeşlilər və digərləri burada yerləşdirildi [30, s.295].

Başlanğıcda İngiltərə də Cəbəllütariqə daha çox ticarət obyekti kimi baxırdı, buna görə də 1713-1728-ci illərdə İngiltərə hökuməti 7 dəfə Cəbəllütariqdən imtina etməyə çalışdı, lakin parlament xalqın etirazları səbəbindən bu məsələni müzakirəyə çıxarmadı.1727-ci ilin yanvarında İspaniya, Utrext Müqaviləsinin Cəbəllütariq bəndini etibarsız elan etdi və İngiltərəni müqavilənin şərtlərini pozmaqda günahlandırdı. Belə ki, o, İngiltərə hökümətini qaçaqmalçılara qarşı fəaliyyətsizlikdə günahlandırır, katolikləri qorumağa çalışmamaqda və eyni zamanda, yəhudilər və

mavrların şəhərdə yerləşmələrinə icazə verərək, şəhərin istehkamlarını tarixi hüdudlarından kənara genişləndirməklə, İspaniyaya zərər verməkdə təqsirləndirirdi.

İngilislərin Cəbəllütariq üzərində hakimiyyəti, hər iki tərəf üçün məqbul olmayan də uyğun Sevilya müqaviləsi (1729) ilə yenidən təsdiqləndi: İspaniya Cəbəllütariqi geri qaytarmaq istəyirdi, İngiltərə isə Utrext müqaviləsinin məhdudlaşdırıcı müddəaları ilə kifayətlənmirdi. Buna cavab olaraq, növbəti il İspaniya yarımadanın şimal sərhədi boyunca Cəbəllütariqin materiklə əlaqəsini kəsən istehkam tikintisinə başladı. 1779-cu il iyunun 24-dən 1783-cü ilə fevralın 7-nə qədər davam edən və Cəbəllütariq üzərində ingilis hökmranlığı tarixinin ən uzun mühasirəsi"Cəbəllütariqin böyük mühasirəsi" başladı. Bütün bu hadisələr fonunda ingilis cəmiyyətində Cəbəllütariqlə güclü emosional bağlılıq yarandı. Hətta yarımadanın əlçatmazlığına dair inam "Cəbəllütariq qayası qədər möhkəm" ifadəsində əks olundu[19, s.13].

İspaniya isə Cəbəllütariqin yenidən qazanılması ümidindən əl çəkmirdi. Beləliklə, 1779-1783-cü illərdə İspaniya-Fransa qalanın mühasirəsini həyata keçirsə də, hamısı uğursuzluğa düçar oldu və 1783-cü il Versal müqaviləsinə görə, qala İngiltərənin mülkiyyətində qaldı.

Napoleon müharibələri və II Dünya Müharibəsi zamanı Aralıq dənizinə giriş və çıxışa nəzarəti həyata keçirməyə üçün Kral Donanması üçün mühüm baza idi. [30, s.296].

1805-ci il məşhur Trafalqar döyüşü bu ərazidə baş vermiş və ingilis donanmasının qələbəsi ilə nəticələnmişdir. Daha sonra, Böyük Britaniyanın kontinental mühasirəsi zamanı, bu ərazidən İngilis qoşunlarının tədarükü və qanunsuz qaçaqmalçılığın baş verdiyi bir köçürmə bazası kimi istifadə edilmişdi: İngilis gəmiləri mallarını buraya gətirir, daha sonra xarici gəmilərə yüklənərək xarici limanlara çatdırılırdı [19, s.13].

1830-cu ildə Cəbəllütariq rəsmi olaraq İngilis müstəmləkəsi elan edildi. Cəbəllütariqin əhəmiyyəti 1869-cu ildə Süveyş kanalının açılışından sonra daha da artdı. Əraziyə sahib olmaq Aralıq dənizindəki gəmiçiliyə nəzarətə imkan verirdi [30, s.296].

XIX-XX əsrlərdə bu müstəmləkə İngiltərənin Aralıq dənizində vacib ingilis mülkinə çevrilərək, dinamik şəkildə inkişaf etdi və Süveyş kanalı ilə Hindistana üzən gəmilər üçün əhəmiyyətli limana çevrildi. XIX əsrin sonlarında burada iqtisadiyyatın inkişafı üçün təkan rolunu oynayan dəniz bazası yaradıldı [13].

XX əsrin əvvəllərində Böyük Britaniya Cəbəllütariqdə təsir gücünü möhkəmləndirmək niyyətində idi. İngiltərənin Madriddəki səfiri, ingilislərə məxsus ərazini çəpərləyərək, orada “qəfəs” adlandırılan tikinti barədə məlumat vermişdi. Bu qərar görünməmiş qərar idi, çünki icrası nəticəsində yalnız Cəbəllütariq deyil, eyni zamanda müqavilədə haqqında danışılmayan ispan torpaqlarına aid edilirdi. Həmin dövr hər iki hökumət hərbi toqquşmaların qarşısını almaq üçün bu ərazini neytral ərazi kimi tanıdı. Cəbəllütariq probleminə dair gələcək danışıqlar zamanı bərzəx məsələsi daha da kəskinləşəcək və bütün münaqişə tərəflərinin mövqelərinə təsir edəcəkdir [30, s.296].

Böyük Britaniyanın Cəbəllütariqin iqtisadi və strateji mövqeyinin möhkəmləndirilməsinə qoyduğu investisiyanı Birinci dünya müharibəsi dövründə tamamilə ödəmişdir. Hər şeydən əvvəl, bu, liman, gəmiqayırma zavodu və digər əhəmiyyətli obyektlərin 1895-ci ildə başlayan modernləşdirilməsinə aiddir.

Bununla birlikdə, Cəbəllütariqdəki mülki əhalinin müharibədən bir o qədər də təsirlənmədiyini qeyd etmək lazımdır. Yarımadanın 19 min nəfər sakinindən yalnız 76 nəfəri ingilis ordusu və donanmasında iştirak etmişdir.

İkinci dünya müharibəsinə zamanı 1940-cı ilin əvvəllərində ingilis hökuməti, yarımadadakı bütün mülki əhalinin müvəqqəti köçürülməsini zəruri hesab etdilər ki, buna səbəb bölgədə döyüş əməliyyatları apararkən əhalinin maneə yaratmamasıdır [42, s.8].

Cəbəllütariq əhalisinin, ilk növbədə qadınlar və uşaqlar, on yeddi yaşdan kiçik və qırx beşdən yuxarı kişilər arasında kütləvi təxliyyəsi başladı. Son olaraq təxliyyə olunanlar evakuasiya tələb edən və Cəbəllütariqdə olması vacib olmayan kişilərin qalan hissəsi idi. Ümumiyyətlə, 16 mindən çox sakin müxtəlif yerlərə, ilk növbədə Kasablanka, Yamayka, Madeyra və Azor adalarına təxliyyə edildi. Paradoksal olaraq,

bütün müharibə illərində Cəbəllütariqdə qalan tək mülki əhali, İspaniya əsilli sayı 13 min nəfər olan muzdlu işçilər idi [ 36, s.77 ].

İkinci dünya müharibəsi dövründə Cəbəllütariq bir sıra hərbi əməliyyatların keçirilməsi üçün strateji məntəqə rolunu oynamışdır. Cəbəllütariqdə yüz min əsgər nəqliyyat vasitələrinə yığılmışdı. Bütün növlərdən olan 400-dən çox təyyarə Cəbəllütariq uçuş-enmə zolağının ətrafındakı əraziyə eniş etmişdi. Döyüşçülər Cəbəllütariqdə qurulan tunellərdə öz mövqelərini qurmuşdular döyüş sursatı, yanacaq digər zəruri materiallar da buraya yerləşdirilmişdi. 1942-ci ildə Cəbəllütariqdən gələn 466 təyyarə ələ keçirilən Şimali Afrika aerodromlarına eniş etdi. "Məşəl əməliyyatınn" uğurla həya keçməsində Cəbəllütariqin rolu olmuşdur. [36, s.80].

Cəbəllütariqin özünə gəlincə, o, tamamilə hərbi bir müəssisəyə çevrilmişdi. 1942-ci ildə müttəfiqlər Əlcəzair və Mərakeşi işğal etmək üçün "Məşəl Əməliyyatı"nı başlatdılar. Cəbəllütariq bu əməliyyatda hava və dəniz bazası rolunu oynadı.

Beləliklə, həm Böyük Britaniya, həm də İspaniya yarımada üzərində hökmranlığın hərbi-strateji üstünlüklərini yüksək qiymətləndirirdi. XX əsrin ikinci yarısına qədər problemi həll etməyin əsas yolu hərbi gücdən istifadə etmək idi. Diplomatik metodların tətbiqi mümkün deyildi, bu da təəccüblü deyil, çünki həmin dövr dünya birliyi hələ də mübahisəli məsələlərin danışıqlar masasında deyil, döyüş meydanında həll olunmasını təbii sayırdı. Bundan əlavə, dövlətlərin xarici siyasəti və iqtisadi sıralanması danışıqlara mane olurdu - vaxtilə güclü olan İspaniya öz mövqelərini itirirdi və bu da nəticədə onu zəif "ikinci eşelon" Qərbi Avropa dövləti statusuna gətirmişdi. Əksinə, Böyük Britaniya dünyadakı nüfuzunu artırmış, Avropanın lider sənaye ölkəsi olmuş və "ilk eşelon" ölkələrinin bir hissəsinə çevrilmişdi [42, s.9].

İkinci dünya müharibəsindən sonra münaqişənin həlli üçün diplomatik vasitələrdən istifadə edilməyə başlandı. 1954-cü ildə, Cəbəllütariqin ingilislər tərəfindən ələ keçirilməsinin 250-ci ildönümündə II Yelizaveta dənizdən kənardakı (overseas) ölkələrini ziyarət etdi. Madrid üçün bu səfər milli hisslərə təhqir idi. Bu,

ispanların qəzəbinə səbəb oldu. İspaniya itirilmiş ərazilərinə dair hüquqlarından imtina etməyəcəyini rəsmən elan edərək etiraz etdi [42, s.10].

1954-cü il mayın 1-də İspaniya hökuməti Cəbəllütariqdəki konsulluğunu bağladı və yarımada ilə İspaniya arasında hərəkət azadlığına məhdudiyyətlər qoydu. 1956-cı ildə İspaniya tərəfi müstəmləkə üzərində öz iddiasını rəsmi olaraq irəli sürdü.

1950-ci illərin ortalarında Cəbəllütariq İngiltərə ilə İspaniya arasında müzakirə mövzusu oldu, lakin tərəflərdən heç biri güzəştə getmək istəmirdi.

1959-cu ildə İspaniya Avropa İqtisadi Əməkdaşlıq Təşkilatına daxil oldu. Bununla da ispan işçilərin Cəbəllütariqdə fəaliyyəti məsələsi həll edildi və ingilis turistlərin Cəbəllütariq vasitəsilə İspaniyaya girişi üçün sadələşdirilmiş şərtlər qoyuldu. Bu, ölkələr arasında daha normal münasibətlərin qurulmasına kömək etdi. İspaniya xarici işlər naziri Fernando Maria de Castiella, hökumətin 1960-cı ilin iyul ayında Londona rəsmi səfər etdi. Birgə imzalanan kommünikeyə əsasən, "səmimi fikir mübadiləsi" baş tutdu. Tələbə və tədqiqatçılar, alimlər və peşəkar mütəxəssislər mübadiləsinə imkan verən "Mədəni Əməkdaşlıq Haqqında" müqavilə imzalanmışdır [30, s.296].

1960-1963-cü illər, İspaniya-İngiltərə münasibətlərində hər iki ölkənin bir-birlərinə qarşı dost siyasət yürütdükləri bir dövr hesab edilə bilər. 1960-cı ildə İngiltərə xarici işlər naziri Lord Alek Duqlas Madridə səfər etdi. Səfərin məqsədi iki ölkə arasında əməkdaşlıq üçün daha sıx əlaqələr qurmaq idi. Danışıqlar zamanı beynəlxalq vəziyyət fəal şəkildə müzakirə edildi və ölkələr birliyin Qərb dünyasının gücünün əsas zəmanəti olduğu qənaətinə gəldilər. [30, s.296].

1960-cı ilin dekabrında BMT Baş Məclisi BMT Nizamnaməsinin əsas prinsiplərinə söykənərək, 1514 saylı qətnaməni qəbul etdi ("Müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında Bəyannamə".) Bu qərarın özündə ciddi ziddiyyət olduğunu qeyd etmək lazımdır. Bir tərəfdən "bütün xalqların öz müqəddəratını təyinetmə hüququ var və iradə və istəklərinə uyğun olaraq bütün bu ərazinin müstəqilliyinin təmin olumnması ilə bağlı tədbirlər görülməlidir", digər tərəfdən isə, bu qətnamənin 6-cı bəndində "ölkənin ərazi bütövlüyünü pozmağa yönələn hər hansı bir cəhdin BMT Nizamnaməsinin məqsədləri və prinsipləri ilə

uyğun gəlmədiyi" bildirilir. İspaniya təbii olaraq son ifadəyə istinad edirdi. Bu qərarın inadla yerinə yetirilməsini tələb edirdi.

1963-cü ildə bu məsələ ikitərəfli müstəvidən çıxaraq, beynəlxalq səviyyədə müzakirə olunmağa başladı. Belə ki, həmin ildə Madrid BMT-nin Dekolonizasiya Komitəsinə ("24-lər Komitəsi" adlandırılır) müraciət edərək, İspaniyanın ərazi bütövlüyünün bərpası və Cəbəllütariqin ona verilməsi tələbini irəli sürdü. İspaniyanın mövqeyi Latın Amerikası ölkələri tərəfindən dəstəkləndi. XX əsrin 60-cı illərində ispan tərəfi, avtomobillərlə sərhədi keçməyi qadağan etdi və bir sıra digər məhdudiyyətlər tətbiq etdi. BMT Baş Assambleyası İspaniyanı dəstəkləyən bir qərar qəbul etdi. BMT-nin qərarına əsasən 1966-cı ildə Böyük Britaniya və İspaniya Cəbəllütariqin gələcəyi ilə bağlı danışıqlara başladılar, lakin bu danışıqlar heç bir nəticə vermədi. Yarımadanın İspaniyaya ilhaq edilməsi tərəfdarları ("palomos"lar) müstəmləkə ərazisində etiraz kampaniyasına başladılar. 1967-ci il sentyabrın 10-da ərazidə keçirilmiş referendumda Cəbəllütariq sakinlərinin böyük əksəriyyəti (99%-i, və ya 44 12138 nəfər) İspaniya suverenliyinə keçidin əleyhinə səs verdi [30, s.296].

Bu qərarın bir neçə səbəbi var. Birincisi, yarımadanın sakinlərinin çoxu ingilislər idi. İkincisi, Cəbəllütariq, əsasən iqtisadi cəhətdən metropoliyadan çox asılı idi. Üçüncüsü, bu dövrdə İspaniyada Franko diktaturası hökm sürürdü. Bu reallığı nəzərə alaraq, Cəbəllütariq əhalisinin demokratik İngiltərəyə arxa çevirəcəkləri məntiqsiz görünmürdü [42, s.11].

Franko hakimiyyəti dövründə dövründən İspaniyanın Cəbəllütariq siyasətinə dəyişikliklər etdi. Diktator Franko rejimi dövründə Cəbəllütariqin İspaniya ərazisinə çevrilməsi yenidən dövlət siyasətinə çevrilmiş və bu siyasət o vaxtdan bəri aqressiv üsullarla davam etdirilir. 1954-cü ildə kraliça II.Yelizaveta Cəbəllütariqi ziyarət etdikdən sonra Franko özünü təhqir olunmuş hesab etmişdi. Bundan sonra o, Cəbəllütariqə qarşı sərt siyasət yürütməyə başlamış, Cəbəllütariqdə yaşayan ispanların İspaniyadakı mülklərini müsadirə etmişdi. Frankonun dönəmində Cəbəllütariqin ispanlara məxsus olması ilə bağlı BMT-də təbliğat başlanıldı. Belə ki, Cəbəllütarqin İspanyaya məxsus olduğunu bildirən "Qırmızı Kitab" adlı sənəd dərc olundu. BMT İspaniyanın bu iddiasını rədd etdikdən sonra İspaniya Cəbbəlütariqlə

sərhədlərini bağlayacağını açıqladı. Bu məsələ Cəbəllütariqdə işləyən ispanların işini itirməsi demək idi. Buna görə də bir sıra ispan işçilər İspaniyanı tərk etdi və Franko 1969-cu ildə Cəbəllütariqlə İspaniya sərhədini bağladı. [42 ].

1964-cü ildə Cəbəllütariqdə konstitusiya qəbul edildi. İngiltərə hökuməti, konstitusiyanın Cəbəllütariq əhalisinin iradəsinə uyğun olduğunu və məqsədinin müstəqillik əldə etmək olmadığını vurğuladı, belə ki, Cəbəllütariq həmişə İngiltərə ilə sıx münasibətdə olmalıdır. Müstəmləkə ərazisində parlament - Məclis Evi və hökümət yaradıldı. Hökümətə rəhbərlik, daha sonra İşçi Partiyasına (Leyborist) çevrilən Cəbəllütariq Vətəndaş Hüquqları İnkişaf Assosasiyasının (ARGP) lideri Joshua Hassana tapşırıldı. Daha sonra, 1965 və 1966-cı illərdə BMT Baş Assambleyası Cəbəllütariqin statusu ilə bağlı iki qətnamə qəbul etdi. (16 dekabr 1965-ci il tarixli 2070 saylı Qətnamə və 20 dekabr 1966-cı il tarixli 2231 saylı qətnamə). Hər iki qətnamə İspaniya və Böyük Britaniyanı Cəbəllütariqin statusu ilə bağlı müzakirələr masasına oturmağa çağırırdı. Ərazi sakinlərinin maraqlarına hörmət edilməsinin zəruriliyi isə Yalnız 2231 saylı qətnamədə qeyd edilmişdir.

BMT Baş Məclisinin "1969-cu il oktyabrın 1-dən gec olmayaraq Cəbəllütariqin müstəmləkə vəziyyətinə son verilməsi"ni tələb edən 2429 saylı (dekabr 1968) qətnaməsinə cavab olaraq, London 1969-cu ilin avqust ayında Cəbəllütariq tərəfindən yeni konstitusiyanın qəbul edilməsini təşkil etdi.

1968-ci ildə qəbul edilən, 1969-cu ildən qüvvəyə minən yeni Cəbəllütariq Konstitusiyası qəbul edildi və yarımada, "Cəbəllütariq şəhəri" adlandırıldı və əraziyə geniş özünüidarəetmə hüququ verildi. İngiltərənin səlahiyyətində yalnız müdafiə, hüquq-mühafizə və xarici siyasət məsələləri qaldı. Bütün digər məsələlər yerli hakimiyyət orqanlarının səlahiyyətində idi. Vahid qanunverici orqan olan Məclis (2006-cı ildən bu yana Cəbəllütariq Parlamenti) fəaliyyət göstərirdi. Konstitusiyanın müqəddiməsində qeyd olunurdu ki, Cəbəllütariq əhalisi öz iradəsinin əleyhinə olaraq, qarşı başqa bir dövlətin tabeçiliyinə suverenliyiə təslim edilə bilməməsi müddəası idi. Bununla da İngiltərə bu cür qərarların yalnız Cəbəllütariq sakinləri tərəfindən verilə biləcəyinə işarə edərək, İspaniyanın yarımadanı qaytarmaq cəhdlərinin qarşısı alındı. 1967-ci il dekabrın 17-də BMT TŞ 2353 saylı qətnamə qəbul etdi. İspaniya BMT-

nin bu qətnaməsinə əsaslanmaqda israrlı idi. Qətnaməyə əsasən bütün nəqliyyat vasitələrinin hərəkətinə (o cümlədən piyadalar) üçün bağlandı. 1968-ci ilin dekabrında Cəbəllütariq problemi yenidən BMT-nin gündəliyinə qayıtdıqda, Britaniya nümayəndə heyəti BMT qətnamələrinin məcburi qərarlar olduğunu və “digər qurumlar tərəfindən qəbul edilən qətnamələrin əksəriyyətinin nə qədər vacib olmasından olmasından asılı olmayaraq, Birləşmiş Krallıq Cəbəllütariq sakinlərinin iradəsini nəzərə alaraq, 73-cü maddə ( bu torpaqların əsl sakinləri-yerli xalqdır) üzrə öz öhdəliyini yerinə yetirəcəyini bildirdi.Buna cavab olaraq İspaniya hökuməti, 1969-cu il iyunun 9-da İspaniya ilə Cəbəllütariq arasındakı sərhədi bağladı (bu sərhəd İspaniyaın La Linea şəhərindən keçirdi), ingilis mülkiyyətinin tamamilə iqtisadi mühasirəyə alındığını elan etdi, ərazi ilə teleqraf və telefon rabitəsini və dəniz nəqliyyatının hərəkətini dayandırdı və ispan vətəndaşlarının Cəbəllütariqdə işləməsini qadağan etdi. Bununla da Cəbəllütariq işçi qüvvəsinin təxminən 30% -ni və 500 mindən çox potensial alıcısını itirdi. Böyük Britaniya isə ,öz növbəsində, əraziyə 7 milyon funt-sterlinq maddi yardım göstərdi, malların 2/3 hissəsini və boykotun digər xərclərini kompensasiya etdi8. İşçi qüvvəsi çatışmazlığı problemi Şimali Afrika ölkələrindən gələn immiqrantların hesabına həll edildi. Vəziyyət yalnız 1975-ci ildə, İspan diktatoru Fransisko Frankonun ölümündən sonra yumşaldı [30, s.297].

1980-ci ildə Lissabonda İspaniya və Böyük Britaniya xarici işlər nazirlərinin və Cəbəllütariq hökuməti nümayəndələrinin iştirak etdiyi çoxtərəfli görüş keçirildi. Görüş nəticəsində Lissabon Müqaviləsi imzalandı və bu müqavilə daha sonra Cəbəllütariqin statusu ilə bağlı İngiltərə-İspaniya münsibətlərində ən vacib sənədlərdən biri bu müqavilə oldu. Böyük Britaniya ilə İspaniyanı ortaq məxrəcə gətirən ilk sənə bu müqavilə oldu. Sənədin birinci abzasında deyilir: “İngilis və İspaniya hökumətləri, ikitərəfli münasibətləri gücləndirmək və bununla da Qərb həmrəyliyinə töhfə verməklə, Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə uyğun olaraq, Cəbəllütariq problemi dostluq ruhunda həll etmək niyyətində olduqlarını bildirdilər” [17].

Bundan əlavə, görüşün əsas nəticələrindən biri də İspaniyanın blokadanın yumşaltması oldu. Buna baxmayaraq, məsələ həll olunmadı: Böyük Britaniya ərazini

İspaiyaya verməkdən imtina etdi, çünki Cəbəllütariq Konstitusiyasına görə belə qərar yalnız yarımada sakinlərinin iradəsinə uyğun olaraq verilə bilərdi. Digər tərəfdən, İspaniya, vəziyyət dəyişməz qalacağı təqdirdə, NATO və Avropa İqtisadi Birliyinə üzvlüyündən imtina edəcəyini vurğulayaraq, bu problemin təcili həllini tələb etdi.

Bütün bu açıqlamalarına baxmayaraq, İspaniya 1981-ci ildə NATO-ya qatıldı, 1982-ci ildə bu qərar hərbi bloka daxil olan digər ölkələr tərəfindən təsdiq edildi. Münaqişənin iki tərəfi arasında kompromis əldə edildi: Böyük Britaniya yarımadadakı hərbi baza üzərində nəzarəti əlində saxlayır, İspaniya isə Cəbəllütariq boğazına nəzarət edir [42, s.14].

Lissabon razılaşmasına gəlincə, bu, heç vaxt tətbiq olunmadı, çünki 1982-ci ildə Böyük Britaniya ilə Argentina merikalıları dəstəkləməsi, tərəflər arasında münasibətləri kəskinləşdirdi uzlaşmanarasında Folklend adaları ətrafında baş verən müharibədə İspaniyanın cənubi amerikalıları dəstəkləməsi, tərəflərarası münasibətləri kəskinləşdirdi. İspaniyada 1982-ci ildə seçkilərdə qalib gələn İspaniya Sosial İşçi Partiyasının formalaşdırdığı hökumət,gərginliyi azaltmaq üçün İspaniya ilə yarımada arasında quru sərhədini açmağa qərar verdi. Bu addım müəyyən müsbət nəticələrə gətirib çıxarsa da, əsas problem yenə də həll olunmadı: İspaniya Cəbəllütariqin Böyük Britaniyanın müstəmləkəsi olduğunu iddia edir və bu halın XX əsrdə qəbuledilməz olduğunu vurğuladı [42, s.15].

Vəziyyəti gərgiləşdirən digər amil İspaniyanın AİB-ə üzv olmaq niyyəti idi. Böyük Britaniya buna mane olmağa çalışırdı. Belə ki, İngiltərənin baş naziri Marqaret Tetçer, İspanların Cəbəllütariqlə əlaqəli tətbiq etdikləri son məhdudiyyətləri aradan qaldırana qədər ispanların AİB-nə qəbulunu təxirə salmağı təklif etdi [25, s.74].

İspaniya xarici işlər naziri Fernando Moran isə yarımadayla əlaqəli bütün problemlərin ölkənin Avropa Birliyinə qəbul edilməsi ilə həll olacağını söylədi [23, s.123].

Problemi həll etmək və ölkələr arasındakı münasibətləri sabitləşdirmək üçün 1984-cü ildə Brüsseldə toplantı keçirilməsinə qərar verildi. Bu tədbirin nəticəsi olaraq, əsasən Lissabon Müqaviləsinin məzmununu təkrarlayan Brüssel Sazişi qəbul

olundu. Müqavilənin əsas məqamları: Cəbəllütariqdə yaşayan və işləyən ispanların, eləcə də İspaniyadakı Cəbəllütariq əhalisi üçün bərabərlik və hüquqların qarşılıqlı təmin edilməsi; Cəbəllütariq və qonşu ərazilər arasında insanların, nəqliyyat vasitələrinin və malların sərbəst hərəkəti üçün şəraitin yaradılması; Cəbəllütariq məsələsində İngiltərə və İspaniya arasında mövcud olan bütün fikir ayrılıqlarının aradan qaldırılmasına yönəlmiş danışıqların başladılması; iqtisadiyyat, mədəniyyət, turizm, aviasiya, ekologiya, habelə hərbi məsələlərdə qarşılıqlı faydalı əsasda əməkdaşlığın inkişafı [16].

Qeyd etmək lazımdır ki, yarımada hökuməti, tədbirə müstəqil ərazi kimi deyil, İngiltərə nümayəndə heyətinin bir hissəsi olaraq dəvət edilmişdi və nəticədə Brüsseldəki görüş Cəbəllütariqin özündə etiraz dalğasına səbəb oldu. Bütün bular nəticəsində Brüssel Sazişinin həyata keçirilməsinə qarşı çıxan və yarımadanın müstəqilliyi nöqteyi-nəzərindən çıxış edən Cəbəllütariq Sosialist İşçi Partiyası 1988-ci il seçkilərində qələbə qazandı.

1986-cı ildə İspaniya AİB-ə daxil edildi, eyni ildə Brüssel sazişi çərçivəsində onun Böyük Britaniya ilə ilk görüşü baş tutdu. Böyük Britaniya və İspaniya Cəbəllütariq mövzusunda konstruktiv dialoq qurmağa başladılar. Bununla birlikdə, Sosial İşçi Partiyasının yaratdığı hökumət, Cəbəllütariqin ortaq idarəçiliyinə dair istənilən razılaşmaya qarşı çıxdı.

Yuxarıda qeyd edilənlərdən belə nəticə çıxarmaq olar ki, Cəbəllütariq problemi, iştirakçılarının sayının az olmasına baxmayaraq malik olmasına baxmayaraq, nəinki Avropada, həm də dünyada həlli ən çətin görünən problemlərdən biri olaraq qalır. Mübahisə tərəflərinin hər biri məsələyə fərqli baxımdan yanaşır [42, s.16].

Böyük Britaniya, İspaniya ilə qarşıdurmanı daha da mürəkkəbləşdirməməyə çalışaraq bitərəf mövqeyindən çıxış edir. İngiltərə Cəbəllütariqi özünə birləşdirmək niyyətində deyil, ancaq bu ərazidə müstəqillik qazanmaq üçün bütün şərtlərin olduğunu düşünür, lakin bunları yalnız İspaniyanın razılığı ilə ala bilər.

İspaniya, ərazilərinin bir hissəsinin zorla ayrıldığına və Cəbəllütariqi geri qaytarmaq hüququna sahib olduğunu iddia edir. Eyni zamanda, ispanlar,

Cəbəllütariqin İspaniya yurisdiksiyası altında geri dönməli olduğu BMT qərarlarını (2353 saylı qətnamə və 1514 sayı qətnamə) əsas gətirirlər. Onların fikrincə, öz müqəddəratını təyinetmə prinsipi Cəbəllütariq sakinləri üçün uyğun deyildi. Bu bölgənin mübahisəli ərazi olduğu üçün bu məsələni yalnız İspaniya və İngiltərə müzakirə edə bilər.

Cəbəllütariqin bu qarşıdurmada öz maraqları var. Təbii ki, Cəbəllütariq sakinləri nə İspaniyaya qoşulmaq nə də Böyük Britaniya tərəfindən idarə olunmaq istəmir, lakin onlar əldə etdikləri uğurlar bu iki ölkə ilə əməkdaşlıqla bağlı olduğunu dərk edirlər [42, s.37].

## 1.2. Müasir mərhələdə Cəbəllütariqin siyasi statusu və iqtisadi vəziyyəti

Cəbəllütariq yarımadası Cənub - Qərbi Avropada, İspaniyanın cənub sahilində, Aralıq dənizi ilə Şimali Atlantik Okeanını birləşdirən Cəbəllütariq Boğazı ilə həmsərhəddir. Sərhədlərinin ümumi uzunluğu 12 km-dir. Yeganə sərhəd ölkə İspaniyadır. Bayrağı ağ və qırmızı zolaqdan ibarətdir. Ağ zolaq bayrağın yuxarı hissəsindədir və qırmızı hissədən iki dəfə enlidir. Bayrağın mərkəzində üç qülləli qırmızı qala təsvir edilmişdir. Qala darvazasından asılmış qızıl açar isə qırmızı zolaqda təsvir edilmişdir. Gerbin təsviri 1502-ci ildə İspaniya kralı Ferdinand və kraliça İzabella tərəfindən verilmişdir. Gerbin təsvirdəki qala yarımadanın alınmazlıq simvoludur, açar isə Cəbəllütariqin strateji əhəmiyyətini - Aralıq dənizinin açarı olduğunu göstərir [18].

Sahəsi 6.8 kvadrat kilometr olan Cəbəllütariq Afrikanın şimal sahillərindən təxminən 20 km məsafədə strateji əhəmiyyətli bölgədir. Bölgədə Cəbəllütariq İngiltərənin hava limanı və hərbi bazasıdır. Bundan əlavə, Cəbəllütariq boğazı ticarət gəmiçiliyində, neft nəqlində və hərbi nəqliyyatın dəniz yolunda hərəkət etməsinə görə də böyük əhəmiyyət kəsb edir.

İndiki konyukturda, Cəbəllütariq tranzit ticarətində strateji əhəmiyyətinə görə münaqişə nəinki Aİ ilə İngiltərə arasında qalacaq, sonrakı dövrlərdə daha böyük

böhrana çevriləcəyini söyləmək mümkündür. Məsələn, İspaniya bir tərəfdən Cəbəllütariq üzərində suverenliyini bərpa etməyi tələb edir, digər tərəfdən Mərakeş ərazisində yerləşən Seuta və Melila bölgələrini öz ərazisi olduğunu iddia edir.

Bundan əlavə, Cəbəllütariq boğazı, Aralıq dənizinə daxil olan və ya çıxmaq istəyən gəmiləri üçün böyük əhəmiyyət kəsb edir. Başqa sözlə desək, hər hansı bir müharibə vəziyyətində bu boğazda çox az gəmi ilə böyük donanmalardan daha üstün olmaq mümkündür ki, bu da bölgənin strateji əhəmiyyətini artıran ən əhəmiyyətli səbəblərdən biridir.

Cəbəllütariq İngiltərənin İkinci dünya müharibədən sonra, xüsusən 1951-ci ildə İrana, 1956-cı ildə Misirə qarşı əhəmiyyətli nöqtə idi apardığı hərbi müdaxilə üçün böyük rol oynamışdı. Bu liman, təkcə Böyük Britaniyanın geosiyasi nüfuzunu saxlamağa kömək etmişdir və eyni zamanda ABŞ üçün böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Cəbəllütariq limanı Vaşinqton üçün XX əsrin sonu-XXI əsrin əvvəllərində “Səhrada Tufan” Rusiyanın Yaxın və Orta Şərqdə fəallığının artması, habelə İŞİD və s haqqında kəşfiyyat məlumatlarının əldə edilməsində böyük əhəmiyyət kəsb etmişdir [23, s.2].

Eyni zamanda ABŞ hərbi donanması üçün tələb olunan yanacaq ehtiyatları da Cəbəllütariq limanında mövcuddur. Yaxın Şərqdən ABŞ-a neft daşıyan gəmilər bu boğazdan istifadə edirlər [19].

Cəbəllütariqdə təxminən 30 min nəfər yaşayır. Bu müxtəlif etnik qrupların təmsil olunduğu ( ingilislər, ispanlar, portuqallar, italyanlar, maltalılar, yəhudilər), dünyanın ən sıx məskunlaşdığı bölgələrdən biridir. Əhalinin əksəriyyəti katolik, digərləri isə protestantlardır.

Yarımada da rəsmi dil ingilis dili dilidir. Eyni zamanda ispan dilinin əndəlüs ləhcəsinə əsaslanan danışıq dili, "lianito"da istifadə olunur.

Hal-hazırda Böyük Britaniyanın özünü idarə edən ərazisidir. Yarımada da 2006-cı ildə qəbul edilən konstitusiyaya görə, dövlət başçısı Birləşmiş Krallığın monarxı tərəfindən təyin olunur.

Cəbəllütariqin siyasi sistemində hökuməti və parlamenti də əhəmiyyətli yer tutur icra hakimiyyəti parlament çoxluğu tərəfindən formalaşdırılan və 10 nazirdən

ibarət olan Nazirlər Kabinetidir. Qanunverici orqan hər dörd ildən bir ümumi seçkilər yolu ilə seçilir və 17 deputatdan ibarətdir.

Cəbəllütariq 1973-cü ildə Böyük Britaniyanın AİB-ə üzv olması ilə Cəbəllütariq də bu struktura daxil oldu. Eyni zamanda AİB-nin ümumi kənd təsərrüfatı siyasətinə və Şengen müqavilələrinə qoşulmadı və ümumi Gömrük İttifaqına da daxil olmadı. Buna görə də burada ƏDV yoxdur və offşor banklar aktiv fəaliyyət göstərir.

2000-ci illərdə Madrid ilə Londonda arasındakı mübahisə məzmununa görə də bir qədər fərqli məcraya yönəldi. Belə ki, artıq münasibətlərdə yeni aspekt-iqtisadi xüsusi ilə ön plana çıxmağa başladı

Münaqişənin tarixinə nəzər saldıqda XX əsrin 80-ci illərində Cəbəllütariqdə yerli hakimiyyət orqanları Londondan iqtisadi asılılığını azaltmaq üçün bir sıra addımlar atdı. Bu obyektiv səbəblərdən meydana gələn məcburi tədbir idi. Məsələn 1983-cü ildə iqtisadi çətinliklərlə üzləşən İngiltərədə Cəbəllütariqdə ən böyük müəssisə olan hərbi gəmiqayırma müəssisəsini bağladı. Buna cavab olaraq Cəbəllütariq hökuməti xarici bankları və iş adamlarını cəlb etmək üçün şərait yaratmağa başladı. Ərazidə xarici banklar və transmilli şirkətlər üçün məhdudiyyətlərin və tələblərin araaradan qaldırılmaq və ya yüngülləşdirmək məqsədi ilə qanunlar qəbul edildi [14,s,46]. Əlavə olaraq, ciddi vergi güzəştləri tətbiq olundu. Cəbəllütariq Avropa İttifaqındakı mövqeyindən faydalanırdı. Eyni zamanda bura Avropada mövcud sonuncu offşor zonalardan bir idi. Yuxarıda qeyd olunduğu kimi ərazidə ƏDV və gəlir vergisi tətbiq edilmir, məxfilik qorunur və s. Burada xarici şirkət açmaq üçün heç Cəbəllütariqə getməyə belə ehtiyac yoxdur [33, s.46].

Bu vergi cənnətinin aradan qaldırılması yalnız İspaniya tərəfindən deyil eyni zamanda hər il Avropa İttifaqının vergi, maliyyə və korporativ qanunlarının kütləvi şəkildə pozulması hallarını araşdıran Avropa Komissiyası tərəfindən də tələb olunur, çünki bura müxtəlif ölkələrdən kapitalın axdığı maliyyə çuxuruna çevrilir.

Yerli sakinlər isə hər vəchlə Cəbəllütariqin mövcud statusunun qorunub saxlanmasına çalışır. Belə ki, status bonlara böyük imtiyazlar verir və İspaniya ilə müqayisədə yüksəkdədir.

Həmçinin, Cəbəllütariqin firavanlığının digər əsas mənbələrindən biri onlayn qumar oyunları və ya onlayn kazinolardır. Hal-hazırda Cəbəllütariqin vergi dərəcəsinin 1 %-dən aşağı olması səbəbində onlayn qumar şirkətləri üçün ideal yerdir və "onlayn qumarın paytaxtı" adlanır. 2010-cu ildə bu əmsal, yəni Cəbəllütariqdəki xarici şirkətlərin ödədiyi vergi 10% -ə qaldırıldı. O vaxt baş nazir olan Peter Karuana, bu prosesləri ərazi hökumətinin Avropa qanunlarına riayət etmək istəyindən qaynaqlandığını söyləmişdi. İngiltərədə məşhur olan "Vice.com" saytına əsasən: "Cəbəllütariq hökumətinin aşağı vergilər və digər imtiyazlarla onlayn qumar oyunlarını cəlb etmək təklifi nəinki özünü doğrultdu, həmçinin ərazini və bir çox sakinini varlı etdi". Bu gün onlayn qumardan əldə edilən gəlirlər Cəbəllütariq ÜDM-nin 25%-ə qədərini təşkil edir" [14, s.47].

Hazırda Cəbəllütariqin uğur qazanmasının səbəbi dənizçilik ticarətinin inkişaf etməsi və keçirilən beynəlxalq konfrans mərkəzilərindən biri olmasıdıdr. Bu amillər Cəbəllütariqin beynəlxalq aləmin diqqət mərkəzində cəlb olunur. İngilis ordusunun sayının azaldılması nəticəsində büdcədə hərbi xərclərin xüsusi çəkisi 1984 -cü ildəki 60% -dən 2010-cu ildə 7%-ə enmişdir. Son illərdə Cəbəllütariq iqtisadiyyatı ictimai və özəl bölmələr böyük struktur dəyişikliyinə məruz qalmışdır.

Maliyyə sektoru, turizm (2012-ci ildə 11 milyondan çox ziyarətçi), istehsal və istehlak malları üzrə rüsumlar da yarımadaya gəlir gətirir. Maliyyə sektoru, turizm və gəmiçilik sektoru ÜDM -ın müvafiq olaraq 30%, 30%və 25%-ni təmin edir. Qalan 15%-i telekommunikasiya, e-ticarət və e-oyun təşkil edir [18]. Bu gün Cəbəllütariq ispan qonşularından xeyli zəngin olan və iqtisadi cəhətdən çiçəklənən bölgədir və ərazi İspaniyanın bir hissəsi olarsa, bütün bu sərvətlər yox ola bilər [ 33, s.67].

İspaniya daim Cəbəllütariqdəki səlahiyyətlilərə siyasi və iqtisadi təzyiq göstərməyə çalışır. Buna cavab olaraq, Cəbəllütariq hökuməti ərazidə ingilis varlığını qorumaq üçün, demək olar ki, yekdilliklə səs verdiyi referendumlar təşkil edir. 2002-ci il plebisitində, sorğu iştirakçılarının yalnız 2 faizi İspaniyaya qoşulmağın tərəfdarı olmuşdur. Halbuki Cəbəllütariqdəki ingilis qarnizonunun 800 əsgəri nəzərə alınmasa, Cəbəllütariq əhalisinin heç 2 faizini ingilislər təşkil etmir. Buna səbəb əhalisinin yekcins olmamasıdır. Rəsmi Madrid əhalinin iradəsini bu cür bildirməsini

"qanunsuz" adlandırmışdı. Londonda bu mövqeyi qeyri-rəsmi hesab etdi, lakin buna baxmayaraq, ərazi Cənubi qərbi İngiltərənin seçki dairəsi olaraq elan edildi. Cəbəllütariq əhalisinin Avropa Parlamentinə seçkilərdə də məhz bu formada iştirak etməsi, Madridin açıq şəkildə qıcıqlanmasına səbəb oldu.

2001-ci ildə uzun fasilədən sonra Brüssel prosesi davam etdirildi. Həmin ilin iyulun 26-da Londonda Cəbəllütariq məsələsi ilə əlaqədar Brüssel prosesi çərçivəsində nazirlərin görüşü Londonda İspaniya xarici işlər naziri Xose Pike və onun ingilis həmkarı Cek Strou arasında görüş keçirildi. Bu görüşün sonunda mətbuat üçün ortaq bir açıqlama verildi. Açıqlamada bildirilirdi ki, xarici işlər nazirləri ölkələr arasındakı bütün fikir ayrılıqlarını aradan qaldırmaq və tərəflər üçün maksimum fayda gətirməklə mübahisəli məsələləri tez həll etməyə çalışırlar. Hər iki nazir Cəbəllütariq hökumətinin danışıqlar prosesində iştirakının vacib olduğunu və bu səbəbdən gələcəkdə danışıqlarda Cəbəllütariqin baş nazirinin (bu dəvəti heç qəbul etməyən) iştirak etməsinin mümkünlüyünü vurğulamışdılar. Bu görüşündən Londonda müxtəlif səviyyələrdə birgə müzakirələr aparıldı.

2004-cü il oktyabrın 27-də İspaniya və İngiltərə xarici işlər nazirlərinin Madriddə görüşü oldu. Görüş nəticəsində "Cəbəllütariq Dialoq" Forumunun yaradılması haqqında Birgə Bəyanat qəbul edildi [12, s.14].

Forumun əhəmiyyəti ondan ibarət idi ki, forum Cəbəllütariq vətəndaşlarının qarşılaşdıqları problemlərin həlli üçün nəzədə tutulmuşdur. Forumda üç tərəf arasında mövcud olan məsələlər müzakirə edildi. Forumun digər uğuru yalnız nazirlərin görüşləri deyil, həm də işçi komissiyaların və qrupların daimi iştirakıdır.

Forumun digər üstünlüyü ondan ibarət idi ki əməkdaşlıq istiqamətində addımlar atılmış və İspaniyanın Cəbəllütariqə bitişik bölgələrinin bələdiyyələri yarımadanın yerli idarəetmə orqanları arasında qarşılıqlı əlaqə və əməkdaşlıq üçün komissiya yaradılmışdır.

Həmin ilin dekabrında Avropa İttifaqı rəhbərliyi, Böyük Britaniya və İspaniya Xarici işlər nazirləri və Cəbəllütariqin Baş naziri Piter Karuananın iştirakı ilə qeyri-rəsmi görüş keçirildi və nəticədə üçtərəfli forumun iş forması və qaydalarının müəyyənləşdirilməsi ilə bağlı birgə bəyannamə qəbul edildi [12, s.16].

Forumda “Dialoq” da iştirak edən tərəflərin (Cəbəllütariqin suveren bir dövlət olmamasına baxmayaraq) bərabər statusa malik olması və nazirlər səviyyəsində iclasların hər altı aydan bir keçirilməsi zərurəti qeyd olunurdu. Bundan əlavə, üçtərəfli Forum sübut etdi ki suverenlik məsələsinin müzakirəsi üçün rəsmi əsas yaradan Brüssel sazişi hələ də qüvvədədir

Forum çərçivəsində ilk rəsmi görüş 2005-ci il fevralın 11-də Malaqa şəhərində baş tutdu. Bu görüş nəticəsində Cəbəllütariq hava limanından birgə istifadə qaydalarının müəyyənləşdirilməsinə dair razılaşma əldə edilməli idi. (1987-ci ildən bəri bu məsələ heç bir şəkildə həll olunmurdu). Həm də kommunikasiya məsələləri, yəni sərhəddəki prosedurun sadələşdirilməsinə və telekomunikasiya məsələlərinə toxunuldu. Bundan əlavə, İspaniya səlahiyyətliləri İngiltərədən Cəbəllütariqdəki sualtı qayıqların nüvə reaktorlarının təmirini dayandırılmasını və bu haqda yazılı zəmanət verməsini tələb etdilər. Cəbəllütariqdə işləmiş ispanlara təqaüdlərin ödənilməsi problemi də həll olunmamışdı . (Hətta 2005-ci ilin martında, Avropa İttifaqı bu mövzuda İngiltərəyə qarşı məsələ də qaldırmışdı.) 2005-ci və 2006-cı ilin əvvəllərində forum çərçivəsində bu barədə görüşlər keçirildi.

Həmin vaxt, 2006-cı il martın 15-də yarımadada konstitusiya islahatı ilə əlaqədar London və Cəbəllütariq arasında son danışıqlar keçirildi. Cəbəllütariq rəhbərliyi öz siyasi statusunu təyin etmək hüququnda israr edirdi. O, müstəqillik qazanmaq üçün yeni konstitusiyadan istifadə etməyə çalışdı. ancaq onlar bu məsələdə İngiltərədən dəstək ala bilmədi. İngiltərə, Cəbəllütariqin öz müqəddəratını təyinetmə hüququnu tanıdığını, lakin bunun yalnız BMT Nizamnaməsinə və beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçiriləcəyini bildirdi. Ümumiyyətlə, İspaniya tərəfi yeni konstitusiya islahatından razı qaldı və bunun yalnız Cəbəllütariqin daxili idarəetmə və suverenlik məsələlərinə toxunmadığını qeyd etdi.

Beləliklə, həm London, həm də Madrid 2006-cı il sentyabrın 18-də Kordovada keçirilmiş forum çərçivəsində danışıqların həlledici olması üçün səy göstərdilər.. Danışıqlarda İspaniyanın xarici işlər naziri Miqel Moratinos, İngiltərənin Avropa işləri üzrə naziri Cefri Xun və Cəbəllütariq hökumətinin başçısı Piter Karuana iştirak etdi. İclasdan sonra beş əsas məsələ haqqında bəyanat qəbul etdilər:

*Hava limanı -* mülki və hərbi əhəmiyyətinə görə deyil, Cəbəllütariq hava limanının Cəbəllütariqə, uçuş zolağının isə Birləşmiş Krallıq Müdafiə Nazirliyinə aid olduğu üçün bəlkə də ən incə məsələdir. Kordova razılaşmalarına əsasən, Cenevrə modelinin tətbiq olunmasına qərar verildi, yəni, limanın cənubdan Cəbəllütariq və şimaldan isə ispan sərhədçiləri tərəfindən idarə olunması çıxışlı nəzərdə tutulurdu. Cəbəllütariqlilər üçün hava limanına dair müqavilədə əsas müddəa, hava limanından tərəflərin birgə istifadəsi idi. Əlbəttə ki, bu, İspaniya parlamentin də tənqidinə səbəb oldu, xüsusilə, Madridə görə uçuş zolağının "işğal zonasında" yerləşdirilməsi yolverilməz idi [18, s.20].

*Təqaüdlər:* 1969-cu ildən başlayaraq Cəbəllütariqdə işləyən ispanlar üçün (5700 nəfər) təqaüd məsələsi həll edildi. Hamısına təzminat verildi.

*Telekommunikasiya:* Cəbəllütariq üçün beynəlxalq kodun İspaniya tərəfindən tanınması da daxil olmaqla, bütün telefon mübahisələri həll edildi.

*"Məhdudiyyətlərin ləğvi.* Mövcud məhdudiyyətlərin aradan qaldırılması həm Cəbəllütariq, həm də qonşu ispan bölgələrinin sakinləri üçün çox vacibdir. Kordova görüşündən əvvəl də, İspaniya səlahiyyətliləri qəfəs adlandırdıqları sərhədin modernləşdirilməsinə böyük vəsait qoymuşdular. Gömrük və polis postlarının işinin yaxşılaşdırılması, "qırmızı" və "yaşıl" dəhlizlərin açılması və əks hərəkətli yolların istifadəyə verilməsi planlaşdırılırdı. Eyni zamanda, nəzarət ləğv edilmədi - Cəbəllütariq nə Şengen Birliyinə, nə də gömrük zonasına daxil olmadı.

*Servantes İnstitutu:* İspan dili və ispan mədəniyyətinin öyrənilməsini təşviq etmək üçün Kordova Sazişində Cəbəllütariqdə Servantes İnstitutunun qurulması haqqında müddəa yer almışdı. İspaniya bununla yarımadanın əhalisi arasında yalnız ispan dilinin yayılmasına, həm də Cəbəllütariq gənclərinin İngiltərə deyil, İspaniya universitetlərinə yönləndirəcəyinə ümid edirdi [18, s.22].

Həmin il noyabrın 30-da Cəbəllütariq sakinləri tərəfindən yeni konstitusiya qəbul edildi. Yeni konstitusiyaya görə, Böyük Britaniya yalnız Cəbəllütariqin xarici əlaqələri, müdafiəsi və təhlükəsizliyi üçün məsuliyyət daşıyırdı. Dövlət başçısı hələ də rəsmi olaraq Cəbəllütariqdə "dəqiq müəyyən edilmiş səlahiyyətlərə" malik İngilis monarxının təyin etdiyi qubernator idi.

2007-ci ilin iyununda BMT-də 24-lər Komitəsində çıxış edən Piter Karuana, BMT-nin Cəbəllütariqin əsarətdən azad olunmasının artıq bir mənası olmadığını və bu ərazinin "özünü idarə hüququ olmayan bölgələr" siyahısından çıxartmaq lazım olduğunu bildirdi [14, s.50]. Yeni konstitusiyaya görə, "Birləşmiş Krallıq və Cəbəllütariq arasında əlaqələri yaratmış" və Cəbəllütariqə "demək olar ki, tam özünüidarə hüququ" verilmişdir. Karauananın sözlərinə görə, BMT-nin mövqeyindən asılı olmayaraq, Cəbəllütariq artıq İngiltərə tərəfindən idarə edilməyən ərazi olduğunu qeyd edildi. Böyük Britaniya isə Cəbəllütariqlə müasir münasibətlərin müstəmləkə xarakteri daşımadığına bildirir.

Kordova razılaşmaları mübahisənin tarixində ən mühüm razılaşmalardan biri idi. Moratinos mətbuat konfransında bildirirdi ki, "Cəbəllütariq əməkdaşlıq müqaviləsi tərəflər arasında münasibətlərdə qarşıdurma  amili kimi nəzərdə tutulmur." Bu razılaşmalar Cəbəllütariqin suverenliyinə, sərhədlərin hər iki tərəfindəki insanların həyatına əhəmiyyətli dərəcədə təsir edir.

2007-ci ilin noyabr ayında Cəbəllütariqdə Forum çərçivəsində ətraf mühitin mühafizəsi, dəniz nəqliyyatı, gəmilərin hərəkəti, maliyyə və vergi əməkdaşlığı kimi mövzular ilk dəfə müzakirə edilldi. Maliyyə və vergi sahəsində əməkdaşlıq İspaniya üçün xüsusilə vacib idi, çünki Cəbəllütariqin ofşor dəniz  zonası -bir növ  çirkli pulların yuyulduğu camaşırxana idi.

İspaniya ilə dialoqun Cəbəllütariq əhalisinin gündəlik həyatlarına müsbət təsir göstərdiyindən əhali onun tərəfdarı idi. 2007-ci il seçkilərində yenidən qalib gələn Piter Karuana bildirmişdir ki, "Forum münaqişənin həll edilməsinin yeganə yoludur." [14, s.51].

Üçtərəfli Forumun xarici işlər nazirləri səviyyəsində ikinci toplantısı 2008-ci ildə Londonda keçirildi, lakin xüsusi yaddaqalan görüş məhz 2009-cu ildə baş tutan Cəbəllütariqdə keçirilən, üçüncü görüş olmuşdur. 2009-cu ilin iyulunda üçüncü görüşün əhəmiyyəti onda idi ki, 300 il ərzində İspaniya xarici işlər naziri Miqel Moratinos ilk dəfə Cəbəllütariqə rəsmi səfər etdi. Bu səfər, sosialistlərin təmsil etdiyi İspaniya hökumətinin uzun illər davam edən qarşıdurmadan imtina etməsi və Cəbəllütariqlə yaxın qonşuluq əlaqələri qurmağa çalışması ilə izah olunur.

Moratinosun sözlərinə görə, görüş çox müsbət və səmərəli keçmişdi. Bu, imzalanmış birgə Bəyanatda öz əksini tapmışdır. Bəyanat altı prioritet məsələni əks etdirir. Sənəddə ətraf mühitin qorunması, vergi və maliyyə fəaliyyəti haqqında, təhlükəsizlik baxımından gömrük nəzarəti və polis xidmətləri sahəsində əməkdaşlıq, .gəmiçilik miqrantların hərəkətinə nəzarət və ispan dilinin tədrisi barədə, məsələlər yer almışdır. Bu müqavilələr çərçivəsində Cəbəllütariqlə İspaniyanın Alxeciras şəhəri arasında bərə xidməti planlaşdırılırdı [18, s.25].

Morantinos Cəbəllütariq üzərində suverenlik məsələsinin, yəni 300 il əvvəlki mübahisənin danışıqlar zamanı gündəmə gətirilmədiyini qeyd etdi, eyni zamanda İspaniya, ərazini geri almaq istəklərindən də tamamilə imtina etməyib. Bu, ancaq Moratinosun vurğuladığı kimi, "indi prioritet bir vəzifə deyil və həlli üçün hələ vaxt gəlməyib." O zaman müxalif olan Xalq Partiyası bu səfəri sərt bir şəkildə tənqid edərək, onu "tarixi xəyanət" və ölkənin "ləyaqətinə təhqir" adlandırnışdı.

Müxalifət həmçinin, hakim İspaniya Sosialist İşçi Partiyasının (İSİP) Cəbəllütariqlə bağlı mövqeyini həddindən artıq yumşaq hesab edirdi. Hətta İngiltərə şahzadəsi Anna 2009-cu ilin martında, öz adını verdiyi xəstəxananın açılışında iştirak etmək üçün Cəbəllütariqə üç günlük səfər edərkən Cəbəllütariqdə İspaniya səlahiyyətlilər bunu kifayət qədər təmkinlə qarşılamışdılar. İspan səlahiyyətlilər onun ziyarətini " ispanların mənafeyinə zərər verən addım" kimi qiymətləndirmişlər.

2009-cu il görüşündən belə nəticə çıxarıla bilər ki, yalnız Üçtərəfli Forum, dialoqun əsas formatı idi. Bundan sonra danışıqlar prosesi dayandırıldı. Nazirlərin iclasları keçirilmədi, Buna baxmayaraq, 2010-cu il ərzində qruplarda və komitələrdə işçi iclaslar davam etdirildi. Şübhəsiz ki, Cəbəllütariq üzrə Üçtərəfli Forumu İspaniya ilə Cəbəllütariq arasındakı münasibətlərdə əhəmiyyətlir rol oynamışdır. Bölgə sakinləri üçün vacib olan məsələlər həll edilmişdi, ancaq suverenlik məsələsində və ərazi sularına sahiblik problemində tərəflər əvvəlki mövqelərində qaldılar [14, s.52].

İspaniya İngiltərə ilə Cəbəllütariq arasında yaşanan bütün gərginlikləri aradan qaldırmağa cəhd edirdi. İspaniya hakimiyyəti vəziyyəti gərginləşdirmək istəmir, bu mərhələdə İspaniya Cəbəllütariqdə dinc şərait yaratmaqda maraqlı idi. Bu səbəbdən də, Üçtərəfli Forum keçirildi və 2006-cı il Kordova Sazişləri xitam verildi. Belə

güman olunur ki, Cəbəllütariq əhalisinin gələcəkdə İspaniya ilə bağlı mövqeləri dəyişə bilər. Cəbəllütariq bir maliyyə mərkəzi olaraq, hazırda Avropada xüsusi yer tutur və bu da münaqişənin həllinii daha da çətinləşdirir. Cəbəllütariqin imtiyazlı iqtisadi vəziyyəti, sakinlərinin müstəqillik qazanmaq istəyini stimullaşdırır. Onlar iqtisadi imtiyazlarını itirməklə müstəqillik qazanmağın mümkünsüz olacağını yaxşı bilirlər.

Həll olunmamış Cəbəllütariq problemi hər zaman yeni şəkildə özünü göstərir. İspan tərəfi həll olunmamış problemləri vurğulamaq üçün müxtəlif amillərdən istifadə edir. Beləliklə, Cəbəllütariq hökümətinin 2013-cü ilin iyul ayında tikintisi sahəsində hərəkətləri, İspaniyanın baş naziri Mariano Rajoy tərəfindən Cəbəllütariqlərin "Cəbəllütariq sularını ispan balıqçıları tərəfindən istifadə edilməsinin qarşısını almaq istəyi" kimi qiymətləndirdi. "Cəbəllütariq rifləri dağıtmaqdan imtina edərkən, Madrid ona qarşı sanksiyalar tətbiq etdi. " Cəbəllütariqə ödənişli giriş, Cəbəllütariq üçün İspaniya ərazisi üzərindəki uçuşlara qadağa, Cəbəllütariq sakinləri üçün yeni əmlak vergisi "- bütün bunlar bir daha göstərdi ki, İspaniya Cəbəllütariqə bərabərhüquqlu tərəfdaş olaraq yanaşmır, lakin vəziyyət Devid Kameronun Kordova müqaviləsi çərçivəsində münasibətləri qaydaya salmaq istəyi nəticəsində vəziyyət sabitləşdi. Əlbəttə, İspaniya sərhəd rejimini sərtləşdirə bilərdi, bu, Cəbəllütariqin Şengen zonası və Gömrük İttifaqına üzv olmaması səbəbindən Aİ-nin müddəalarına zidd deyil, lakin bu hərəkətlər müasir Avropaya və Avropanın inteqrasiya meyllərinə sığmır, əlavə olaraq belə yanaşma Kordova razılaşmasına uyğun gəlmir. [18, s.27].

Müasir beynəlxalq münasibətlər sistemində Utrext müqaviləsinin normalarını sözün həqiqi mənasında, tətbiq etmək mümkün deyil. Madridin mövqeyi səhvdir, belə ki, Cəbəllütariqin öz müqəddəratını təyin etməsi yalnız ərazinin İspaniyaya birləşdirilməsi demək deyil. Böyük Britaniya yeni Cəbəllütariq Konstitusiyasını hazırlayaraq, yarımadanın səlahiyyət dairəsini genişləndirdi, lakin onun üzərində öz nəzarətini saxladı. BMT-nin Dekolonizasiya Komitəsi Cəbəllütariq baş naziri Piter Karuanın Cəbəllütariqin "özünü idarə edə bilməyən ərazilər" sırasından çıxarılması tələbini dəstəkləmədi və yarımadanın öz müqəddəratını təyin etməsi İspaniyaya aid

olduğunu bildirdi. XXI əsrdə Cəbəllütariq xarici dövlət hesab edilə bilməz. Liderlər vəziyyəti real qiymətləndirir, bunu Peter Karuananın sözlərindən də görmək olar: "Cəbəllütariq xalqı qeyri-demokratik təkliflərlə razılaşmayacaq" [14, s.39].

Qeyd etmək lazımdır ki, Cəbəllütariqin suverenliyi ilə bağlı mübahisə dəniz sərhədlərinin qeyri-müəyyənliyini daha da artırdı. Madrid İngiltərənin yalnız bir şəhər və qalaya hüququ olduğunu və boğazın 12 millik hissəsinin isə İspaniya ərazi sularına olduğunu israr edir.

Göründüyü kimi, Cəbəllütariq məsələsi İspaniya ilə Böyük Britaniya arasındakı münasibətlərin kəskinləşdirən əsas problemlərindən biridir. Bu məsələ hələ də öz həllindən uzaqdır, çünki XXI əsrdə Cəbəllütariqi Böyük Britaniyanın asılı ərazisi hesab etmək mümkün deyil. Beynəlxalq təcrübənin göstərdiyi kimi, iqtisadi sanksiyalar siyasi iradəyə təsir edə bilmir. [18, s.28].

# II FƏSİL. CƏBƏLLÜTARİQ PROBLEMİNİN MAHİYYƏTİ VƏ TƏNZİMLƏNMƏSİ

## 2.1. Problemlə bağlı Böyük Britaniya, İspaniya və Avropa İttifaqının mövqeyi

Cəbəllütariq boğazı strateji baxımdan istər İspaniya, istərsə də İngiltərə üçün əhəmiyyətli ərazilərindən biridir. Ərazi, Böyük Britaniya və İspaniya ilə yanaşı bir sıra dövlətin, eləcə də Avropa İttifaqı ölkələrinin maraqları daxilindədir. Aralıq dənizindən Atlantik okeanına gedən yol, həmçinin, Süveyş kanalı və Qara dəniz boğazlarının (Bosfor və Dardanel) Atlantik Okeanına keçidi məhz bu dar bərzəx vasitəsilə həyata keçirilir. Buradan belə nəticə çıxarmaq olar ki, Cəbəllütariq boğazına dünyanın heç bir dövləti təkbaşına nəzarət edə bilməz. Odur ki, NATO üzvü olan ABŞ, İngiltərə və İspaniya arasında bu məsələ ilə bağlı qarşılıqlı razılaşmalar zərurət olaraq meydana çıxmışdır. Cəbəllütariq əhalisinin öz mövqeyini də nəzərə almaq vacibdir. [40, s.447].

Cəbəllütariqə nəzarət etmək bir sıra imkanlara sahib olmaq deməkdir,yəni, Cəbəllütariq boğazından gəmilərin keçməsinə tamamilə və ya qismən nəzarət etmək, xarici gəmilərin hərəkət rejiminə təsir etmək, sahil dövlətlərinin siyasətinə təsir etmək, boğazdan keçmək hüququ ilə bağlı hüquqi iddialar irəli sürmək və s. məsələlər nəzərdə tutulur. Cəbəllütariq boğazının hərbi məqsədlərlə istifadəsi dedikdə, Böyük Britaniyanın hərbi mövcudluğunun saxlanması, ABŞ, İspaniya və Mərakeş arasında xüsusi əlaqələrin qurulması, NATO və London arasında yarımadaya münasibətdə xarici siyasətin sıx əlaqələndirilməsi nəzərdə tutulur. Yarımada da ingilis hərbi bazası yerləşir və ərazi NATO Müttəfiq Hərbi Dəniz Qüvvələri Komandanının qərargahına ev sahibliyi edir. Böyük Britaniya öz hərbi bazasında bir piyada və təminat vahidlərindən ibarət bir batalyon saxlayır və tərkibi vaxtaşırı olaraq dəyişdirilən dəniz bazasında ingilis donanmasının müxtəlif təyinatlı hərbigəmiləri  saxlanılır. Yarımadanın şimal hissəsind hərbi təyyarələri qəbul edə bilən hərbi aerodrom mövcuddur.

Cəbəllütariq məsələsinin təkcə geosiyasi aspekti deyil, həmçinin iqtisadi-maliyyə aspekti də çox əhəmiyyətlidir. Problemin maliyyə və iqtisadi tərəfi həm

birbaşa mübahisə tərəflərinin (Böyük Britaniya, İspaniya və Cəbəllütariq), həm də bütün Avropa İttifaqının maraqlarına təsir edir. Böyük Britaniyanın mülkiyyətinə daxil olan bu ərazi güzəştli vergi sistemi olan xüsusi iqtisadi zonadır. Uzun illərdir ki, ərazinin ofşor statusu (ƏDV tutulmur) ilə əlaqədar olaraq burada qumar oyunları biznesi inkişaf etməkdədir. Əraziyə dünyanın hər yerindən kapital axını baş verir. Burada iyirmidən çox iri oyun firması, bukmeker kontoru, bank və müxtəlif şirkətlər qeydiyyatdan keçmişdir. Müasir dəniz limanı və əlverişli yanacaq qiymətləri çoxlu sayda gəminin və bahalı yaxtaların Cəbəllütariqə yanalmasına imkan verir. Turizm sahəsi də böyük əhəmiyyət kəsb edir. Cəbəllütariq əhalisinin 40%-dən çoxu xidmət sektorunda çalışır. Bunlar əsasən, otellərdə, restoranlarda, gözəllik salonlarında, taksi xidmətində və s sahələrdə işçilərdir. Hər il dünyanın müxtəlif yerlərindən təxminən on milyon nəfər turist Cəbəllütariqdəki məşhur uçurumlu sahili görməyə gəlir, bu turistlərin əksəriyyəti İspaniya ərazisindən keçir [40, s.448].

"Brexit" prosesi fonunda Böyük Britaniya ilə Aİ arasında ənənəvi qarşılıqlı əlaqə mexanizminin dəyişilməsi Cəbəllütariq problemini yenidən aktuallaşdırdı. Münaqişə üçbucağında münasibətlər kəskinləşdi. Yarımada vəziyyətin girovuna çevrildi, çünki Aİ və hüquqi olaraq Böyük Britaniya ilə çox sıx iqtisadi münasibətlərə malikdir. Cəbəllütariq əhalisi Britaniya vətəndaşlığını qoruyaraq, Avropa İttifaqının bir hissəsi kimi qalmaq istəyir. 2011-ci ildən etibarən Cəbəllütariqin baş naziri, hakim Sosialist İşçi Partiyasının lideri Fabian Pikardo bununla bağlı mövqeyini açıq şəkildə ifadə etmişdir: "Cəbəllütariq sakinləri Birləşmiş Krallığın Aİ-dən çıxması ilə bağlı danışıqların qurbanı olmamalıdır. Biz Aİ-də olmağa səs verdik. Bu o deməkdir ki, Aİ-dən kənarda qaldığımız təqdirdə İspaniyaya qarşı aqressiv siyasət yürütməyimiz qaçılmazdır" [27, s.153].

Məsələ ilə bağlı tərəflərin mövqelərini nəzərdən keçirək.

*Böyük Britaniya:*

Britaniyanın dənizkənarı əraziləri (British Overseas Territory-BOT) Birləşmiş Krallıq üçün xüsusi yer tutur. Bunlar ingilis imperatorluğunun "dənizləri idarə etdiyi" dövrlərdən qalan "mülkləri"dir. İngiltərənin üzərində suverenliyi olan həmin on dörd xarici ərazi bütün dünya üzrə səpələnmişdir və hər birinin öz konstitusiyası

vardır. Böyük Britaniya bu ərazilərin təhlükəsizliyinin zəmanəti kimi çıxış edir və onların xarici əlaqələrinin qurulması ilə məşğul olur. Bu ərazilərin çoxu maliyyə və turizm xidmətləri göstərir və balıqçılıq lisenziyalarını satır, bu da onların iqtisadi cəhətdən özünü təmin etməsinə kömək edir, lakin onlar maliyyə məsələlərində tamamilə müstəqil deyillər. BOT Aktına əsasən, bu ərazilərin sakinləri (bəzi istisnalar olmaqla) 2002-ci ildən bəri Britaniya vətəndaşlığı alıblar. Bu sənəd eyni zamanda "Britaniyadan asılı ərazilər" ifadəsinin "İngiltərənin xaricdəki əraziləri, BOT" ilə əvəz edilməsini qanuniləşdirir [27, s.153].

İngilis hökuməti iddia edir ki, dəniz kənarındakı ərazilər üzərində dörd əsrlik suverenliyinə baxmayaraq, onlarla münasibətlərin qurulması vətəndaşlarının öz gələcəyini seçmək (status-kvonu qorumaq və ya alternativ axtarmaq) hüququnun rəhbər olması ilə həyata keçirilir. BOT-da iqtisadi vəziyyət olduqca qeyri-sabitdir: birincisi, hər şey maliyyə xidmətləri və turizm sahəsindəki işlərin vəziyyətindən asılıdır; ikincisi, narkotik alveri və mütəşəkkil cinayətkarlıqla mübarizə aparmaq onlar üçün çətindir; üçüncüsü, bəzi ərazilərdə vətəndaş cəmiyyəti institutları inkişaf etməmişdir, güclü qanunvericilik bazası və analitik mətbuat yoxdur. Bu da idarəetmənin nəzarət səviyyəsinin aşağı olması ilə bağlıdır.

Aİ-nin Fəaliyyətinə dair Müqavilənin altıncı maddəsinə görə(AI üzv dövlətlərə dəstək vermək səlahiyyətinə malikdir) , Böyük Britaniyanın xarici əraziləri Avropa Birliyinin bir hissəsidir, lakin assosiatov statusa malikdir və Avropa Regional İnkişaf Fondunun (ERDF) dəstəyindən asılıdır: məsələn, ERDF -dən maliyyə yardımı İngiltərənin 2016-cı il büdcəsinin 36%-ni təşkil edir [27, s.154].

Böyük Britaniya üçün Cəbəllütariq Avropada sonuncu müstəmləkədir. Ərazi üzərində suverenlik Britaniyaya "qlobal güc" olaraq mövqeyini qoruyub saxlamağa imkan verir. Krallığın əsas marağı, ilk növbədə, Aralıq dənizindəki hərbi-strateji mövqeyini qorumaqla bağlıdır. Böyük Britaniya, boğaz üzərində hökmranlığın İspaniyanın əlinə keçməməsinə çalışır, çünki belə olacağı təqrdirdə İspaniya Seuta (Afrika sahillərində, Mərakeş ərazisində İspaniyanın anklavı) ilə birlikdə, Atlantik və Aralıq dənizini birləşdirən marşrut üzərində nəzarət üstünlüyü qazanacaq. Böyük Britaniya strateji baxımdan əhəmiyyətli olan bu ərazini itirmək istəmir, bu məqsədlə

Cəbəllütariq əhalisininin maraqlarını təmin edəcək konstitusiya islahatını həyata keçirmək, müstəqil hökumət yaratmaq, hətta İngiltərədən fərqli vergi sistemi qurmağa hazırdır, lakin heç vaxt ərazinin tam müstəqill olacağını qəbul etmir. Britaniya dövləti Aİ-dən çıxmaqla əlaqədar bütün 14 xarici əraziləri üçün vahid şərtlər elan etmişdi. Hələ 1655-ci ildə Oliver Kromvel ərazinin əhəmiyyətini vurğulayaraq, Cəbəllütariqin "ticarətimizin xeyrinə və ispanları qəzəbləndirmək üçün" lazım olduğunu söyləmişdir [39].

Krallığın Aİ-dən ayrılmasına hazırlıq işlərinin aparıldığı dövrdə İngiltərənin baş naziri Tereza Mey, Cəbəllütariqə İngiltərənin nəzarətindən çıxmasına heç vaxt icazə verməyəcəyini dəfələrlə qeyd etmişdi. Həmçinin, bəzi ingilis siyasətçiləri, xüsusən Mühafizəkarlar Partiyasının keçmiş lideri Maykl Hovard, açıqlamalarında daha sərt olmuş və mövqeyini belə ifadə etmişdir: "İngiltərə Cəbəllütariqi heç bir zaman İspaniyaya güzəştə getməyəcək. və lazım gələrsə, Folklenddə olduğu kimi hərbi güc tətbiq edəcək .

Birləşmiş Krallıq üçün İspaniya ilə razılığa gəlmək və Cəbəllütariqi itirməmək vacibdir. İngilis elitasının qorxusu budur ki, xaricdəki bir mülkünü itirməsi digərlərini də itirməsinə səbəb olacaqdır. . Buna görə də, "Avropa bazarına çıxmaq müqabilində Cəbəllütariqi" İspaniyaya güzəştə getmək fikrini rədd edi [40, s.449].

Böyük Briyaniya "Brexitdən" sonrakı mərhələdə də öz geosiyasi nüfuzunu qorumaq üçün Cəbəllütariqdən əl çəkməyəcəyini bildirir və Cəbəllütariq üzərində suvenliyin ona məxsus olduğu fikrində qətidir

*İspaniya:*

İspaniya üçün Cəbəllütariqin qaytarılması şərəf və milli ləyaqət məsələsidir. İspanların fikrincə, İngiltərənin Aİ-dən çıxması "milli ideyalarının" həyata keçirilməsi üçün əlverişli şərait yaradıb və artıq ispanlar bu çoxəsrlik "niyyətlərini" həyata keçirə bilərlər. İngiltərə elitası kimi İspaniya hökuməti də Cəbəllütariq ərazisinin geosiyasi əhəmiyyətini, ticarət və hərbi fəaliyyətlər üçün zəruriliyini anlayır. İspaniya hökuməti "Brexitin" nəticələri ilə bağlı Cəbəllütariq əhalisinin narahatlıqlarından istifadə etməyə çalışır. Ispanlar yarımadanın sakinlərinin hər cəhətdən Avropanın bir hissəsi olmasını, Avropa dəyərlərini üstün tutmasını bilirlər.

Onlar bu faktları əsas götürərək sakinləri inandırmağa çalışırlar ki, əgər İngiltərə Aİ-dan çıxarsa onlar firavanlıqlarını və çoxsaylı üstünlükləri itirəcəklər. Hətta referendum nəticələrinə görə Cəbəllütariq əhalisinin 96%-i Aİ-də qalmağın lehinə səs vermişdi. İspanlar təlqin etməyə çalışır ki, Cəbəllütariq yalnız Madridin köməkliyi ilə Avropa İttifaqının bir hissəsi olaraq qala bilər. İspaniyanın xarici işlər və əməkdaşlıq naziri Alfonso Dastis Quesedo Cəbəllütariq sakinlərini İngiltərənin Aİ -dən çıxmasından sonra yeni narahatlıqlarla üzləşəcəkləri barədə xəbərdarlıq etdi. Belə ki müsahibələrdən birində o demişdi: "Həqiqətən, Cəbəllütariq sakinləri əvvəlki hərəkət azadlığı və ya iqtisadi fəaliyyət üçün (Aİ-də) malik olduqları azadlıqlarını itirəcəklər" [26].

Əvvəlcə Cəbəllütariq məsələsi İngiltərənin Aİ-dən çıxması ilə bağlı danışıqlara dair rəsmi direktivlərə daxil deyildi və ikinci mərhələdə, yəni, rəsmi "ayrılma" dan sonra daxil edilməli idi. Bundan əlavə, bu mövzuda qərarlar verilərkən İspaniya Avropa İttifaqından veto qoymaq hüququ aldı. Madrid və London arasında razılaşma olmadan, Aİ və Böyük Britaniya arasındakı heç bir müqavilə Cəbəllütariqə tətbiq edilə bilməzdi.

Böyük Britaniya hələ Aİ-dən rəsmi çıxmazdan əvvəl, İspaniya Cəbəllütariq və Böyük Britaniyaya bir müddət yarımada üzərində "birgə suverenlik" təklif etdi. Bu ideyaya görə öncə ərazidə birgə suverenlik yaradılmalı, daha sonra isə Cəbəllütariq geniş muxtariyyətə malik ispan əyalətinə çevrilməli və ərazidə İspaniyanın suverenliyi bərpa edilməli idi. İspaniyanın keçmiş xarici işlər naziri Xose Manuel Qarsionun təklif etdiyi plan 4 mərhələdən ibarət idi: birgə suverenlik elan etmək; NATO ilə mövqeləri koordinasiya etmək; Cəbəllütariq əhalisinin ikili vətəndaşlığını qanuniləşdirmək; ispan muxtariyyətini elan etmək [40, s.449].

Böyük Britaniya belə planla qəti şəkildə razılaşmadı. Rəsmi London "Brexit" danışıqlarının nəticəsindən asılı olmayaraq, status-kvonu saxlamaq niyyətində olduğunu bəyan etdi. İngiltərə hökuməti hətta İspaniya mövqeyini dəyişməyəcəyi təqdirdə Cəbəllütariqin müdafiəsi uğrunda hərbi qarşıdurmaya belə hazır olduğunu dilə gətirdi. Baş nazir Boris Conson bununla bağlı bildirmişdir: "Cəbəllütariq

sakinlərinin vətəndaşlığı dəyişməzdir, belə də qalacaq. Vətəndaşlıq Cəbəllütariq əhalisinin və İngiltərənin dəstəyi və razılığı olmadan dəyişə bilməz” [35].

İspaniya tərəfinin Aİ və NATO-nun birgə maraqlarına baxmayaraq, həm İngiltərəyə, həm də Cəbəllütariqə iddiaları var. Bunların arasında birincisi, Cəbəllütariqin, əslində, korporasiyalar üçün aşağı vergi dərəcəsinin olması ilə yanaşı, çirkli pulların yuyulması üçün də əlverişli yer olmasıdır, bütün bunlar korrupsiya hallarının yaranmasına səbəb olur, İspaniyanı əhəmiyyətli gəlirlərdən məhrum edir, iqtisadi cinayətləri təşviq edir. İkincisi, tütün məmulatları və narkotik maddələrin qaçaqmalçılığı, sərhəddən daşınması və mütəşəkkil cinayətkarlıq qeyri-sabit vəziyyət yaradır. Üçüncüsü, Cəbəllütariq hava limanının tikintisi Böyük Britaniya tərəfindən qanunsuz olaraq, İspaniya ərazisində həyata keçirildiyi üçün birgə nəzarət məsələsi açıq qalmaqdadır. Dördüncüsü, vaxtaşırı sahil sularından istifadə və balıqçılıqla bağlı mübahisələr yaranır. Beşincisi, İspaniya zaman-zaman Cəbəllütariq ərazisinə silahlı qüvvələrin girişini məhdudlaşdırmaq tələbi irəli sürür. Həmçinin İngiltərə tez -tez Cəbəllütariqdən nəinki dəniz yolu kimi, həm də qonşu Mərakeşə getmək üçün ərazinin sərhədini keçmək məcburiyyətində qalan ispanlara qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. Aralıq dənizi bölgəsindən Şərqi Atlantikaya gedən gəmilərin daimi monitorinqi ispanların narazıçılığına səbəb olur və Şimali Afrikadakı hərəkətlərini NATO ilə əlaqələndirməyə məcbur edir [40, s.449]. Bununla əlaqədar olaraq ispanlar belə deyirlər: “Britaniya Cəbəllütariqdən İspaniyaya narahatlıq yaratmaq üçün istifadə edirlər”. Bu, məsəslə 300 il əvvəl meydana gələn və fəallaşması Londondan asılı olan bir növ mübahisədir. General F. Franko bir vaxtlar məcazi mənada Cəbəllütariqi “İspaniyanın kürəyinə saplanmış xəncər” adlandırmışdı. Bir çox amillər kompleksi (siyasi, iqtisadi, hərbi strateji) ispanların yarımadanı İspan Krallığına qaytarmaq istəyini şərtləndirir [40, s.449]. İspaniyanın keçmiş xarici işlər naziri Josep Borrellin (hazırda Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Yüksək Nümayəndəsi) 2018-ci il oktyabrın 18-də Aİ sammitində ifadə etdiyi mövqeyini qeyd etmək vacibdir: “İspaniya Cəbəllütariqi müstəmləkə hesab edir və bu səbəbdən uzun müddətdə dövlətin suverenliyini bərpa etmək iddialarından əl çəkmək niyyətində deyil” [ 21]. Aİ Komissarı, həmçinin, Cəbəllütariqin İngiltərə ilə birlikdə

Aİ-dən çıxmasının bu ərazinin İspaniya ilə yaxınlaşmasına kömək edəcəyini də əlavə etdi. Krallığın hakim elitası Cəbəllütariq üçün xüsusi bir termin təklif edir: "Avropa İttifaqı ilə əlaqəli ingilis və ispan Tacı şəhəri".

İspanlar hətta nəzarət funksiyalarının bir hissəsini aldıqları halda Cəbəllütariq hava limanına ingilislərin daxil olmasına icazə verəcəklərini bildirmişdilər. İspanlar üçün məsələ Cəbəllütariq üzərində İspaniya bayrağının qaldırılmasından daha çox, ingilis bayrağının endirilməsindədir [21].

İspaniyanın baş naziri Pedro Sançes və onun hökumətini qəzəbləndirən məsələ "Brexit" müqaviləsindəki 184-cü maddədir. 2018-ci il Aİ ilə İngiltərə arasındakı gələcək münasibətləri tənzimləyən müqavilənin mətnindən Cəbəllütariq məsələsi barədə bu maddənin çıxarılmasını tələb edib. Cəbəllütariqlə bağlı məsələyə Aİ-nin gündəliyində yer verilməməlidir və yarımadanın gələcəyi yalnız iki ölkə arasında müzakirə olunmalıdır. Sançes 184-cü maddə Böyük Britaniyanın İspaniyaya qurd tələ kimi qiymətləndirir.

*Cəbəllütariq*

Cəbəllütariq iqtisadi və mədəni cəhətdən İspaniya ilə sıx bağlıdır. Yarımada və ona bitişik İspaniya ərazisinin "təbii inteqrasiyası" mövcuddur. Cəbəllütariqin 30 min əhalisinin təxminən üçdə biri İspaniyada işləyir və hər gün sərhədi keçir. Eyni zamanda xeyli sayda ispan əhali Cəbəllütariqdə işləyir. İngilislər Cəbəllütariqdə yaşamağı üstün tuturlar, çünki burada həyat şəraiti daha ucuzdur və maaşları yüksəkdir. İspaniyadan Cəbəllütariqə 15 dəqiqəyə çatmaq olar, hətta bir çoxu velosipedlə gəlir. Bütün bunlar Aİ-İngiltərə münasibətlərində keçid dövründən sonra dəyişə bilər. "Brexit" minlərlə insanı işsiz qoya bilər.

Ayrılandan sonra da, İngiltərə Aİ-dən ayrılarsa, Cəbəllütariq Avropa İttifaqı daxilində qalmaq istəyir, eyni zamanda Britaniya vətəndaşlığını saxlamaq və onu ispan təbəəsinə dəyişmək istəmir. Brexit referendumunda (iyun 2016) yerli əhalinin 96% -i İngiltərənin Aİ-də qalmasına səs verdi. Bunun da özünəməxsus səbəbləri var: Cəbəllütariq əhalisi Avropada işini və sərbəst hərəkət imkanını, Avropa sağlamlıq sığortası kartlarını itirmək, Avropa təqaüdləri və illik indeksləşdirilmədən məhrum

olmaq, sürücülük vəsiqələrini dəyişdirmək,  Aİ ölkələrinə səyahət etməsi üçün yeni sənədlər almaq və s. istəmir. [38].

Onların istəyi başa düşüləndir, çünki Avropa İttifaqından çıxacağı təqdirdə, Cəbəllütariq bir sıra iqtisadi mənfəətini, xüsusən də balıqçılıq kvotalarını itirəcək və dövlət sərhədi hər gün Britaniya anklavına işləməyə gələn 10.000 ispan vətəndaşı üçün ciddi bir maneə olacaq. Tarixi əlaqələr də vacibdir, bu danılmazdır, lakin coğrafi əlaqələr onları daha çox Avropaya yaxınlaşdırır, odur ki əhalidə Aİ ilə birlik hissi Birləşmiş Krallıqdan daha güclüdür [40, s.450].

Böyük Britaniya Cəbəllütariqi  yüksək həyat səviyyəsinə malik zəngin bölgəyə çevrilmişdir. Aİ üzvlüyü və bu üzvlüyün bəxş etdiyi xüsusi şərtlər yarımada da rifahın yüksəlməsinə səbəb olmuşdur. Burada adambaşına düşən ÜDM 64.934 funt sterlinqdir ki, bu da İngiltərə və Aİ-nin göstəricilərindən xeyli yüksəkdir və hərbi sektor ÜDM-in yalnız 6%-ni təşkil edirr (baxmayaraq ki, hələ 1984-cü ildə bu göstərici 60%-dən çox idi) [40, s.450].  Məhz buna görədir ki, əvvəlki referendumlarda (1967 və 2002) Cəbəllütariq əhalisinin Böyük Britaniya ilə birləşmənin leyhinə olması və "Brexitlə" bağlı mövqeyinin mənfi olması təəccüblü deyil [ 43].

Cəbəllütariq əhalisi üçün Aİ daxilində sərbəst hərəkət və sərhədlər məsələləri ilə bağlı xüsusi imtiyazların qorunub saxlanması zəruridir. Eyni zamanda, ispan tərəfinin əhalinin gündəlik həyatını çətinləşdirəcəyinə dair narahatlığı var. Belə ki, 1969 -1985 -ci illərdə olan iqtisadi blokada ilə bağlı əhali arasında xatirələr hələ də yaşayır. Bu blokadada bütün əlaqə növləri (teleqraf və telefon daxil olmaqla) dayandırılmış, dəniz nəqliyyatı kəsilmiş və ingilis təyyarələrinin İspaniya ərazisi üzərində uçuşu qadağan edilmiş, yemək və içməli su ilə bağlı problemlər yaşanmışdı

Cəbəllütarqi aparılacaq danışıqlarda müstəqil tərəf kimi çıxış etmək istəyir.[40, s.451].

*Avropa İttifaqı*

İspaniya ilə Böyük Britaniya arasında olan ərazi mübahisəsində Aİ İspaniyanın mövqeyini dəstəkləyir. Aİ rəhbərliyi İngiltərənin Aİ-dən çıxmasından sonra İngiltərə ilə Aİ arasında imzalanmış heç bir müqavilənin İspaniya ilə İngiltərə arasında ayrıca

müqavilələr olmadan Cəbəllütariqdə tətbiq oluna bilməyəcəyini qəbul etdi. Avropa İttifaqı təşkilatın adından danışmaq üçün İspaniya Krallığına qanuni hüquq verib. Bu o deməkdir ki, İspaniya Böyük Britaniya ilə Avropa İttifaqı arasındakı münasibətlərə müdaxilə edə, rəsmi Londonun Cəbəllütariqlə bağlı qərarlarının qarşısını ala və nəticədə, Aİ bu yanaşma ilə Cəbəllütariqin mövqeyinə təsir edə bilər. Bu mövqe İttifaqın əsl məqsədini müəyyən edir. Bir tərəfdən, Böyük Britaniyaya əngəllər yaratmaq və öz xeyrinə ondan əlavə güzəştlər əldə etmək istəyir, digər tərəfdən isə Cəbəllütariqin hazırki maliyyə, iqtisadi və viza xüsusiyyətlərini qoruyub saxlamaq istəyir. Nə Avropa İttifaqı, nə İspaniya, nə də Cəbəllütariq özü bu ərazinin imtiyazlı statusunu itirməsini istəmirdilər. [28].

"Eyni zamanda, Aİ rəhbərliyi Cəbəllütariqi "Brexit" müqaviləsinə daxil etmək niyyətində deyildi. Aİ üçün Aİ-nin xarici sərhədi olan Britaniya-İrlandiya sərhədi kimi, İspaniyanın Cəbəllütariqlə sərhədi məsələsi vacibdir. İspaniyanın Cəbəllütariqlə Şengen zonası arasında təhlükəsizliyi və sərhəd nəzarətini təmin etməsi kifayət qədər çətin vəzifədir. Böyük Britaniyanın Aİ-dən çıxışından sonra problem daha da çətinləşəcək, çünki Cəbəllütariq ətrafındakı sular artıq Aİ-nin ərazi sularıdır. Bunlar ümumi sulardır,lakin İngiltərə Aİ-dən çıxanda məsələ tamam dəyişəcək [29].

Avropa Şurası, Aİ-dən  çıxmaq üçün danışıqlara dair bir sıra təlimatlar hazırlandı. Təlimatın prinsipləri arasında 22-ci prinsip xüsusilə əhəmiyyətlidir. Belə ki, bu prinsipdə "Birləşmiş Krallıq Birliyi tərk etdikdən sonra İspaniya Krallığı ilə Böyük Britaniya arasında razılaşma olmadan Aİ ilə Birləşmiş Krallıq arasındakı heç bir müqavilə Cəbəllütariq ərazisinə şamil oluna bilməz"  ifadəsi yer alır.

*Birləşmiş Millətlər Təşkilatı:*

Cəbəllütariq müstəqil dövlət deyil və sadəcə danışıqlar  prosesində iştirak edir. əvvəl Böyük Britaniya şəhəri və qarnizonu statusunda, 1830-cu ildə  rəsmi olaraq müstəmləkə statusu almışdır. 1981-ci ildə Britaniya Təbəəsi Aktı əsasında "Britaniyadan asılı ərazi" statusunda olmuşdur. 1999-cu ildən etibarən Britaniyanın dənizkənarı ərazisinə çevrilir və 2002-ci ildə bu vəziyyət Dənizkənarı Ərazilər üzrə Akt əsasında qanuniləşir.

1963-cü ildə Bolqarıstan və Kambocanın təkidi ilə xüsusi komitə olan 24-lər Komitəsi Cəbəllütariqdəki vəziyyəti hərtərəfli təhlil edərək ərazini dekolonizasiyaya məruz qalan ərazilər sırasına daxil etdi. Bu vaxtdan etibarən BMT Baş Assambleyasının Cəbəllütariqlə bağlı istənilən qərar və qətnaməsi yarımadada dekolonizasiya prosesi doktrinasına uyğunlaşdırılır[ 31, s. 56].

1960-cı il dekabrın 14-də 1514 saylı qətnamənin 6–cı bəndi xalqların öz müqəddəratını təyinetmə prinsipinin dövlətlərin ərazi bütövlüyü prinsipi ilə uzlaşdırılmasının zəruriliyini göstərir. Bu məqsədlə 1968-ci ilin dekabrında 2429 saylı qətnamə qəbul edilir və onun 1969-cu il oktyabrın 1-dək qüvvəyə minməsi tələb edilir. 1964-cü ildən etibarən BMT tərəfləri danışıqlar stolunda əyləşməyə dəvət edir. Bu danışıqlarda Cəbəllütariq əhalisinin istəkləri deyil, maraqlarının nəzərə alınması tövsiyə edilirdi ki, bu da öz müqəddəratını təyin etmə hüququnun reallaşması ehtimalını zəiflədirdi.

1967-ci il Britaniyanın Cəbəllütariqdə referendum keçirməsi BMT tərəfindən etirazla qarşılanır və bunun BMT BA-nın 2231 saylı qətnamənin tələblərinə zidd olduğu, müstəmləkələrin dövlətdən fərqli statusa malik olduğunu bildirir.

BMT BA–nın Cəbəllütariqlə bağlı son qətnaməsi 1974-cü ildə qəbul edilir və Böyük Britaniya ilə İspaniyanı danışıqlara çağırır. Həmin ildən etibarən hər il Baş Assambleya tərəfləri danışıqlara cəlb etmək üçün vahid qərar qəbul edir.

BMT BA-nın 2007-ci il 17 dekabr tarixli qərarında bildirilir: “ Baş Assambleya 2006-cı il qərarına əsaslanaraq, İspaniya və Britaniya hökümətlərinin birgə bəyənatlarına, 1984-cü il Brüsseldə və 2004-cü il Madriddə , həmçinin “Cəbəllütariq dialoqunun” üçtərəfli forumunun qərarlarına əsaslanaraq məsələnin BMT nizamnaməsi əsasında həll ediləcəyinə ümid edir”[ 31, s. 57].

BMT-nin qəbul etdiyi (1514,2353,2070 saylı qətnamələrə) baxmayaraq, bu qətnamələr qəbul edilməmişdir və Cəbəllütariqin statusu müəyyən edilməmişdir.

## 2.2. “Brüssel prosesi” və “Cəbəllütariq üzrə dialoq”

1976-cı ildə İspaniyada rejim dəyişikliyindən sonra danışıqların yeni mərhələsi başladı və nəticədə 1980-ci il aprelin 10-da Lissabon Bəyannaməsi imzalandı [17].

Burada İspaniya və İngiltərə mövcud fikir ayrılıqlarını aradan qaldırmaq məqsədi ilə təkliflər irəli sürdü. Təkliflərdən biri Cəbəllütariqlə dostluq münasibətlərinin qurulması, digəri isə BMT –nin qəbul etdiyi qətnamələrin nəzərə alınması idi. Tərəflər gələcəkdə qurulacaq əməkdaşlıq qarşılıqlı hörmət və bərabərliyə əsaslanacağı barədə razılığa gəldilər. Lissabon Bəyannaməsi tərəflər tərəfindən təsdiqlənmədi, lakin bununla belə bu müqavilə 1984-cü ildə imzalanmış Brüssel Bəyannaməsinin ərsəyə gəlməsinə təkan verdi [16].

Lissabon Bəyannaməsinə əsasən, Cəbəllütariqdəki ispanlarla İspaniyadakı Cəbəllütariq əhalisinə bərabər hüquqlar verildi. Həmçinin, insanların, nəqliyyat vasitələrinin və malların sərbəst hərəkəti də bərpa edildi (1969 -cu ildə İspaniya tərəfindən bu əlaqələr kəsilmişdi). Buna cavab olaraq, Brüssel Bəyannaməsində İspaniya tərəfi Cəbəllütariqin blokadasını ləğv etməyi öhdəyə götürdü. Bu da insanların, malların və nəqliyyat vasitələrinin sərbəst hərəkətini təmin etdi.[32, s.99]

AİB-ə daxil olmaq cəhdləri İspaniyanın beynəlxalq siyasətinə böyük təsir göstərmişdi. Bu proses sayəsində İspaniya NATO-nun üzvü oldu. Bundan əlavə, NATO üzvü olan iki ölkə problemlərini öz aralarında danışıqlar yolu ilə həll etmək qərarına gəldilər. Bunun üçün Cəbəllütariq mübahisəsində də gərginliyi azaltmaq üçün səylər göstərməyə başladılar. Diplomatik kanalları inkişaf etdirmək yolunda Brüssel Sazişi Lissabon Anlaşmasından sonra ikinci əhəmiyyətli saziş oldu. İspaniya və İngiltərə bu sazişi imzalayaraq, nümayiş etdirdilər ki onlar güc siyasətinə yox diplomatiyaya üstünlük verirlər. Həmçinin, bu saziş İspaniyanın AİB -yə daxil olmasına təkan verən amil idi.

İspaniyanın baş naziri Adolfo Suarez rəhbərliyi İspaniyanın NATO üzvlüyünü nə təriflədi, nə də tənqid etdi. Buna baxmayaraq, İspaniyanın bu addımı ölkə sosialistləri tərəfindən bəyənilmədi. 1982-ci ilin sonunda sosialistlər hakimiyyətə

gəldikləri zaman bu mövzuda sosialistlər tərəfindən mübahisələrə səbəb oldu. Otuz ildən artıq Franko rejimini dəstəkləyən sosialistlər bu məsələdə ABŞ hökumətini günahlandırırdılar. Buna görə də sosialistlər danışıqlar zamanı İspaniyanın NATO -ya üzvlüyünə qarşı çıxdılar. Sosialist hökuməti bunun əvəzində Aİ -yə üzvlük prosesinə diqqət yetirdi. 1983-cü ildə baş nazir Felipe Gonzalez sərhəd qapısı açıldığı üçün Cəbəllütariqdəki məhdudiyyətləri yumşaltdı [ 2, s.52].

İspaniyanın NATO-ya qoşulması ingilis-ispan əlaqələrini gücləndirdiyindən, hər iki hökumət Cəbəllütariq mübahisəsi ilə bağlı danışıqları davam etdirdi. İspaniya və İngiltərə hökumətləri 1984-cü ildə Brüssel Sazişini imzaladılar. Brüssel Sazişi əsas üç maddədən ibarət idi;

1) Cəbəllütariqdəki ispanlar və İspaniyadakı Cəbəllütariq əhalisi üçün bərabər hüquqların qarşılıqlı surətdə təmin edilməsi. Bu, İspaniya ilə AİB arasında razılaşdırılmış keçid dövrləri və məhdudiyyətlər nəzərə alınmaqla, AİB ölkələri vətəndaşlarının istifadə etdikləri qarşılıqlı hüquqi güzəştlər yolu ilə həyata keçirilməli idi. Buna nail olmaq üçün lazımi qanunvericilik təklifləri İspaniya və Cəbəllütariqdə tətbiq olunmalı, keçid dövründə hər bir tərəfin gediş-gəliş icazəsi verilərkən hər iki tərəfin mənafeyi nəzərə alınmalı idi.

2) Cəbəllütariqlə İspaniya ərazisi arasında insanların, nəqliyyat vasitələrinin və malların sərbəst hərəkətinin təmin edilməli idi.

3) Hər iki dövlət Cəbəllütariq ilə bağlı aralarındakı bütün fikir ayrılıqlarını aradan qaldırmalı idi. Danışıqlar prosesi iqtisadi, mədəni, turizm, aviasiya, hərbi və ekoloji mövzularda əməkdaşlığı təşviq etmək məqsədi ilə həyata keçirilməli idi. Hər iki tərəf bu prosesdə suverenlik məsələlərinin müzakirə olunacağını qəbul etdi. Britaniya Hökuməti, Cəbəllütariqin 1969-cu il konstitusiyasının müqəddiməsində qeyd olunduğu kimi, "Cəbəllütariq xalqının istəklərini yerinə yetirmək öhdəliyini zəmanət verir" fikrini əsas götürürdü.[2, s.53].

Brüssel Sazişinin imzalanamsından sonra Franko tərəfindən tətbiq edilən bütün məhdudiyyətlər aradan qaldırıldı. İspaniyanın Cəbəllütariqə münasibəti yumşaldı. Cəbəllütariq və İngiltərə arasında münasibətlərin yaxşılaşması İspaniyanın AB-yə daxil olma prosesini daha da sürətləndirdi. Brüssel Sazişi İspaniyanın Cəbəllütariq

mübahisəsinə yanaşmasını nümayiş etdirirdi və bu sazişin imzalanması İspaniyanın xeyrinə oldu. İspaniya bu sazişi imzalamaqla sübut etdi ki, ölkə Avropa normalarına və dəyərlərinə hörmətlə yanaşır. Müqavilə Cəbəllütariq və İspaniya arasında mal və xidmətlərin sərbəst hərəkətini təmin etdi. Beləliklə, İspaniya tərəfindən Avropa Birliyinə üzvlük yolunda mövcud maneələr aradan qaldırıldı. AİB -yə üzv olmaq üçün İspaniya İngiltərə ilə gərginliyi azaltdı. Digər tərəfdən də İspaniya Cəbəllütariqlə bağlı iddialarından və hüquqlarından tamamilə əl çəkmədi. İspaniya hərbi güc və ya sanksiyalar tətbiq etmək əvəzinə, Cəbəllütariq üzərində suverenlik əldə etmək barədə fərziyyələri kənara qoydu, və AİB-yə istiqamətlənən xarici siyasəti yürütməyə başladı və on il davam edən proses nəticəsində 1986-cı ildə AİB-nin üzvü oldu [2, s.53].

Bölgənin hava məkanına gəldikdə, İspaniya hökuməti etibarlı və səmərəli hava nəqliyyatı qurmaq üçün lazımi addımları atacağına, söz verdi Brüssel prosesi çərçivəsində Böyük Britaniya ilə suverenlik məsələlərini müzakirə edəcəyinə söz verdi. İşçi qruplarının daimi görüşləri keçirildi, bu görüşlər xarici işlər nazirləri səviyyəsində danışıqlarla da müşayiət olunurdu.

Brüssel prosesi 1985-ci ilin fevralında Cenevrədə keçirilən görüşlə başladı. Cəbəllütariq, yalnız 1988-ci ildə Co Bossanonun İspaniyanın baş nazir təyin edilməsindən sonra dəniz dibinin bölgüsü üzrə işə qoşuldu. Bu mərhələ Aİ daxilində hava nəqliyyatının liberallaşdırılması və Cəbəllütariq hava limanının İngiltərənin regional hava limanı olması ehtimalını gündəmə gətirdi. Daha əvvəl qeyd edildiyi kimi, hava limanı mübahisəli bir ərazidə yerləşir, buna görə də, 1987-ci il dekabrın 2-də Böyük Britaniya və İspaniya ondan birgə istifadə haqqında müqavilə imzaladılar [32, s.99].

Həmin müqavilə aşağıdakı maddələrdən ibarətdir:

• İspaniya və Böyük Britaniyanın aviasiya səlahiyyətliləri hava limanının mülki məqsədlər üçün istifadəsi, o cümlədən üçüncü ölkələrlə əlaqələr üçün yeni qaydaların yaradılması ilə bağlı məsələlər üzrə davamlı olaraq məsləhətləşmələr aparacaqlar. İspaniya hakimiyyət orqanlarına ölkənin hava limanları ilə əlaqə qurmaq üçün hava dəhlizindən istifadəyə icazəsi vermək barədə müstəsna hüquq verilir;

1) İspaniya ilə Cəbəllütariq sərhədinin şimalında yeni ispan terminalı inşa edilməli idi.

2) Bu terminaldan şimala gedən yerli və digər ölkələrin sərnişinləri istifadə edə bilərdi..

3) Hər iki terminal hər iki hökumətin bərabər sayda təyin etdiyi üzvlərdən ibarət komitə tərəfindən idarə edilməli idi.

Bu müqavilə, ingilis səlahiyyətlilərin ispan həmkarlarına, razılaşdırılmış immiqrasiya və gömrük nəzarət rejiminə riayət etmək üçün lazım olan qanunvericiliyin qüvvəyə minməsi barədə məlumat verdikdə və ya ispan terminalının inşası tamamlandıqda qüvvəyə minməli idi. [32, s.100].

Paralel olaraq, Avropa Birliyi daxilində İngiltərə və İspaniyanın mövqeyi qorunmalı idi. Müqavilənin son 2 şərtinin AB qanunvericiliyinə daxil edilməsi barədə razılıq əldə olundu.

Cəbəllütariq əhalisi müqavilənin hava limanına enən sərnişinlərin immiqrasiya və gömrük nəzarəti sahəsində qanunvericiliyini dəyişdirilməsinin əleyhinə çıxış etdi.

Portuqaliya İspaniya-Böyük Britaniya mübahisəsinin həllində vasitəçilik etmək niyyətindı idi, lakin rəsmi Madrid həmin mərhələdə ona çox şübhə ilə yanaşırdı. Aİ vasitəçilik istiqamətində addımlar atmağa çalışırdı. İspaniya rəhbərliyi, Cəbəllütariq probleminin siyasi həll yollarının tapılmasının zəruriliyi məsələsində israr edirdi. Bu məsələnin mövcudluğunun NATO -nun müttəfiqi və AB-dəki ortağı olaraq Böyük Britaniya ilə münasibətlərin tam normallaşmasına mane olduğunu vurğulayırdı. Cəbəllütariq məsələsi iki ölkə arasındakı münasibətlərin əsas xarici siyasət istiqamətlərindən birinə çevrilir. Bu tezisi İngiltərənin baş nazir M.Tetçerin İspaniyaya səfəri ərəfəsində keçirilən mətbuat konfransı da təsdiqləyir. M.Tetçer qeyd edir ki, ölkələr arasındakı əsas fikir ayrılığı Cəbəllütariqdəki vəziyyətdir. Onun fikrincə, bu tarixi mübahisə Cəbəllütariq əhalisinin hüquqlarına xələl gətirmədən, Brüssel prosesi çərçivəsində danışıqlar yolu ilə həll edilməli idi. Baş nazir Cəbəllütariqdəki vəziyyətin fərqli hüquqi əsası olduğu üçün Honq Konqdakı vəziyyətə bənzər hesab edilə bilməyəcəyinə inanırdı [ 13].

1989-cu ildə London öz təşəbbüsü ilə Cəbəllütariqdəki hərbi kontingentini azaltmağa başladı. Bu qərar, İngiltərənin Cəbəllütariqlə bağlı mövqeyinin yumşaldılması haqda düşünməyə səbəb oldu. 1989 -cu il parlament dinləmələrində, Cəbəllütariqlə bağlı sualı cavablandıran M.Tetçer, əmin etdi ki, hərbi kontingentin azaldılması Böyük Britaniyanın yerli sakinlərin statusunu dəyişdirmək qərarına gəlməyincə, öz maraqlarını qorumaq üçün Böyük Britaniyanın ərazidəki öhdəliklərinin rədd etməsi demək deyil [12].

1991-ci ildə yarımadada ingilis ordusu Cəbəllütariq Kral Alayı ilə əvəz olundu. Bununla birlikdə Böyük Britaniya burada hərbi-dəniz və hərbi-hava qüvvələri yerləşdirdi [14]. Yalnız 1992 -ci ildə Britaniya Hərbi Hava Qüvvələrinin 5 il ərzində yerli hakimiyyət orqanlarının nəzarətinə verilməsi barədə qərar verildi. İngilislərin bu hərəkətləri İspaniya tərəfinfən müsbət qarşılandı, lakin İspaniyanın rəsmi dairələrinin fikrincə, yuxarıda göstərilən hərəkətlər ispan-ingilis mübahisəsinin mahiyyətinə təsir etmədi.

Xarici işlər nazirləri səviyyəsində görüşlər 1987-1997-ci illər arasında baş tutdu, ancaq hava limanına dair razılaşmadan başqa, heç bir əhəmiyyətli razılaşma əldə olunmadı. 1997 -ci ilin sentyabrında o zaman İspaniyanın xarici işlər naziri olan Abel Matutez BMT Baş Assambleyasında 50 il müddətində suverenliyi birgə təmin edən qurumu yaratmaq təklifi ilə çıxış etdi. Belə ki, bu müddətdə arzu edənlər üçün Britaniya vətəndaşlığı saxlanılacaq, Cəbəllütariqin vergi sisteminin, onun dil və mədəni kimliyinin tanınması şərti ilə ona geniş muxtariyyət statusunun verilməsini təklif edilirdi. Bu təklif, İngiltərə Xarici İşlər Nazirliyindən gözlənilən reaksiyanı almadı və bu mövzu ilə bağlı heç bir rəsmi açıqlama verilmədi [32, s.102]

1997-ci ilin dekabrında Cəbəllütariqdəki NATO komandanlığının ləğv edilməsini və İspaniyanın bu təşkilata daxil edilməsini özündə ehtiva edən yeni bir NATO komandanlığının yaradıldığını da qeyd etmək vacibdir. Əvvəllər, İspaniya oradakı komandanlığı tanımadığı üçün NATO ilə Lissabon və Neapolda yerləşən komandanlıq strukturları vasitəsi ilə qarşılıqlı əlaqə qururdu [37].

1998-ci ildə Brüssel prosesi çərçivəsində nəzərdə tutulan nazirlər toplantısı baş tutmadı, çünki həmin müddətdə Aİ-yə sədrlik edən Böyük Britaniya bu məsələdə

təşəbbüskar olmadı. Bu toplantı 1999 və 2000-ci illərdə də keçirilmədi. Bənzər bir hadisə daha sonra, 2003-cü ildə təkrarlandı. Aydındır ki, bu hadisələr Böyük Britaniya ilə İspaniya arasında yalnız 2001-ci ildə bərpa olunan danışıqlar prosesinə mənfi təsir göstərmişdir.

2000-ci ildə Cəbəllütariq limanında təmirə saxlanılan və 2001-ci ilin may ayına qədər orada qalan ingilis nüvə sualtı qayığı “Tireless” ilə əlaqədar ispanlar etiraz etmişdilər, çünki oradakı radioaktiv maddələrin suya tullanması İspaniya sahillərində dənizi çirkləndirirdi. İspanların belə perspektivdən narahatlığı təbii idi və onlar Cəbəllütariq limanında sualtı qayıqların təmirinin həyata keçirilməsinə qarşı çıxdılar. London isə buna cavab olaraq heç bir təhlükənin olmadığını bildirdi. narahat Cəbəllütariq əhalisinə gəlincə, onlar Madridin onların daxili işlərinə qarışmağa haqqı olmadığını bəyan etdilər.

Madrid və London arasındakı çəkişmə sonralar yeni forma aldı. Belə ki, mübahisədə iqtisadi kontekst ortaya çıxdı. Həmin ərəfədə yarımadanın cəlbedici ofşor sahəsinə çevrilməsi nəticəsində Aİ Komissiyası İspaniya ilə sərhədin bağlanmasını tələb edirdi. Onlar ərazini kapital axınının keçib getdiyi “maliyyə çuxuru” hesab edirdilər.

Beləliklə, 2001-ci ilə qədər danışıqlar prosesini bir neçə mərhələyə bölmək olar. Birinci mərhələ BMT -nin təşəbbüsü ilə danışıqların dərhal başlaması mərhələsidir. İkinci mərhələ, illər tərəflərin hüquq bərabərliyini tanıdıqları və gələcəkdə danışıqlar prosesinin təməlini qoyduqları Lissabon, daha sonra Brüssel Bəyannamələrinin qəbul edilməsidir. Üçüncü mərhələ, Brüssel prosesidir ki, bu da 1985-ci ildən 2001-ci ilə qədər davam etdi və bu dövr İspaniya ilə Böyük Britaniya arasındakı münasibətlərdə əlavə faktorların ortaya çıxması və əslində danışıqların fiasko ilə nəticələnməsi ilə xarakterizə olunur. Brüssel Prosesi - 1985 -ci ildən etibarən İspaniya və Böyük Britaniya Xarici İşlər nazirləri səviyyəsində Cəbəllütariq məsələsinin müntəzəm müzakirə olunmasıdır. Bu müddət ərzində hava limanı ilə bağlı razılaşmadan başqa digər əhəmiyyətli razılaşma əldə olunmadı və gərginlik davam etdi. Aydındır ki, Cəbəllütariqin statusu məsələsinin həllində daha da irəliyə

getmək üçün danışıqların yanaşma və formatında köklü dəyişikliklər tələb olunur [32, s.102].

1997-ci ildə Böyük Britaniyada leyboristlərin qələbəsindən sonra İspaniya rəhbərliyi Cəbəllütariq məsələsində dialoqa başlamaq üçün T. Bleir hökumətinin müəyyən zəifliklərindən istifadə etməyə başladı. Danışıqların yenidən canlanmasına kömək edən amillərdən biri də iki ölkənin liderlərinin, İspaniya hökumətinin başçısı H.M. Aznar ilə Böyük Britaniyanın baş naziri T. Bleirin şəxsi əlaqələrə malik olmaları idi. şəxsi qarşılıqlı rəğbət, Aİ və NATO daxilində bir çox məsələlərdə onlar oxşar mövqelərdən çıxış edirdilər. 2001-ci il iyulun 26-da Brüssel prosesi çərçivəsində Londonda Cəbəllütariq məsələsini müzakirə etmək üçün nazirlər toplantısı keçirildi. Burada yalnız İspaniyanın 2001-ci ilin iyun ayında vəzifəyə başlayan xarici işlər naziri Cozef Pike və Britaniyalı həmkarı Cek Strou iştirak etdi. Sonralar öz xatirələrində Cek Strou Cəbəllütariqin statusu məsələsini yeni xarici işlər naziri olaraq, özü üçün əsas problemlərdən biri adlandırmışdı [32, s.104].

Xarici İşlər nazirləri mübahisənin ən qısa zamanda və bütün tərəflər üçün maksimum fayda ilə həll edilməsi üçün əməkdaşlıq etmək niyyətlərini ifadə etdilər. Cəbəllütariq səlahiyyətlilərinin fəal iştirakı olmadan prosesin irəliləməsinin mümkün olmadığını da qeyd etdilər..

2001-ci il sentyabrın 20-də İspaniya və Böyük Britaniya, Cəbəllütariq hava limanı üçün vahid Avropa səma standartının tətbiqinin təxirə salınması barədə razılığa gəldilər.

2001-ci ilin noyabr ayında Barselonada nazirlər toplantısı keçirildi. Toplantıda əsas məqsəd 2002-ci ilin yazına qədər mübahisənin bütün məsələlərini və aspektlərini həll edəcək razılaşma əldə etmək idi. Nazirlər birgə bəyanatda İspaniya ilə qonşuluqdan maksimum faydalanaraq Cəbəllütariqin parlaq gələcəyini təmin etməyi və muxtariyyətini qorumağı seçdilər. Əsas prinsip etibarlı, sabit və firavan bir Cəbəllütariq yaratmaq oldu. Həm də əməkdaşlığın əsas sahələri olan sahələrində sürətlə inkişafa nail olmaq, həmçinin Cəbəllütariq əhalisinin fikirlərini nəzərə almaq təklifi irəli sürüldü. Müqavilənin ortaq və ya bölünmüş suverenlik prinsipinə əsaslanacağı ehtimal edilirdi (iki dövlət başçısı, iki bayraq, bir konstitusiya və s.).

Eyni zamanda, ərazinin maliyyə və vergi sahəsində bütün üstünlükləri qorumalı, Cəbəllütariq əhalisinə, ikili vətəndaşlıq da daxil olmaqla, sərbəst vətəndaşlıq seçimi hüququ verilməli idi. Cəbəllütariq müqaviləsinin hazırlanması ilə mütəxəssislərdən ibarət işçi qruplar məşğul olmalı idi.

Brüssel Prosesi çərçivəsində son nazirlər görüşü 2002-ci il fevralın 4-də Londonda baş tutdu. Elə həmin ilin mart ayında Avropa Şurası iclasın yekun sənədinin mətninə Cəbəllütariqlə bağlı bir bənd daxil edildi: "Avropa Şurası İspaniya və Böyük Britaniyanın 1984-cü ilin noyabrında başlayan Brüssel prosesini bərpa etmək qərarını təsdiqləyir və tərəflərin razılığa gəlməsinə və yay üçün ümumi müqavilələr bağlamağa kömək etməyə hazır olduğunu vurğulayır" [32, s.105].

Danışıqlar prosesində çətinliklər 2002 -ci ilin aprelində başladı, bunu mübahisə edən tərəflərin ifadələri də sübut edir. İngiltərənin xarici işlər naziri Peter Hen "ABC" kanalına verdiyi müsahibədə ölkələrin Cəbəllütariq üzərində suverenliyini açıq şəkildə bölüşəcəyini və mübahisəyə son qoyacağını bildirdi. Yerli əhalinin yekun razılaşmaya münasibəti referendumda aydınlaşmalı idi. Əhali özünü idarəetmədə daha çox hüquqlar qazanmalı, adət və mədəniyyətlərini qoruma imkanı əldə etməli idi. Həmçinin, keçid forması olaraq birgə suverenlik ideyasının İngiltərə üçün qəbuledilməz olduğunu söylədi. Buna cavab olaraq, İspaniya hökumətinin sədri J.M. Aznar "Guardian" qəzeti üçün bir sıra açıqlamalar verdi. Ona görə, Böyük Britaniya ilə birgə suverenlik haqqında müqavilə imzalansa belə, Madrid, Cəbəllütariq əhalisi onların dövlətinə tam birləşdirilməsi iddialarından əl çəkməyəcək. Cəbəllütarilər bunu imzalamağın öz maraqlarına uyğun olduğunu başa düşməlidirlər, yalnız bu yolla İspaniya ilə daha böyük muxtariyyət və daha sərfəli iqtisadi əlaqələr qurula bilər. Bu fürsəti əldən verərlərsə, İspaniya Cəbəllütariqin Aİ müqavilələrindən kənarlaşdırılmağa davam etməsində edəcək. Danışıqlar prosesində bütün bu fərqlərə və çətinliklərə baxmayaraq, xarici işlər nazirləri İspaniyanın Avropa İttifaqına sədrliyi dövründə daha iki işçi görüşü keçirdilər [32, s.106].

2002-ci ilin may ayında Londonda nazirlər danışıqlar zamanı bəzi böyük ziddiyyətlərin olduğunu qəbul etdilər. Onların mətbuat üçün verdikləri birgə bəyanatda deyilir: " Bu gün burada dostcanlı və konstruktiv bir mühitdə inkişaf edən

Cəbəllütariqlə bağlı danışıqları davam etdirmək üçün görüşdük. 2001 -ci ilin iyul ayından bəri çox şey əldə etdik və yaza qədər razılığa gəlmək fikrindəyik. Eyni zamanda, mübahisəli məsələlərin mövcud olduğunu qəbul edirik. İyunun sonunda və ya iyulun əvvəlində Brüssel prosesi çərçivəsində rəsmi bir görüş keçirməyi qərara aldıq" [32, s.106].

Böyük Britaniya xarici işlər naziri Cek Strou iyun ayında İcmalar Palatasının Xarici Əlaqələr Komissiyasında çıxış etdi və razılığa gəlmək üçün bəzi maneələrin olduğunu təkrarladı. Bu maneələr aşağıdakılardır [32, s.107].

1) Böyük Britaniya Cəbəllütariqin yaxın və ya uzaq gələcəkdə İspaniyanın suverenliyinə verilməsi ilə razılaşa bilməz.

2) Tərəflərin əldə etdiyi bütün razılaşmalar Cəbəllütariq əhalisi tərəfindən təsdiqlənməlidir. Bu danışıqlar yalnız Brüssel prosesi çərçivəsində deyil, üçtərəfli əsasda gedən yeni danışıqların mövzusuna çevriləcək birgə prinsiplərin elan edilməsinə səbəb olan ilk addımdır. Yekun nəticələr Cəbəllütariqdə həlledici olacaq ümumi referenduma təqdim ediləcək.

3) İspaniya Britaniya hökumətinin Cəbəllütariqdəki hərbi bazadan heç vaxt imtina etməyəcəyini qəbul etməli olacaq.

Tərəflər 2002 -ci ilin iyulunda Brüssel prosesində nazirlərin növbəti görüşünün vaxtını təyin etdilər, lakin İspaniya hökümətindəki dəyişikliklər (Pike Ana de Palasio ilə əvəz olundu) və sonra Perehil adası üzərində Mərakeşlilərlə yaşanan böhranla əlaqədar olaraq, Cəbəllütariqlə bağlı danışıqlarda fasilə yarandı. İngilis hökuməti, öz növbəsində, tərəflərin prinsipial olaraq güzəştə getməyə hazır olmadığı qırmızı xətlər, problemlər olduğunu bildirdi [32, s.107].

Həmin problemlər 3 qrupa bölünür :

1)Müqavilə statusu. Rəsmi Madrid Londonun birgə suverenlik şərtlər əsasında Cəbəllütariq statusunu müəyyənləşdirmək üçün gələcək razılaşma planlarına qarşı çıxır. İspanlar müqavilənin mətninə gələcəkdə İspaniyanın əraziyə tarixi hüquqlarının bərpası məsələsini qaldırmaq ilə bağlı hər hansı bir bənd daxil etmək istəyirdilər.

2)Referendum məsələsi. İspanlar Londonun gələcəkdə imzalanacaq müqavilənin Cəbəllütariqdə keçiriləcək referenduma çıxarmaq planını

dəstəkləmədilər. Onlar Cəbəllütariqdə keçiriləcək referendum ideyasına da qarşı çıxdılar, çünki bu, “öz müqəddəratını təyinetmə hüququnun” tanınması kimi şərh edilə bilər. Eyni zamanda, ispanlar yalnız səsvermənin müsbət nəticələnəcəyi təqdirdə onun nəticələrini nəzərə almağa hazır olduqlarını açıq şəkildə bildirirlər. Bunun üçün Avropa İttifaqından gələcək müstəmləkə iqtisadiyyatına (bankçılıq, ticarət, xidmətlər, turizm və s.) veriləcək subsidiyalar və investisiyalarla bağlı təkliflə gözləyirdilər. İspaniya hökuməti düşünürdi ki bu addım Cəbəllütariq əhalisində Madridə qarşı tarixən formalaşmış mənfi münasibəti dəyişəcəkdir.

3)Hərbi bazanın statusu. Ispaniya hökuməti Londonun Rota (Kadis) və Moronadakı (Sevilya) ispan-amerika bazalarına birgə sahiblik iddiası rəli sürdü və baza üzərində (müstəmləkə ərazisinin 40% -i) müstəsna nəzarəti saxlamaq cəhdlərinə qarşı çıxdı.

Müqavilənin imzalanma tarixi dəfələrlə təxirə salınmışdı. Yalnız 2002-ci ilin sentyabrında tərəflər Cəbəllütariq problemi ilə bağlı ikitərəfli dialoqu bərpa edə bildilər. İspaniyanın yeni xarici işlər naziri A. Palasio ilə britaniyalı həmkarı C. Strou arasında ikitərəfli görüş keçirildi və bu görüşdə bir çox siyasi və hüquqi çətinliklərin hələ də qaldığı məlum oldu. Tərəflər müqavilənin vaxtı ilə bağlı öhdəliklərini imtina etmək məcburiyyətində qaldılar. [32, s.108].

2002-ci il noyabrın 7-də Cəbəllütariq hakimiyyəti gələcək müqaviləyə münasibətlə bağlı referendum keçirdi. Cəbəllütariq əhalisinin əksəriyyəti (187 səsə qarşı 17900 səs) Böyük Britaniya ilə İspaniyanın birgə suverenlik ideyasını rədd etdi. İspanlar əvvəlcədən elan edildiyi kimi sorğunun nəticələrini nə London, nə də Madrid tərəfindən tanınmadığı üçün bu hadisəni şərh etməməyi seçdilər. Böyük Britaniya hakimiyyəti bununla birlikdə referendumun nəticələrinin gələcəkdə nəzərə alına biləcəyini söylədi.

2003-cü ildə Cəbəllütariq baş naziri Piter Karuana, İngiltərə xarici işlər nazirindən 1969 -cu il Konstitusiya fərmanına Cəbəllütariq əhalisi tərəfindən təklif edilən dəyişikliklərlə əlaqədar danışıqlara başlamağı təklif etdi. 2004-cü ilin may ayında İspaniyanın xarici işlər naziri Miqel Anhel Moratinos (2004-2010) və Cek Strou Londonda bir araya gəldilər və onlar Cəbəllütariq məsələsinə yenidən baxdılar.

2004-cü il avqustun 3-də ingilislər tərəfindən Cəbəllütariqin “hərbi işğalının” başlamasının otuzuncu ildönümü ərəfəsində M.A. Moratinos “Cəbəllütariq: 4 Avqustdan sonra” adlı bir məqalə dərc etdirdi. Məqalədə Böyük Britaniya və Cəbəllütariq səlahiyyətlilərini “bütün fərqlərə və İspaniya-İngilitərə suverenliyi danışıqlarının uğursuzluğuna baxmayaraq, dostluq və əməkdaşlıq mühitində birlikdə çalışmağa” dəvət etdi. Bu təklif ictimaiyyət tərəfindən müsbət qarşılandı və Cəbəllütariq Dialoq Forumunun yenidən başlamasına təkan verdi.

2003-cü ildə “Tireless” sualtı qayığı ilə bağlı hadisəyə bənzər başqa hadisə baş verdi. 1985 -ci ildən bəri ilk dəfə İspaniya Cəbəllütariqlə sərhədi bağladı. Buna səbəb isə, İngiltərədəki “Avrora” kruiz gəmisinin göyərtəsindəki qastroenterit virusu ilə yoluxduğu iddia edilən sərnişinlərlə sərhədə daxil olması idi. İspaniya hökumətinin rəsmi nümayəndəsi, baş nazirin ikinci müavini J. Arenasın açıqlamasına görə, bu qərar, “İngilis səlahiyyətlilərinin bu mövzuda ispanların sağlamlığının qorunması naminə zəruri zəmanətlər verməməsi səbəbi ilə verilmişdir” və qeyd etdi ki, yaxın gələcəkdə Böyük Britaniya bu cür zəmanətlər versə sərhəd yenidən açılacaq. Eyni zamanda, bu tədbirin milli qanunvericiliklə nəzərdə tutulduğu dəfələrlə vurğulanmışdır [32, s.109].

İspaniya əvvəldən xəstələrə tibbi yardım göstərmək Cəbəllütariqə kömək etməyə hazır olduğunu bildirdi. Səhiyyə naziri A. Pastor təcili olaraq Cəbəllütariqlə həmsərhəd olan Kadis şəhərinə getdi, epidemioloji vəziyyəti öyrəndikdən sonra virusun sağlamlıq üçün xüsusi təhlükə yaratmadığını söylədi. Tezliklə gəmi Cəbəllütariqdən ayrıldı və sərhəd açıldı.

. Sərhəd bağlandıqdan dərhal sonra Cəbəllütariq hökumətinin başçısı P. Karuana da rəsmi Madridin mövcud vəziyyətdən Cəbəllütariq sakinlərinə qarşı “siyasi silah” kimi istifadə etmək istəyinə dair məlumat verildi. P. Karuana İspaniyanı hərəkət azadlığı ilə bağlı beynəlxalq hüquq normalarını pozmaqda günahlandırdı, bununla əlaqədar İspaniyaya etirazını bildirmək və sərhədin dərhal açılmasını tələb etmək üçün Böyük Britaniyaya müraciət etdi .Eyni zamanda, Aİ isə Madridin Aİ qaydalarına ciddi əməl etdiyini bildirdi.

Müxalif İspaniya Sosialist İşçi Partiyası (PSWP) bu hadisədən istifadə edərək, Cəbəllütariqlə həmsərhəd bölgələrdə H.M. Ənsarın rəhbərlik etdiyi mühafizəkar Xalq Partiyası hökumətinə qarşı tənqid kampaniyası başlatdı. Müxalif partiyanın əsas qınağı ölkə rəhbərliyi idi, belə ki, rəhbərlik yoluxmuş bir gəminin Cəbəllütariqə girməsinin qarşısını almaq üçün kifayət qədər güclü tədbir görmür, bu da son vaxtlar ərazinin potensial təhlükəli gəmilərin dayandığı limana çevrilməsinə səbəb oldu. Beləliklə, Brüssel prosesinin bərpası xeyli çətinliklərlə üzləşdi [32, s.110].

2004-cü ildə İspaniya Sosialist İşçi Partiyasının (ISPR) lideri Xose Luis Rodriqez Zapateronun İspaniyada hakimiyyətə gəlişindən sonra "Cəbəllütariq Dialoqı" adlı üçtərəfli forum yaradıldı. Rodriges Zapateronun xarici siyasət doktrinasının əsas prinsiplərindən biri, məsələyə cəlb olunmuş bütün tərəflərlə diplomatik dialoqun qurulması idi [ 44, s.65]. Artıq hər il, ildə bir dəfə nazirlər səviyyəsində görüş keçirilməli idi.

Buna görə də, digər təşəbbüslərdən fərqli olaraq, forumda Cəbəllütariq hökuməti tərəflərdən biri olaraq iştirak etdi və əsas diqqət yarımadanın və İspaniyanın həmsərhəd ərazisinin sosial-iqtisadi əməkdaşlığı məsələlərinə yönəldildi. Danışıqlar zamanı bir sıra məsələlərin həlli mümkün oldu. Xüsusən Cəbəllütariqdə keçmiş ispan işçilərinə təqaüdlərin ödənilməsi ilə bağlı yaranmış mübahisələrə son qoyuldu, hava limanının istifadəsi ilə bağlı (tərəflər mövcud hərbi hava limanını üç tərəfin qəbul etdiyi şərtlərlə mülki məqsədlər üçün istifadə etmək qərarına gəldilər); 1908-1909-cu illərdə Böyük Britaniya tərəfindən tikilmiş sərhəd hasarı ilə bağlı məsələlər tənzimləndi, (İspan tərəfi heç vaxt sərhəd hasarını Britaniya ərazisinin sərhədi kimi tanımadı, çünki Utrext müqaviləsinə görə sərhəd şəhər divarları ilə üst - üstə düşməli idi). "Qırmızı" və "yaşıl" dəhlizlər boyunca insanların və malların sərhəddən daha sərbəst keçməsini təmin etmək qərarı tərəflər arasında kompromisin əsasını təşkil edirdi [27, s.162]. 2006-cı il sentyabrın 18-də Forumun ilk nazirlər toplantısı keçirildi. Toplantı çərçivəsində Aİ -nin əsas prinsiplərindən birinə uyğun olaraq, iki qonşu arasında sərbəst hərəkət azadlığı problemini xüsusi olaraq həll edən Kordova Sazişi imzalandı. Eyni zamanda bu sazişlə hava limanının birgə idarə edilməsi, Cəbəllütariqdəki ispan işçilərə təqaüdlərin ödənilməsi,

telekommunikasiyanın yaxşılaşdırılması kimi məsələlərlə bağlı razılıq əldə edildi [24, s.67].

2011-ci ildə Cəbəllütariqdə İspaniya hökumətinin yumşaq güc aləti olan Servantes institutu açıldı, lakin aşağı məhsuldarlıq səbəbindən 2015-ci ildə bağlandı: 2014 -cü ildə institutda yalnız dörd nəfər ispan dili səviyyəsini təsdiqləyən DELE sertifikatını aldı[27, s.163].

Buna baxmayaraq, bəzi ispan siyasətçiləri Cəbəllütariqdəki Servantes İnstitutunun bağlanmasını böyük bir səhv adlandırdılar: San Roke şəhərinin meri, institutda təhsil alan tələbələrin 65% -nin 4-17 yaş arası uşaqlar olduğunu bildirdi. Bələdiyyə sədrinin sözlərinə görə, "risk qrupu" əsasən yeni nəsli əhatə edir: çünki gənclərin çoxu ispan dilini bilmir və ispan mədəniyyətinə qoşulmaq imkanları yoxdur.

Beləliklə, Cəbəllütariq problemi ilk dəfə olaraq üç səviyyədə müzakirə olun mağa başladı:

1) ən yüksək səviyyədə, "iki bayraq, üç səs" düsturu ilə Brüssel Bəyannaməsi çərçivəsində suverenlik mövzusunda ikitərəfli danışıqlar: (Cəbəllütariqin mövqeyi nəzərə alınır, lakin səsvermə hüququ yoxdur).

2) orta səviyyədə, "Cəbəllütariq Dialoq" üçtərəfli forumu sərhəd əməkdaşlığı ilə məşğul olur;

3) ən aşağı səviyyədə Cəbəllütariq hökuməti ilə İspaniyanın Kampo de Gibraltar sərhəd bölgəsinin bələdiyyələri arasında qeyri-rəsmi qarşılıqlı əlaqə həyata keçirilir.

Cəbəllütariq müstəqil bir dövlət olmasa da, "Cəbəllütariq üzrə Dialoq" üçtərəfli forumunun keçirilməsi o məna kəsb edirdi ki, İspaniya ilə Böyük Britaniya arasında hər hansı bir müqavilənin bağlanacağı təqdirdə Cəbəllütariq hökumətinin təsdiqi olmalıdır. [27, s.163].

2011-ci ildə İspaniyada Xalq Partiyası (PP) və onun lideri Mariano Rajoyun hakimiyyətə gəlişi ilə Cəbəllütariqlə bağlı siyasət dəyişdi. Həmin ilin noyabr ayında ingilis-ispan əlaqələri müsbət şəkildə inkişaf etməyə başladıı. Rahoy ilk xarici səfərlərindən birini 2012-ci ilin fevral ayında Londona etdi; İngiltərənin baş naziri

David Kameron 2013-cü ilin aprelində Madridi ziyarət etdi, lakin Cəbəllütariqin ərazi sularında yaşanan gərginlik səbəbindən münasibətlər tezliklə yenidən gərginləşdi. Rodriqes Zapatero doktrinası və onun "yumşaq güc" siyasəti olduqca sərt mövqe ilə əvəz olundu. İspan tərəfi, Böyük Britaniya hökumətinə ərazinin suverenliyi mövzusunda ikitərəfli danışıqlara qayıtmağı və Kampo de Qibraltar səlahiyyətlilərini iştiraka dəvət edərək "Cəbəllütariq üzrə Dialoq" üçtərəfli forumunun dörd tərəfli bir foruma çevrilməsini təklif etdi. İngiltərə bu təklifi rədd etdi [27, s.164].

İspaniya Xarici İşlər Nazirliyi Cəbəllütariqin strateji əhəmiyyətini anlayır və Böyük Britaniya ilə danışıqlarda israr edərək, ərazini Birləşmiş Krallıq tərəfindən qanunsuz olaraq işğal edilmiş müstəmləkə adlandırırdı. Aydın olmayan statusu olan belə bir ərazinin olması, İspaniya hökumətinə görə, İspaniyanın milli birliyini və ərazi bütövlüyünü pozur [27, s.165].

## 2.3. "Brexit" və Cəbəllütariq problemi

"Brexit" = Br (Britaniya)+ exit (çıxış), Britaniyanın Avropa İttifaqından çıxması ilə bağlı prosedur deməkdir. Analoji olaraq, "Grexit" termini 2012-ci il fevralın 6-da Yunanıstanın Avrozonadan çıxma planları ilə bağlı idi. Müəllifi Piter Uildinq olan termin 2016-cı ilin dekabrında Oksord lüğətinə daxil edilmişdir. 1960 - cı illərdə Britaniya imperiyasının süqutundan sonra ilə İngiltərənin xarici siyasətində üçün xüsusi əhəmiyyət qazandı. AİB -ə və daha sonra Aİ-na üzv olmaq, İngiltərə üçün alternativ olmadığı təqdirdə zəruri tədbir idi. Böyük Britaniya inteqrasiya qrupunda möhkəm bir mövqe qazandı, lakin xüsusi şərtlər tələb edərək "əlverişsiz tərəfdaş" oldu. Ölkədə "Avropa məsələsi" ətrafında partiyalararası kəskin mübarizə gedirdi. Avroskeptiklər, ölkənin milli suverenliyini və milli kimliyini itirməsindən narahat idi, AB -nin sosial modelindən narazı idi. Avrooptimistlər isə özünü qitədən təcrid etməyi ölkə üçün ölümcül hesab edirdilər. Təkcə iqtisadi əməkdaşlığın deyil, həm də siyasi inteqrasiyanın dərinləşməsi, 2008-2009-cu illərdəki iqtisadi böhran və miqrasiya böhranı şəraitində İngiltərədə avroskeptizmin artmasına səbəb oldu. Bunun

fonunda baş nazir D. Kameron İngiltərənin Aİ-yə üzvlüyü ilə bağlı referendum keçirmək məcburiyyətində qaldı. Bu referendumun nəticələri cəmiyyətdə fikir ayrılığının olduğunu göstərdi: britaniyalıların yarısından çoxu ölkənin Aİ-dan çıxması üçün səs verdi [22, s.98] . Bəs ümumiyyətlə Brexit necə və nə üçün başladı?

1951-ci ildə Fransa, İtaliya, Qərbi Almaniya, Belçika, Niderland, Lüksemburq Paris müqaviləsini imzalayaraq,Avropa Kömür və Polad Cəmiyyətini təsis etdilər. 1955-ci il Messina konfransı bu cəmiyyətin uğurunu daha da dərinləşdirdi və 1957-ci il Roma Müqaviləsinin imzalanmasını təşviq etdi. Roma müqaviləsi ilə Avropa İqtisadi Birliyi (AİB) və Avropa Atom Enerji Birliyi (Avratom) yaradıldı. Sonralar, 1967-ci ildə bunlar Cəmiyyətlər olaraq adlandırılmağa başladı. Böyük Britaniya 1963 və 1967-ci illər iki dəfə AİB-ə qoşulmağa cəhd etdi, lakin hər iki cəhd Fransa prezidenti Şarl de Qoll tərəfindən "İngiltərə iqtisadiyyatının, xüsusən kənd təsərrüfatının Avropa ilə uyğunsuzluğu" səbəbindən veto ilə qarşılanmış və nəticədə uğursuz olmuşdu [43, s.15]. O dövrdə Fransaya rəhbərlik edən Şarl de Qoll, ingilis iqtisadi sisteminin bir çox cəhətdən Avropa sisteminə uyğun gəlmədiyinə inanırdı və İngiltərənin AİB daxilində ABŞ -ın təsirinə məruz qalacağından narahatlıq keçiridi [ 34]. 1969-cu ildə Şarl de Qollun istefasından sonra Britaniya üçüncü dəfə AİB -ə daxil olmaq üçün müraciət edir və nəticədə 1973-cü il yanvarın 1-dən etibarən (Danimarka və İrlandiya ilə birlikdə) üzv dövlətə çevrilir, lakin birliyə üzv olmaq sevinci uzun sürmədi. Bu proses Mühafizəkarlar hökuməti tərəfindən idarə olunurdu və qiymətlərin yüksəlməsinə və yaşayış xərclərinin və istehsal xərclərinin ümumi artımına səbəb olan bir sıra iqtisadi və maliyyə islahatları keçirildi. Həmçinin sıx iqtisadi qarşılıqlı əlaqə şəraitində siyasi və hüquqi sistemə müdaxilə də ingilisləri narahat edirdi.

1974-cü ildə hakimiyyətə leyboristlər gəldi və onlar seçicilərə AİB -ə üzvlük şərtlərinə yenidən baxacaqlarını və təşkilata üzvlüyü saxlamaqla bağlı referendum keçirəcəklərini vəd etdilər. 1975-ci il iyununda keçirilən referendumda iştirakçıların 67 faizindən çoxu ölkənin AİB -də qalması üçün səs verdi. Referendumun nəticələrinə görə iqtisadi birliyi tərk etmək məsələsi uzun müddət təxirə salındı. Məsələnin yenidən aktuallaşmasına səbəb 1992-ci ildə Maastrix müqaviləsinin

imzalanması oldu. AİB əsasında Avropa İttifaqı yaradıldı ki, bu qurum artıq sadəcə iqtisadi deyil, həm də siyasi inteqrasiyanı özündə ehtiva edirdi.

Bu hadisələr fonunda Böyük Britaniyada avroskeptiklərin mövqeləri yenidən gücləndi. Böyük Britaniyanın Aİ-dən çıxmasını tələb edən Birləşmiş Krallığın Müstəqillik Partiyası yaradıldı. Brüsseldən narazılıq həm insanlar arasında, həm də siyasi və iqtisadi müstəqilliyi qorumağa çalışan güc dairələrində artdı. Böyük Britaniya Şengen müqaviləsinə qoşulmaq istəmədilər və vahid Avropa valyutasından imtina etdilər. Son otuz il ərzində davam edən Avropanın siyasi inteqrasiyası ingilislər arasında narazılığın daha da artmasına səbəb oldu. Buna səbəb olan əsas amillər aşağıdakılardır:

Birincisi, miqrasiya siyasəti. Böyük Britaniya, Avropanın "açıq sərhədlər" siyasətinin əsas qurbanlarından birinə çevrildi, çünki bir çox miqrant bundan istifadə edərək Aİ ölkələrinə daxil olurdu. Həmçinin 2004-2007-ci illərdə Aİ-yə daxil olan Şərqi Avropa ölkələrindən "Dumanlı Albiona" adlı miqrant axını baş verdi. Ölkənin sosial infrastrukturu və büdcəsi belə yükə çətinliklə tab gətirə bilirdi.

İkincisi, Avropa bürokratiyası. Saysız -hesabsız qanun və qaydalar biznesin inkişafına maneə olur və ən vacib qərarların qəbul edilməsi Aİ daxilində bütün üzvlərlə uzun müddət koordinasiya edilməsini tələb edirdi.

Üçüncüsü, Aİ üzv dövlətlərinin birliyin büdcəsinə verdiyi gəlirlər bərabər deyildir. İllər keçdikcə İngiltərə, Avropa Birliyinin ən inkişaf etmiş ölkələrindən biri olsa da, yüksək maddi gəlir əldə etmirdi. İngiltərə ümumi Avropa xəzinəsindən fayda əldə etməsə də, Aİ-ə böyük töhfələr verirdi - əslində daxil olan məbləğə görə İngiltərə Almaniya, Fransa və İtaliyadan sonra dördüncü yerdə idi.

Dördüncüsü, Böyük Britaniya zəngin ənənələrə malikdir və bu ənənələr siyasətin ayrılmaz hissəsinə çevrilmişdir. İngilislər siyasi birləşmə perspektivindən narazı idilər - taleyüklü siyasi qərarların qəbulunu Aİ rəhbərliyinə həvalə etməyə hazır deyildilər.

Beşincisi, hələ iyirmi-otuz il əvvəl cəlbedici və perspektivli görünən ümumi bazar məsələsi artıq İngiltərə üçün o qədər də maraqlı deyildi. SSRİ -nin dağılmasından və soyuq müharibənin bitməsindən sonra əvvəllər Qərb ölkələri üçün

əlçatmaz olan yeni satış bazarları meydana çıxdı. Hal–hazırda isə Böyük Britaniyanın əsas ticarət ortağı Aİ olaraq qalmaqdadır.

Altıncısı, Aİ-yə qoşulan ölkələrdəki məhkəmələr Avropa İttiaqı qanunvericiliyi əsasında qərar qəbul edir, Britaniyanın əksər əyalətlərinin hüquq sistemləri isə əsasən ingilis qanunlarına əsaslanır [34] .

"Brexit" 2016-cı il iyulun 23-də keçirilən seçkilərdə seçicilərin 51,9%-nin Britaniyanın Aİ-dən ayrılması leyhinə səs verməsi ilə reallaşdı.

2017-ci il martın 29-da Böyük Britaniya Aİ haqqında müqavilənin 50-ci maddəsinə uyğun olaraq, "Brexit" prosedurunu başlatdı. İlk olaraq Böyük Britaniyanın Aİ-ni iki il sonra, yəni, 2019-cu il martın 29-da tərk edəcəyi planlaşdırılmışdı. lakin həm parlamentdə aparıcı partiyalar arasında kəskin ixtilaflar, həm də Britaniya hökümətinin daxilindəki ziddiyyətlər səbəbindən bu tarix dəfələrlə dəyişdirilmişdir.

1973-cü ildən etibarən AİB üzvü olan Böyük Britaniya, 2020-ci il 31 yanvardan 1 fevrala keçən gecə ittifaqı tərk etdi. Aİ ilə razılığa əsasən 2020-ci il yanvarın 30-dan etibarən Britaniya Aİ hakim dairələrində üzvlüyünü və səsvermə hüququnu itirdi. Buna baxmayaraq, 2020-ci ilin sonunadək vahid iqtisadi birliyin bir hissəsi olaraq qaldı.

Çoxsaylı insidentlərə baxmayaraq, "Brexitdən" əvvəl Cəbəllütariq mübahisəsi sabit xarakter daşıyırdı. İspanlar yarımadanı geri qaytarmaq şanslarının az olduğunu yaxşı bilirdilər, ancaq Aİ -nin diqqətini bu problemə çəkməyə çalışırdılar. İngilislər Avropa İttifaqına müraciət etsələr də, Aİ bu mübahisədən uzaq durmağı üstün tuturdu [43, s.16].

Cəbəllütariq Aİ-nin Fəaliyyəti haqqında Müqavilənin 355-ci maddəsinin 3-cü bəndinə görə Aİ-nin bir hissəsidir. Cəbəllütariq ilə Aİ arasındakı əlaqələr iqtisadi əməkdaşlıq vasitəsi ilə inkişaf etmişdir. İngiltərə və Aİ -nin bir hissəsi olduğu üçün Cəbəllütariq də "Brexit" referendumuna qoşuldu. Bu referendum İngiltərə ilə Aİ arasında danışıqlar prosesinə səbəb oldu. Cəbəllütariq əhalisi 2002-ci ildə keçirilən referendumda İngiltərə və İspaniyanın birgə suverenliyi haqqında təklifi rədd etdi. Əhalinin 96 %-i ilə AI -də qalmağa səs verdi [ 2, s.67] .

Aİ referendumuna görə, İngilislərin 53,4%-i və Uelslilərin 52,5%-i Aİ-dən çıxmağın lehinə, Şimali İrlandiya əhalisinin 55,8%-i, şotlandların 62%-i və cəbəllütariqlilərin 95,9%-i Aİ-də qalmağın lehinə səs verib. Referendum, Cəbəllütariq də daxil olmaqla, İngiltərənin xaricdəki vətəndaşlarını da qane etmədi. Şotlandiya, Şimali İrlandiya və Cəbəllütariq Aİ-də qalmağa səs verdi [ 2, s.66] .

Cəbəllütariq əhalisinin verdiyi qərar məntiqlidir, çünki Cəbəllütariq Aİ ilə ticarətdən təhlükəsizliyə qədər çoxsahəli əlaqələr qurmuşdur. Yarımada Aİ ilə ikitərəfli əlaqələri qoruyub saxlamaq istəyir. Referendumun Cəbəllütariq iqtisadiyyatına təsiri var. Aİ-nin Xarici Ölkələrlə Assosasiya Qanununa (OAD-Overseas Association Decision) əsasən, Cəbəllütariqin mal və xidmətləri Aİ məkanına ödənişsiz daxil olur, lakin "Brexit" referendumundan sonra Cəbəllütariq vahid bazara sərbəst qoşulmanı itirə bilər. Cəbəllütariq vahid bazara onlayn oyun sənayesi, investisiya xidmətləri, sığorta və bankçılıq kimi xidmətlər təklif edir Cəbəllütariq Avropa Regional İnkişaf Fondu (ERDF-European Regional Development Fund) və Avropa Sosial Fondundan (ESF-European Social Fund) vəsait alır. Bu vəsaitlər Cəbəllütariq iqtisadiyyatı üçün əhəmiyyətlidir. Bu fondların dəstəyi ilə 4.000 işçi Cəbəllütariqdə iş tapa bildi. Yarımadanın Aİ -dən faydalandığı başqa bir sahə-təhlükəsizlikdir. Cəbəllütariq Aİ-nın ədalət və daxili işlər qanunlarını və direktivlərini tətbiq etmişdir. Bu qaydaların tətbiqi Cəbəllütariq üçün İspaniya ilə məhkəmə işlərində əməkdaşlığın təhlükəsizliyini təmin etmişdir. Bu səbəbdən "Brexit" referendumundan sonrakı vəziyyət Cəbəllütariqin iqtisadiyyatı və təhlükəsizliyinə birbaşa təsir göstərmişdir [ 2, s.66] .

2016-cı ildə İngiltərənin Aİ -dən çıxması ilə bağlı referendumdan və 2017-ci ilin martında "Brexitin" rəsmi olaraq başlamasından sonra münaqişə yenidən inkişaf etdi. İlk olaraq Cəbəllütariq məsələsi İngiltərənin Aİ-dən çıxması ilə bağlı danışıqlara dair rəsmi direktivlərə daxil edilmədi və bu məsələnin ikinci mərhələdə həll olunması nəzərdə tutulmuşdu. Bununla birlikdə, Madrid Cəbəllütariq mövzusunu "vahid Avropa" dan çıxması ilə əlaqədar Londonla danışıqlar planına daxil etmək üçün Brüsselə lobbiçilik edə bildi. Həmçinin, İspaniya bu mövzuda qərar verilərkən Avropa İttiaqından veto hüququ qazandı [15].

Ümumiyyətlə, “Brexitdən” danışarkən, Aİ haqqında Müqavilənin 50-ci maddəsini qeyd etməmək olmaz. Məhz bu maddəyə əsasən üzv dövlətlərin Aİ -dən çıxmaq hüququ var. Maddəyə uyğun olaraq, tərəflərin danışıqlar üçün iki illik müddəti var. Əgər danışıqlar nəticəsində müqavilə imzalamaq mümkün deyilsə, dövlət heç bir qazancsız ayrılır. Bu ümumqəbul olunmuş və təsdiq edilmiş prosesdır. Burada məqsəd birlikdən ayrılan dövlətə danışıqlar zamanı daha zəif mövqe tutmaqdır, çünki ticarət müqaviləsinin olmaması səbəbindən ayrı-ayrı dövlətlərin xərcləri daha artıqdır, nəinki Aİ üzvü dövlətlər üçün. İngiltərə 2017-ci il matın 29-da 50 -ci maddəni tətbiq etdi və bununla da, Aİ -dən çıxma prosesinə başlamış oldu [43, s.16].

Britaniyanın “Brexitlə” bağlı rəsmi məktubunda Cəbəllütariqlə bağlı heç bir müddəa yox idi. Baxmayaraq ki, Fabian Pikardo (2011-ci ildə etibarən Cəbəllütariqin baş naziri) Cəbəllütariq məsələsinin də bu məktubda qeyd olunmasını tələb edirdi. “Brexit” Departamenti, bu tələbi belə demək olarsa, gözardı etmişdi, lakin ispanların fəal lobbiçiliyi sayəsində, Cəbəllütariq məsələsinin ümumi paket daxilində deyil, ayrıca bir məsələ olaraq müzakirəsi qərarı qəbul edildi. İspan mediası bunu “Brexit”in İspaniyanın Cəbəllütariqdəki hüquqlarını müdafiə etməsinə imkan verəcəyinə inanan baş nazir M.Rahoyun ikiqat qələbəsi kimi şərh etdi.

Bu “poker oyunu” Fabian Pikardonun qəzəbinə səbəb oldu: İngilis televiziyasına verdiyi müsahibədə Pikardo Londonun hərəkətlərindən narazılığını gizlətmədi və T.Mey ilə telefon danışığında onu Cəbəllütariqin mövqeyi ilə bağlı məsələlərdə etinasızlığı və məsləhətləşmələrin yoxluğuna görə iradını bildirdi. Münaqişə yalnız Xarici İşlər İdarəsinin rəhbəri B. Johnsonun verdiyi təminatlardan sonra və Dauninq-Stritin hökumətin heç vaxt sakinlərinin iradəsinə zidd olaraq Cəbəllütariqlə bağlı müqavilə bağlamayacağı ilə əlaqədar bəyanatlarından sonra həll edildi.

Bu diplomatik hadisəyə əlavə olaraq, keçmiş lider Tori M.Hovard Sky News -a verdiyi müsahibədə, İngiltərənin 1982-ci ildə Folklend adası ilə bağlı etdiyi kimi Cəbəllütariq üçün də döyüşməyə hazır olduğunu irəli sürərək məsələləri daha da çətinləşdirdi. Onun açıqlamasını ordu, xüsusən də təqaüdçü admiral K. Perri

dəstəklədi və ingilis donanmasının ispan donanmasından üç qat güclü olduğunu vurğuladı. Etirazlar lar ancaq T.Meyin Böyük Britaniyanın döyüşməyi deyil, Brüsseldə olduğu kimi, danışıqlar aparmağı üstün tutduğunu bildirdikdən sonra sakitləşdi. Həmçinin, Cəbəllütariq sakinlərinin razılığı olmadan heç bir danışıqlar aparılmayacağını təkrarladı [24, s.69].

Aİ-nin Cəbəllütariqlə gələcək əlaqələrinə təsir edən hər hansı bir qərarda, habelə İngiltərənin Aİ-dən ayrılmasına dair sazişdə İspaniyaya veto hüququnun verilməsi (halbuki Lissabon müqaviləsinin 50-ci maddəsinə görə bunun üçün yalnız üzv dövlətlərin əksəriyyəti bu qərarı verməlidir), London tərəfindən Kordova Sazişindən çıxmaq kimi qiymətləndirildi. Aİ-nin hazırkı mövqeyi Cəbəllütariq problemlərinin ikitərəfli əsasda-İngiltərə ilə İspaniya arasında həll edilməsi deməkdir. İki mübahisəli sərhəd məsələsinin - Şimali İrlandiya və İrlandiya Respublikası, və Cəbəllütariq və İspaniyanın müqayisəsi Aİ-nin ikili standartlarını ortaya qoyur: İrlandiya sərhədi boyunca sərbəst hərəkət tələbi (və sərbəst sərhəd keçidinin olmamasına baxmayaraq, 1998-ci il "Müqəddəs Cümə" Sazişinə riayət etmək) , eyni zamanda Cəbəllütariqlə sərhəddə Madrid tərəfdən məhdudiyyətlər qoymağa imkan verir və bununla da Kordova Anlaşmasını ləğv edir [24, s.70].

İspaniya, Böyük Britaniya və Aİ arasında uzun danışıqlara son qoyan 2018-ci ilin noyabrında keçirilən Aİ zirvə görüşü baş tutdu. Bütün bu proseslər fonunda ingilis tərəfdən nazirlərin  çıxışları, habelə İngiltərənin Aİ-dən çıxması haqqında sazişin imzalanmasını poza biləcək, İrlandiya arasındakı sərhəd probleminin həlli variantı ilə bağlı danışıqlar aparan qrupda mübahisələr müşahidə olunurdu. Cəbəllütariq Protokolu və İngiltərənin ərazi üzərində suverenliyini tanıyan 184-cü maddə də daxil olmaqla razılaşmanın son mətni, Madridin demarşına görə son dəqiqəyə qədər hazır deyildi. Nəticədə, Aİ müxalifət partiyaları - Xalq Partiyası və Vətəndaşlar-Vətəndaşlıq Partiyası tərəfindən dəstəklənən İspaniyanın yeni baş naziri, sosialist lideri P. Sançesin tələbini yerinə yetirmək məcburiyyətində qaldı. İngiltərə tərəfi öz növbəsində Cəbəllütariq məsələsinin Avropa İttifaqı ilə ticarət müqaviləsinə daxil edilməyəcəyini, ancaq ayrıca bir razılaşmaya tabe olacağını qəbul etdi.

Sammitin sonunda, 184-cü maddə də daxil olmaqla, İngiltərənin Aİ -dən çıxmasının şərtləri haqqında müqavilə layihəsi təsdiq edildi.

Sançes, London ilə mübahisəli mövzuda əldə edilən razılaşmanı Cəbəllütariq üzərində "birgə suverenlik" mövzusunda ikitərəfli danışıqların başlanğıcı kimi qiymətləndirdi. Xüsusilə, Avropa Komissiyası və Avropa Şurasının dəstəyi sayəsində İspaniya mövqeyinin gücləndiyini qeyd etdi [24, s.70].

2018-ci il noyabrın 28-29-u tarixində İspaniya və İngiltərə dörd memorandum imzaladılar. Bu memorandumlar 2020-ci il fevralın 1-də (Birləşmiş Krallığın Aİ-dən rəsmi olaraq çıxış tarixi) qüvvəyə minmiş və 31 dekabr 2020-ci ilədək (keçid dövrünədək) qüvvədə olmuşdur. Memorandumlardan ən əhəmiyyətlisi - vətəndaşların hüquqları ilə bağlı Cəbəllütariq və İspaniya vətəndaşlarının hüquqlarının qorunmasını və Aİ qanunvericiliyinə uyğun olaraq, müdafiəsini təmin edir. Cəbəllütariq və İspaniyanın sərhəd bölgəsi Kampo de Gibraltarda bunlara riayət olunması üçün Cəbəllütariq hökumətinin altı nümayəndəsindən ibarət Ortaq Əlaqələndirmə (Koordinasiya) Komitəsi fəaliyyət göstərəcək. Komitə üzvlərindən, biri London, dördü Madrid, ikisi Əndəlus Muxtar Cəmiyyətinin hökuməti və biri bölgənin yerli rəhbərliyindən ibarətdir. 2020-ci il fevral;n 26-27-də Əndəlüsdə komitənin ilk iclası keçirildi (daha sonra koronavirus pandemiyası səbəbindən işi dayandırıldı).

Tütün qiymətlərinin tənzimlənməsinə dair anlaşma memorandumuna əsasən, Cəbəllütariq hökuməti, memorandumun imzalanması zamanı İspaniya ilə müqayisədə 25% ilə 48% arasında dəyişən İspaniya ilə qiymət fərqini, tədricən 32%-ə qədər azaltmağı öz üzərinə götürmüşdür. Tərəflər tütün qaçaqmalçılığı, mütəşəkkil cinayətkarlıq, ekoloji problemlər ilə mübarizədə polis və sərhəd xidmətlərinin qarşılıqlı əlaqəsi əməkdaşlıq edəcəklərinə söz veriblər. 2020 -ci ilin yanvar ayında Cəbəllütariq vasitəsilə Mərakeşdən İspaniyaya miqrant qaçaqmalçılığı edən cinayətkar qrupa qarşı uğurlu birgə əməliyyat həyata keçirildi.

Artıq memorandumların imzalanmasından sonra, "ayrılma" müqaviləsinin təsdiq edilməsi ilə əlaqədar aşılmaz çətinliklər şəraitində (İngiltərə hökuməti və parlamentinin müxalifət mövqeyi səbəbi ilə çıxılmaz vəziyyətə düşməsi) F. Pikardo T.Meyə Lissabon müqaviləsinin 50-ci maddəsini geri çəkməyi təklif etdi. B. Conson

dövründə, məsələ ətrafında vəziyyət daha da gərginləşdi və ərazinin gələcəyi ilə bağlı müfəssəl izahın olmaması Cəbəllütariq əhalisini mövcud hökuməti dəstəkləməyə məcbur etdi: 2019-cu ilin oktyabr ayında Cəbəllütariqdə keçirilən seçkilərdə Pikardonun başçılıq etdiyi liberallar 52.5 % səs qazanaraq, yenidən qalib gəldilər [8].

Mühafizəkarlar 2019 -cu ilin sonunda növbədənkənar parlament seçkilərində qalib gəldilər. Belə şəraitdə "Brexit" in Cəbəllütariq iqtisadiyyatına ciddi zərbə vuracağı bildirildi. Bu, İngiltərə hökumətinin bir elementi mediaya sızan "Yellow Hammer Document" (Sarı Çəkic Sənədi- ölkəni Aİ-dən çıxarmaq üçün hazırlanmış hökümət proqramı) adlı sənəddə təsdiqləndi. Sənəddə, Cəbəllütariqlə İspaniya arasında razılaşma olmadan "Brexit"-in gətirəcəyi mənfi nəticələr vurğulandı, xüsusən, sərhəd nəzarətinin tətbiqi, qida, dərman çatışmazlığı və tullantıların yığılması problemi, (tullantılar təkrar emal üçün İspaniyaya ixrac olunur). Eyni zamanda, nikbin bəyanatlar da vardı, belə ki, Cəbəllütariq səlahiyyətliləri özləri su və elektrik istehsal edir. Sakinlər daha əvvəllər də blokada şəraitinə öyrəşiblər və hazırda da mühasirəyə hazırdırlar [24, s.71].

Cəbəllütariqin xüsusi statusu Böyük Britaniyanın Aİ -dən çıxmasına dair razılaşmanın Protokolunda əks olunur (Brexit danışıqları, 2019). Bununla birlikdə, "Brexit" -dən sonra qüvvədə olan qanun və qaydaları təfərrüatı ilə izah edən, Şimali İrlandiyaya aid oxşar protokoldan fərqli olaraq, Cəbəllütariq ilə bağlı protokolda yalnız insanların və malların sərhəddən sərbəst keçməsinin, ətraf mühit məsələlərində, polis və vergi xidmətləri arasında əməkdaşlığın və Cəbəllütariqin gələcəyi ilə bağlı əsas problemləri müzakirə etmək üçün birgə koordinasiya komitələrinin yaradılmasının faydaları vurğulanaraq, ümumi şəkildə yazılmışdır. Bundan əlavə, Şimali İrlandiya üçün protokol keçid dövrünün bitməsindən sonra tətilə ediliir. Cəbəllütariq üçün isə əksinə,keçid dövrünün sonuna qədər olan müddət üçün nəzərdə tutulmuşdur və bu da ərazinin İspaniya ilə münasibətlərinin gələcəyini hələ də qeyri-müəyyən edir. Bu dövrdən etibarən yalnız "İspan mirası" uğrunda müharibə zamanı İngiltərənin birləşdirdiyi bölgənin birgə idarəçiliyi müzakirə edilə bilər [24, s.72].

Danışıqlarda Cəbəllütariq iştirak etmədi, çünki İngiltərə ilə Avropa Ittifaqının qalan 27 ölkəsi arasındakı danışıqlarda birbaşa söz sahibi deyildir. Cəbəllütariqdə xarici işlər ilə məşğul olmaq vəzifəsi və məsuliyyəti, həmçinin, müdafiə və daxili təhlükəsizlik vəzifələri İngiltərənin üzərinə düşür. Avropa İttifaqından çıxma Departamenti üzrə dövlət katibinin müavini, millət vəkili Robin Uolker 2017-ci ilin mart ayında Cəbəllütariq baş naziri Fabian Pikardo və onun müavini Josef Qarsia ilə “Brexit” məsələsini müzakirə etmək üçün Cəbəllütariqə səfər etdi. Yaxınlaşan “Brexit” danışıqları ilə əlaqədar Lordlar Palatası "Brexit: Cəbəllütariq" adlı bir hesabat hazırladı [7].

Avropa Şurası, Aİ-dən çıxmaq üçün danışıqlara dair bir sıra təlimatlar hazırlandı. Təlimatın prinsipləri arasında 22-ci prinsip xüsusilə əhəmiyyətlidir. Belə ki, bu prinsipdə "Birləşmiş Krallıq Birliyi tərk etdikdən sonra İspaniya Krallığı ilə İngiltərə arasında razılaşma olmadan Aİ ilə Birləşmiş Krallıq arasındakı heç bir müqavilə Cəbəllütariq ərazisinə şamil oluna bilməz" ifadəsi yer alır. “Brexitin” mühafizəkar tərəfdarı olan M.P. Jack Lopresti, Aİ -nin Cəbəllütariq xalqının iradəsinə məhəl qoymadan, İspaniyanın Britaniyanın suveren ərazisinin gələcəyinə veto qoymağa çalışmasının utancverici olduğunu düşünürdü. Xarici işlər naziri Boris Conson İngiltərənin Cəbəllütariqə bağlılığını təkrar etdi.

Avropa Parlamentinin üzvü və Avropa Xalq Partiyasının “Brexit” işçi qrupunun sədri, İspaniyalı Esteban González Pons may ayında İrlandiyanın Avropa işləri üzrə naziri Dara Mörfi ilə görüşdü. Pons Cəbəllütariqi "müstəmləkə" adlandırdı və Cəbəllütariqin statusunun yalnız İngiltərə və İspaniyanın həll edəcəyi ikitərəfli məsələ olduğunu əsas kimi götürmək üçün dəstək istədi. İrlandiya, məsələnin ikitərəfli olduğunu qəbul edir, lakin Şimali İrlandiyanın statusu ilə bağlı paralel qərarın qarşısını almaq istəyir. Mörfi qeyd etmişdir ki, "İrlandiya, “Brexit” dən sonra İngiltərənin Avropa Birliyi ilə gələcək əlaqələrinə dair Cəbəllütariqin Avropa İttifaqı ilə danışıqları əsnasında ortaya çıxacaq əlaqələrinin mahiyyəti ilə əlaqədar məsələləri nəzərdən keçirəcək" [7 ].

2018–ci il oktyabrın 18-də İspaniyanın baş naziri Pedro Sánçes Böyük Britaniyailə razılığa gəldiyini, Cəbəllütariq protokolunun "həll edildiyini" elan etdi.

İspaniya hökumətinin Birləşmiş Krallığın Aİ -dən ayrılmasına heç bir etiraz etməyəcəyini, Cəbəllütariqin hazırda Aİ daxilində olan Britaniyanın dənizkənarı ərazilərindən biri kimi tanıdığını bildirdi. Həmçinin, İspaniyanın Cəbəllütariqin suverenliyi ilə bağlı olduğu və ya ola biləcəyi hər hansı mübahisə Britaniya ilə Aİ arasında gələcək ticarət sazişinə təsir etməyəcək.

2018-ci ilin noyabrın 22-də Pedro Sánçes İspaniyanın Cəbəllütariqlə bağlı narahatlığının həll edilmədiyi təqdirdə, İspaniyanın "Brexit"-ə veto qoyacağı ilə hədələdi. İki gün sonra, noyabrın 24-ü şənbə günü, Britaniyanın Aİ səfiri Tim Barrou İspaniya rəhbərliyini əmin etdi ki, "Brexit" ətrafında gələcək ticarət sövdələşmələri Cəbəllütariq bazarına aid olmayacaq. [3].

Aİ ilə Cəbəllütariq arasındakı məsələlərə (insanların sərbəst hərəkəti və sərhəd nəzarəti kimi məsələlər) baxacaq xüsusi komitə yaradılacaq. Komitə yalnız İspaniya və Böyük Britaniya nümayəndələrindən ibarət olacaq. 2020-ci il dekabr;n 31-də İspaniyanın xarici işlər naziri Arança Qonzales Laya danışıqların aparılması və müqavilənin bağlanmasının təxminən altı ay çəkəcəyini gözlədiyini, lakin bu vaxt İspaniyanın sərhəddə aktivliyini təmin etmək üçün çalışacağını söyləmişdir" [10].

"Brexit"dən sonrakı keçid dövründə bəzi razılaşmalar tətbiq olunmalı idi. Bununla belə, maraqlı tərəflər arasında keçid dövründən sonrakı sazişlər hələ də müzakirə edilməlidir.

Aıtı aylıq cədvələ əməl edilmədi, lakin Aİ komissiyası 2021-ci il iyulun 20-də danışıqlar üçün mandat təklif etdi. Rəsmi danışıqların davam etməsi üçün Avropa İttifaqı Şurasının bu mandatı qəbul etməsi lazımdır [6]. Oktyabrın 5-də "Politico"(mənzil qərargahı Virciniyada yerləşən siyasi mətbuat şirkəti) şuranın, 2021-ci ilin sonuna qədər yekunlaşması gözlənilən danışıqlar üçün mandatı təsdiqlədiyini bildirmişdir.

2020-ci il dekabrın 31-də İspaniya və Böyük Britaniya Cəbəllütariqin Avropa İttifaqının Şengen zonasına qoşulması ilə bağlı prinsipial razılaşma əldə etdilər. Bu, Avropa İttifaqı və Böyük Britaniyanın məsələ ilə bağlı rəsmi danışıqlara başlaması üçün cığır açmışdır. Təklif olunan sazişin elementləri aşağıdakılardır: [10].

1) Cəbəllütariq (hava limanları) İspaniya məsuliyyəti altında Şengen zonasının giriş nöqtələrinə çevrilir;

2) sərhəd nəzarətini “Frontex’ əməkdaşları həyata keçirməlidir

3) malların məhdudiyyətsiz hərəkəti;

4)ətraf mühit, bərabər şərait, sosial təminat koordinasiyası, vətəndaş hüquqları, məlumat və sənədlərin davamlı tanınması ilə bağlı məsələlər;

5) Aİ səlahiyyətində olan sahələrdə Cəbəllütariq və Avropa İttifaqı arasında əlaqələr

6) Cəbəllütariq öz qərarı ilə yaşayış icazəsi təklif edə bilər;

7) Cəbəllütariqə səfər etmək üçün Şengen vizası və ETIAS vizasından istifadə olacaq;

Tənzimləmələr "dörd illik ilkin dövr" üçün həyata keçirilir; [ 9].

Həm İspaniya, həm də Böyük Britaniya hökuməti əmək və malların hərəkəti, ətraf mühit, vətəndaşların hüquqları, sənədlərin davamlı tanınması və s.məsələlərə dair mandat tələbi ilə Avropa İttifaqının prezidentinə müraciət etmişlər.

Beləliklə, Böyük Britaniyanın Aİ-dən çıxmaq qərarı nəticəsində Cəbəllütariq potensial olaraq əhəmiyyətli iqtisadi nəticələrlə üzləşir. Bu nəticələrin nə dərəcədə həyata keçiriləcəyi həm İngiltərənin Aİ ilə danışıqlarının nəticəsinə, həm də İspaniyanın geri çəkilmə zamanı və sonrakı reaksiyasına bağlıdır. Cəbəllütariqin baş naziri Pikardonun da qeyd etdiyi kimi, Cəbəllütariq və Böyük Britaniya danışıqlarda vahid bir dövlət olaraq nəzərdən keçirilməlidir. Cəbəllütariq Aİ-nin bir hissəsidir və onun çıxması Böyük Britaniya və İspaniya arasında ayrıca, ikitərəfli danışıqlarla həll edilməli deyil, Böyük Britaniya və Aİ-nin birgə işidir [7, s.26].

# NƏTİCƏ

Cəbəllütariqin statusu Böyük Britaniya və İspaniya arasında problemli məsələ olaraq qalır. Yarımada sakinləri İspaniya yurisdiksiyasına qayıtmaq istəmirlər. Cəbəllütariqin İngiltərə üçün dəyəri Folklend adalarından daha üstündür, halbuki qırx il əvvəl Folklend adalarının Argentina tərəfindən ələ keçirilməsi genişmiqyaslı müharibəyə səbəb olmuşdu. London Cəbəllütariqdəki strateji hərbi bazadan imtina etməyə hazır deyil. İngiltərə öz növbəsində tarixi mübahisəni artıq güc yolu ilə həll etməmək üçün rəsmi Madridə xəbərdarlıq edib. Eyni zamanda, Birləşmiş Krallıq yarımada sakinlərinin fikirlərini də nəzərə alır.

Cəbəllütariq problemi, iqtisadi baxımdan Aİ ilə çox sıx bağlı olduğu üçün “Brexit” nəticəsində daha da mürəkkəbləşdi. Eyni zamanda, ərazinin (daha doğrusu, yarımadaya bitişik ərazilərin) suverenliyinin qaytarılması İspaniyanın əsas xarici siyasi prioritetlərindən biridir. Ispaniya “Brexit”i tarixi şans kimi qiymətləndirərək, Madrid əvvəlcə ərazidə müvəqqəti birgə suverenlik qurmağa, sonra isə özünün tam müstəqilliyini qurmağa çalışır. Bu mərhələdə İspaniya Avropa İttifaqının dəstəyini alaraq, Cəbəllütariq məsələsindəki mövqeyini gücləndirməyi bacardı.

Gözlənildiyi kimi, 2020-ci il dekabr ayının sonunda Cəbəllütariq problemi daha da kəskinləşdi. Bu keçid dövrünün bitməsi və İngiltərənin Aİ-dən tam çıxması (1 yanvar 2021-ci il) səbəbindən idi. İngiltərədəki fikir ayrılığı, İngiltərə-Fransa sərhədinin bağlanması, “Brexit” təhlükəsi, həm Cəbəllütariq səlahiyyətlilərini, həm də digər maraqlı tərəfləri narahat edirdi. Yarımada hökuməti, koronavirus təhlükəsinin yarımadaya daxil olmasının qarşısını almaq üçün London ilə əlaqələri də dayandırdı. İngiltərə və Aİ ilə ticarət müqaviləsi bağlamağa nail oldu. Bu müqavilə, yalnız Cəbəllütariqə aid olmadı, çünki onun taleyinin müəyyənləşməsində digər ölkələr də iştirak edirlər. Dekabrın 24-də qəbul edilən bu sənəd aşağıda qeyd olunanları özündə ehtiva edir: İspaniya tərəfindən Frontex ilə birlikdə nəzarət olunan Şengen sazişini Cəbəllütariqə aid edərək, insanların dəniz və havada sərbəst hərəkət etməsi və malların daşınması ilə bağlı status-kvonu qorumaq. İngiltərə ilə Aİ arasında Cəbəllütariqlə bağlı yeni saziş altı ay ərzində hazırlanmalı idi.

İngiltərənin Avropa Birliyindən çıxması ilə əlaqədar Cəbəllütariqin həssas mövqeyini, sakinlərinin vətəndaşlığını qorumaq, eyni zamanda AI -də qalmaq istəyini nəzərə alaraq, gələcək üçün aşağıdakı variantlar təklif edilə bilər:

1)Cəbəllütariqin muxtariyyət statusunu, Britaniya vətəndaşlığının qorunmasını, "Brexitdən" sonra Madridin xarici əlaqələrə görə məsuliyyətini nəzərdə tutan müvəqqəti birgə suverenlik. Bu seçim İspaniya tərəfindən 1985, 1998 və 2016-cı illərdə təklif edilmişdir, lakin 2002-ci ildə Cəbəllütariqdə keçirilən referendumda rədd edildi.

2) Elkano Kral İnstitutunun analitikləri Cəbəllütariqə İsveçrə və ya Andorra ərazisindəki iki anklava (dövlət başçıları olan birgə monarxlar) və yaxud, Britaniya variantında - Man, Cersi və Qernsey adalarına (rəsmi olaraq İngiltərəyə aid olan, xarici işlərinə İngiltərənin məsul olduğu muxtar ərazilər) bənzər şəkildə "Aİ ilə əlaqəli ingilis və ispan taclarının şəhəri" statusu verməyi təklif etdilər. [Molina I., 2014]. Bu halda Cəbəllütariq, Aİ-nin bir hissəsi olaraq qalacaq, öz hökumətini saxlayaraq, Avropa Birliyi vətəndaşlığını Britaniya vətəndaşlığına əlavə edəcək. Xarici siyasət, təhlükəsizlik və immiqrasiya məsələləri İspaniya ilə birlikdə tənzimlənsə də, Böyük Britaniya hərbi bazasını saxlamalı olacaq, lakin Cəbəllütariq birgə suverenliyi qəbul etmir. Həmçinin ABŞ da bunu dəstəkləmir, çünki ABŞ yarımadanın mühüm strateji mövqeyindən hərbi məqsədlər üçün fəal şəkildə istifadə edir və bu hal onun maraqlarına uyğun gəlir. Vaşinqtonun nöqteyi-nəzərinə görə Madrid Rusiya ilə çox yaxın əlaqələr saxlayır və rus gəmiləri tez-tez yanacaq doldurmaq üçün qonşu İspaniyanın Seuta limanına müraciət edir.

3) Müxtəlif assossasiya növləri, məsələn, Aİ üzvü bir dövlətlə (İspaniya) və ya hər hansı bir dövlətlə (Böyük Britaniya) birləşməklə Cəbəllütariq üçün xüsusi statusun qorunması. Nümunə üçün, Kuk adaları Yeni Zelandiya ilə, və ya Puerto Riko Amerika Birləşmiş Ştatları ilə əlaqəlidir. Bu status BMT tərəfindən tanınır, lakin bu, bir qayda olaraq, tam suverenlik deyil və ya əlaqəli olduğu dövlətə inteqrasiya yolundakı keçid mərhələsidir.

4) Cəbəllütariqin Birləşmiş Krallığa inteqrasiyası. 1965-ci ildən etibarən Cəbəllütariq lobbiçilik qrupları (xüsusən, "İnteqrasiya Üçün") bu variantın

tərəfdarıdır. Bu seçimin Cəbəllütariq üçün mənfi tərəfi odur ki, xüsusi vergi rejimindən məhrum olur, maliyyə xidmətləri sektoru və ərazinin əldə etdiyi özünüidarə sistemi də zərər çəkəcək. İngiltərə federal dövlət olsa idi, bu halda Cəbəllütariq Kvebekə bənzər bir statusa sahib ola bilərdi.

5) Əndəlüsə qoşulmaqla və ya başqa yollarla yeni muxtar cəmiyyət (mövcud on yeddi ispan əyaləti ilə birlikdə) yaratmaqla, Cəbəllütariqin İspaniyaya inteqrasiyası. Cəbəllütariq Hong Kongdakı kimi, xüsusi bir status saxlaya bilərdi. Madrid üçün bu variant əlverişli görünür.

- Cəbəllütariqin özünüidarəsinin genişlənməsi (Qrenlandiya nümunəsində: hər ikisi Aİ üzv dövlətlərinin asılı əraziləridir, hər ikisinin əhalisi azdır, hər ikisi 1973-cü ildə Avropa İttifaqının bir hissəsi oldu). Bu variant "Qrenlandiyanın əksi" olaraq tanınır, çünki, Cəbəllütariq Aİ-da qalmaq istəyir, Qrenlandiya isə 1982-ci ildə referendum keçirdi və üç il ərzində Birlikdən çıxdı.

- Cəbəllütariqin suveren dövlətə çevrilməsi, xüsusi ilə də nəzərə alınsa ki, Cəbəllütariq öz konstitusiyasına (2006 -cı ildən) və sabit bir hökumətə sahibdir, onda bu seçim beynəlxalq hüququn iki vacib prinsipi - millətlərin öz müqəddəratını təyin etmə hüququ və suveren dövlətlərin ərazi bütövlüyü hüququ arasındakı ziddiyyətlə çətinləşir, lakin bu dövlət çətin ki beynəlxalq səviyyədə tanınsın və beləliklə, onun Aİ -yə daxil olması mümkün olmayacaq.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### *İngilis dilində*


1. Article X of The Treaty of Utrecht 1713 (English translation) https://www.gibnet.com/texts/utrecht.htm.

2. Atilla A. “The Dispute Between Two Major European Powers Over Gibraltar’s Sovereignty”, Turkish- German Universty Institute Of Social Sciences European And International Affairs Master programme, İstanbul, 2018, 75 p.

3. Boffey D., Jones S., “Brexit: May gives way over Gibraltar after Spain’s veto threat”, Guardian, 2018, https://www.theguardian.com/politics/2018/nov/24/brexit-may-gives-way-over-gibraltar-after-spains-veto-threat

4. Brexit negotiations: Gibraltar Memoranda of Understanding. Policy Paper, 2018, https://www.gov.uk/government/publications/eu-exit-negotiations-gibraltar-memoranda-of-understanding.

5. Coffey L. “As Brexit looms, troubled seas around gibraltar should have washington’s attention”, War on the rocks.com, 2016, https://warontherocks.com/2016/08/as-brexit-looms-troubled-seas-around-gibraltar-should-have-washingtons-attention/.

6. EU Commission, “EU-UK relations: Commission proposes draft mandate for negotiations on Gibraltar” , 20 July 2021, https://ec.europa.eu/commission/presscorner/detail/en/ip_21_3747

7. European Union Committee, “Brexit: Gibraltar”, House Of Lords 13th Report of Session 2016–17 HL Paper 116, March 2017, https://publications.parliament.uk/pa/ld201617/ldselect/ldeucom/116/116.pdf

8. Gibraltar Election: What will happen to Gibraltar after Brexit? https://www.express.co.uk/news/world/1192470/gibraltar-election-results-what-will-happen-to-gibraltar-after-brexit/.

9. HM Government of Gibraltar, Chief Minister’s Statement to Parliament On The New Year's Eve Framework Agreement - 61/2021, January 15, 2021,

https://www.gibraltar.gov.gi/press-releases/chief-ministers-statement-to-parliament-on-the-new-years-eve-framework-agreement-612021-6604

10. Kassam A., Boffey D.,“Spain and UK reach draft deal on post-Brexit status of Gibraltar”, Guardian, 2020, https://www.theguardian.com/world/2020/dec/31/spain-and-uk-reach-draft-deal-on-post-brexit-status-of-gibraltar

11. Lincoln Simon J. “The Legal Status of Gibraltar: Whose Rock is it Anyway?”, Fordham International Law Journal, Volume 18, Issue 1 Article 8, 1994, p.285-331. https://ir.lawnet.fordham.edu/cgi/viewcontent.cgi?article=1405&context=ilj.

12. Margaret Thatcher House of Commons Parliamentary questions, 1989 Jan 31, https://www.margaretthatcher.org/document/107572.

13. Margaret Thatcher, Press Conference prior to visiting Spain, 1988 Sep 19, https://www.margaretthatcher.org/document/107331.

14. Official website of the British Armed Forces, “The British Army in Gibraltar”, https://www.army.mod.uk/deployments/gibraltar/.

15. Peck T. “UK will 'stand up for Gibraltar' in Brexit row with Spain, says Boris Johnson”, Independent TV, 01 April 2017, https://www.independent.co.uk/news/uk/politics/gibraltar-brexit-uk-boris-johnson-spain-a7661471.html.

16. The Brussels Agreement, 27th November 1984, http://www.gibnet.com/library/brussels.htm.

17. The Lisbon Agreement, 10th April 1980, http://www.gibnet.com/library/lisbon.htm.

18. The World Factbook, Gibraltar, https://www.cia.gov/the-world-factbook/countries/gibraltar/.

***Türk dilində***

19. Insamer.com, “Cebelitarık Krizinin Kelebek Etkisi”, 2017, https://insamer.com/tr/cebelitarik-krizinin-kelebek-etkisi_649.html.

## *Rus dilində*


20. Geopolitics.ru, “Спорные территории - Перешеек между Гибралтаром и Испанией”, 2014, http://www.geopolitics.ru/2014/02/spornye-territorii-peresheek-mezhdu-gibraltarom-i-ispaniej/.

21. Livejournal.com, “Испания: Гибралтар принадлежит нам, а не британцам”, 2018, https://taen-1.livejournal.com/442660.html.

22. Ананьева Е.В., “Брекзит: причины, политический фон, последствия”, Контуры глобальных трансформаций: политика, экономика, право. 2017, Том 10,№6, стр. 98-119, https://www.ogt-journal.com/jour/article/view/261/259

23. Аникеева Н.Е. “Испания в современном мире: 1976-2004”, М. Национальное обозрение, 2007, 123 Стр. https://mgimo.ru/library/publications/20996/.

24. Аникеева Наталья, Капитонова Наталия, “Проблема Гибралтара в британо-испанских отношениях в контексте Брекзита”, Современная Европа, 2020, №6, стр.64-75, http://www.sov-europe.ru/images/pdf/2020/6-2020/Anikeeva_Kapitonova-6-20.pdf.

25. Громыко А.А. Монография, «Дилеммы Британии: поиск путей развития»?, / под ред. М. 2014, 480 стр. https://www.vesmirbooks.ru/books/catalog/political/2374/.

26. Громов А. “Гибралтар и Brexit: почему полуостров стал главным “камнем преткновения”, Тасс.ru, 2018, https://tass.ru/mezhdunarodnaya-panorama/5825973.

27. Зенина Мария Александровна, “Гибралтар и Фолкленды: Неурегулированные споры вокруг заморских территорий Великобритании”, Актуальные проблемы Европы, 2018, стр.152-171, https://cyberleninka.ru/article/n/gibraltar-i-folklendy-neuregulirovannye-spory-vokrug-zamorskih-territoriy-velikobritanii.

28. Искендеров П. “Соединенное Королевство рискует разбиться о Гибралтарскую скалу, «Международная жизнь», 2017, https://interaffairs.ru/news/show/17279.

29. Коваленко Н. “Зачем Испания пытается «отбить» Гибралтар у Великобритании?”, Взгляд Деловая Газета, 2019, https://vz.ru/question/2019/2/18/964873.html.

30. Кузнецова М.В. “Гибралтар в испано-британских отношениях:история вопроса”, Свежий взгляд, Вестник МГИМО Университета, 2011, стр.295-300, https://vestnik.mgimo.ru/jour/article/view/2315?locale=ru_RU.

31. Кузнецова М.В. “Трехсторонний Форум «Диалог по Гибралтар30у». К вопросу о механизмах решения проблемы Гибралтара в испанско-британских отношениях”, // Латинская Америка, 2010, № 10, 14 стр.

32. Кузнецова Мария Валерьевна, “Проблема Гибралтара в испано-британских отношениях в начале XXI века”, Москва, 2015, 170 стр, https://docplayer.com/50776747-Na-pravah-rukopisi-kuznecova-mariya-valerevna-problema-gibraltara-v-ispano-britanskih-otnosheniyah-v-nachale-hhi-veka.html.

33. Лиокумович Марк Борисович, “Гибралтарский вопрос: история и современность”, / студент кафедры Европейских исследований, Санкт-Петербург 2015, 67 стр, https://www.bibliofond.ru/view.aspx?id=877438.

34. Максимов Илья, Рокоссовская Ариадна, “Brexit: почему Великобритания выходит из ЕС и к чему это приведет”, Интернет-портал «Российской газеты», https://rg.ru/2020/01/31/brexit-pochemu-velikobritaniia-vyhodit-iz-es-i-k-chemu-eto-privedet.html

35. Маслова В. “Между трёх огней: как Великобритания, ЕС и Испания делят Гибралтар на фоне брексита”, 2017, https://russian.rt.com/world/article/374919-gibraltar-velikobritaniya-ispaniya-breksit.

36. Морозов Евгений Вячеславович, “Гибралтарский вопрос в международных отношениях периода второй мировой войны”, // Санкт-Петербургский государственный университет, Гуманитарные научные исследования, 2013, № 5, https://human.snauka.ru/2013/05/3117.

37. Орлова А. “Испания в системе военно-политических организаций и союзов Запада: обретение “нового лица”, М. 2000, 316 стр, https://cyberleninka.ru/article/n/2002-04-027-orlova-a-ispaniya-v-sisteme-voenno-politicheskih-organizatsiy-i-soyuzov-zapada-obretenie-novogo-litsa-m-oost-2000-316-s.

38. Паниев Ю. “Гибралтар не хочет порывать с Евросоюзом”, Независимая газета, 2020, https://www.ng.ru/world/2020-07-29/100_gibr29072020.html.

39. Парасюк И. “Гибралтар: легенды и реальность”, Журнал «Партнер», №1 220, 2016, https://www.partner-inform.de/partner/detail/2016/1/246/7784/gibraltar-legendy-i-realnost?lang=ru.

40. Пушкарева В.В. “Гибралтар и Брекзит”, Вестник Удмуртского Университета, Социология, Политология, Международные отношения 2020, Т. 4, вып. 4, стр.445-454, https://journals.udsu.ru/sociology/article/view/5666.

41. РИА Новости, “Спор из-за Гибралтара грозит обострением отношений Британии и Испании”, 2013, https://ria.ru/20210901/sobaki-1748197273.html.

42. Севостьянова Э.К. “Проблема Гибралтара в отношениях между Испанией и Великобританией”, Краснодар 2018, 33 стр. https://www.kubsu.ru/sites/default/files/users/13948/portfolio/problema_gibraltara.docx.

43. Сулима Е.Н., Каулько А.В. “Гибралтарская проблема в контексте выхода Великобритании из ЕС”, Вестник Московского университета, Серия 27. Глобалистика и геополитика, 2017, № 4, стр.11-20, https://cyberleninka.ru/article/n/gibraltarskaya-problema-v-kontekste-vyhoda-velikobritanii-iz-es.

44. Яковлев П.П. “Испания в мировой политике”, РАН. ИЛА, М. 2011, 384 стр.